RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 63 (9808) 3 aprel 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Azərbaycan-Almaniya əlaqələrinin inkişafına yeni təkan

◆ Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri



Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycana rəsmi səfər edib. Aprelin 2-də Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin rəsmi qarşılanma mərasimi keçirilib. Sonra prezidentlərin təkbətək görüşü olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib. Prezidentlər mətbuata bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar. Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin şərəfinə rəsmi nahar verilib. Həmin gün Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva Almaniya Federativ Respublikasının birinci xanımı Elke Büdenbender ilə görüşüb. Heydər Əliyev Mərkəzində məşhur Azərbaycan və alman bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer, birinci xanım Elke Büdenbender tədbirdə iştirak ediblər.

Azərbaycanda rəsmi səfərdə olan Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer və xanımı Elke Büdenbender aprelin 2-də Şəhidlər xiyabanını ziyarət ediblər.

Qonaqlar "Bakı Ağ Şəhər"də olublar və dünya mədəni irs abidələri sırasında yer alan İçərişəhərlə tanış olublar. Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 2-də başa çatıb.

→ 2-4



# SÜLHSEVƏR DÜNYANIN FİKİR ÜNVANI

Dünya üçün faydalı olmaq, dövlətlərə böyük xeyir gətirəcək layihələr gerçəkləşdirmək, işlər görmək nədənsə heç də hamının xoşuna gəlmir.

**Azərbaycanı gözü götürməyənlər, ona düşmən münasibəti bəsləyənlər hər vasitə ilə ona mane olmağa, qazandığı nailiyyətləri xəyanətkar üsullarla gözdən salmağa çalışırlar.**

*BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi edən Azərbaycan bir neçə dövlət və qurum tərəfindən belə yaramaz münasibətlə üzləşdi.*

* Bu gün Azərbaycan dünyanın 12 dövlətinə təbii qaz ixrac edir və onlardan 10-u Avropa ölkəsidir.

* COVID-19 pandemiyası dövründə Azərbaycan 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımı göstərdi.

* "Yaşıl enerji" istehsalını sürətlə artıran ölkəmiz onun Avropaya ixracından ötrü Qara dənizin altı ilə kabel xətti çəkməyi planlaşdırır.

**COP29-da isə iki mühüm problemin uğurlu həllinə nail oldu:**

*Əvvəla,* on ildən artıq keçilməz sədd sayılan Paris Sazişinin 6-cı maddəsi üzrə konsensus əldə edildi.

*İkincisi,* bərpaolunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyarddan 300 milyard dollara artırılmasına nail oldu.

*Halbuki bəzi dövlətlər və beynəlxalq qurumlar COP29-u boykot yolu tutmuşdular.*

ABŞ-nin Dövlət Departamenti, "The Washington Post", "The New York Times", "Politico", "Newsweek" və "Associated Press", Fransanın "Le Monde", "Le Figaro" və digər qəzetlər əleyhimizə sistemli təbliğat apararaq barəmizdə saxta xəbərlər yayırdılar.

Nəticə nə oldu?!

Biz istəyən kimi...

**Çünki Azərbaycan yalnız özünə güvənir və onun rəhbəri İlham Əliyev nəyi nə vaxt və necə edəcəyini yaxşı bilir.**

→ 8

## Azərbaycan-Almaniya iqtisadi əlaqələrinin bünövrəsi 200 il əvvəl qoyulub

Azərbaycanın malik olduğu iqtisadi imkanlar Almaniya ilə əməkdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynayır. Almaniya Azərbaycanı Cənubi Qafqazda vacib tərəfdaş kimi qəbul edir, ölkəmizin regionda lider mövqeyini, həmçinin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü tam dəstəkləyir. Bu da o deməkdir ki, Azərbaycanla Almaniya arasında iqtisadi əlaqələr kifayət qədər inkişaf edib. Ticarət dövriyyəsi genişlənib, qarşılıqlı ixrac artıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, təkcə bu ilin yanvar-fevral aylarında Azərbaycanın Almaniya ilə ticarət dövriyyəsinin ümumi dəyəri 2024-cü ilin eyni dövrünə nisbətdə 2,8 dəfə artaraq 485,3 milyon dolları üstələyib. Azərbaycandan Almaniyaya ixracın dəyəri 284,9 milyon, Almaniyadan isə Azərbaycana idxalın dəyəri 200,4 milyon dollar olub. 2025-ci ilin ilk iki ayının nəticələrinə görə, ölkənin ümumi ticarət dövriyyəsində Almaniya ilə ticarətin payı 5,45 faiz təşkil edib ki, bu da bir il öncəki göstəricidən 2,1 faiz çoxdur.

→ 9

## Artıq Kəlbəcərin zəfər və quruculuq tarixlərini qeyd edirik

Kəlbəcəri azadlığına qovuşduran və 2021-ci ilin avqustunda bu ulu diyara ilk səfərini edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bəyan etdi ki, bu bölgəni cənnətə çevirəcəyik. Qalib lider İlham Əliyevin bu xoş xəbərindən ötən qısa zaman dönəmində Kəlbəcərdə böyük quruculuq, bərpa işləri həyata keçirilib, yeni sosial-iqtisadi obyektlərin təməlləri atılıb, uğurlu açılışlar edilib.

Prezident İlham Əliyevin birbaşa nəzarəti altında bu ərazidə infrastruktur layihələr gerçəkləşdirilir, yollar, tunellər çəkilir, su-elektrik stansiyaları qurulur, kompleks işlər görülür.

Təməli Prezident İlham Əliyev tərəfindən qoyulan Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunan 11,6 kilometrlik tunelin özü bu ərazidə həyata keçirilən misilsiz işləri gözlər önünə sərən nümunələrdən yalnız biridir.

→ 11

## Başlanğıcını Aprel döyüşlərindən götürən Zəfər

Aprel döyüşlərində Tərtər rayonu istiqamətində bir sıra strateji mövqelər, Cəbrayıl rayonundakı Lələtəpə yüksəkliyi, ümumilikdə isə iki min hektardan artıq ərazimiz işğaldan azad edildi. Həmin strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər ordumuza təmas xəttində strateji üstünlüyünü təmin etməyə, düşmənin əlaqə yollarını nəzarət altına almağa imkan verdi.

Xüsusilə qeyd edilməlidir ki, həmin vaxt ordumuzun bölmələri əlverişsiz mövqelərdən əks-hücum əməliyyatına başlamışdılar. Bu baxımdan həyata keçirilən uğurlu hücum əməliyyatları Azərbaycan Ordusunda həyata keçirilən islahatların, döyüş qabiliyyətinin artırılmasının, şəxsi heyətin peşəkarlığının yüksəldilməsi istiqamətində görülən işlərin təcəssümü oldu. Düşmən 1994-cü ildən sonra bərkidib-betonladığı, dinc əhalinin başına güllə, mərmi yağdırdığı mövqelərdən bir həmlədə qovulub çıxarıldı. Eyni zamanda bu döyüşlər Azərbaycan hərbçilərinin yüksək mənəvi-psixoloji hazırlığını, qələbə əzmini nümayiş etdirdi.

→ 10

## Fransa hazırda tarixinin ən miskin dövrünü yaşayır

Fransa hökumətinin zülmlərindən, işgəncələrindən cana doymuş xalqların gündən-günə güclənən və daha qətiyyətlə səslənən etirazları bu ölkənin müstəmləkəçilik siyasətinin sona çatmaqda olduğunu göstərir. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə ötən həftə ölkəmizdə keçirilən "Kolonializm: Dini-Milli Kimliyin Silinməsi" adlı beynəlxalq konfransda səsləndirilən fikirlər buna bariz nümunə oldu.

Beynəlxalq konfransda çıxış edən "Yeni Kaledoniya Sakit Okean İcmaları və Mədəniyyətləri Evi" (NCMCP) assosiasiyasının prezidenti Mariya İzabella Saliqa bildirdi ki, Fransanın müstəmləkəçilik siyasəti nəticəsində xalqların milli-mənəvi dəyərləri və adət-ənənələri məhv olmaq ərəfəsindədir: "Bu siyasət xalqların tarixində ağır yaralara yol açıb". O vurğuladı ki, müstəmləkəçilik əzilən xalqların təkcə adət-ənənələrini deyil, eyni zamanda mədəniyyətlərini məhv edir.

→ 14

## Ermənistan sənayesinin "inkişaf"ı sabun köpüyü imiş

Ermənistanın digər sənaye müəssisələri ilə müqayisədə daha yüksək ixrac qabiliyyəti olan dağ-mədən və metallurgiya sənayesində də problemlər mövcuddur. Dünya əlvan metal və metal bazarında qiymətlərin enməsi Ermənistanın qızıl və mis ixracından əldə etdiyi gömrük gəlirlərinin xeyli azalmasına səbəb olub. Bu sahədə fəaliyyət göstərən şirkətlərin çoxu bağlanıb.

Keçən il mütəxəssislər sənaye sektorundakı saxta artımlar barədə danışanda Ermənistan hakimiyyəti özünü müdafiə edərək yeni istehsal gücləri işə salındığını, mövcud istehsalatların həcminin artdığını və yüksək artımların bunun hesabına baş verdiyini deyirdi. Bu il sənayedə ikiqat azalmalar sübut etdi ki, Paşinyan hakimiyyəti heç nə yaratmayıb, heç bir güc artırmayıb. Sadəcə, illüziya yaradıb, həm sənaye, həm iqtisadiyyat, həm də xarici ticarət göstəricilərini şişirdərək, rus qızılını Ermənistandan keçirərək erməni məhsulu adı altında ixrac edib.

→ 14

◆ Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri

# Azərbaycan-Almaniya əlaqələrinin inkişafına yeni təkan

## Rəsmi qarşılanma mərasimi

**Aprelin 2-də Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Almaniya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Almaniya Prezidenti Frank-Valter Ştaynmayeri və birinci xanım Elke Büdenbenderi qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi Almaniya Prezidentinə raport verdi.

Almaniya Federativ Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.









## Təkbətək görüş



Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə təkbətək görüşü olub.

## Geniş tərkibdə görüş

**Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer ilə geniş tərkibdə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən **Prezident İlham Əliyev** dedi:

- Cənab Prezident, əziz qonaqlar, xoş gəlmisiniz. Sizə burada yaxşı vaxt keçirməyi arzulayıram. Bizim elə indicə cənab Prezidentlə məhsuldar görüşümüz oldu. Görüş zamanı biz ikitərəfli gündəliyə daxil olan geniş, əhatəli məsələləri, eləcə də beynəlxalq məsələləri müzakirə etdik. Almaniya Prezidentini Azərbaycanda qəbul etməkdən çox məmnunam. Bildiyiniz kimi, bizim mütəmadi təmaslarımız olub. Biz keçən il Berlində görüşmüşdük və mən dəvətimi qəbul etdiyinizə görə Sizə minnətdaram. Əminəm ki, səfər çox faydalı, məhsuldar olacaq və bizim ikitərəfli əlaqələrimizə yeni təkan verəcəkdir. Xoş gəlmisiniz, cənab Prezident.

Prezident **Frank-Valter Ştaynmayer** dedi: Təşəkkür edirəm, cənab Prezident. Səmimi dəvətinizə görə təşəkkür edirəm. İcazə verin bildirim ki, uzun illərdən sonra yenidən Azərbaycanda olmaq xoşdur. Sonuncu səfərim xarici işlər naziri qismində 2016-cı ildə oldu. Ötən 9 ildə geosiyasi dəyişikliklərə gəlincə, bu, əbədiyyət kimi görünür. Lakin düzünü söyləsək, mən təxminən iki il bundan əvvəl Azərbaycan ərazisində - Xəzərin şərq hissəsində olmuşam. Sizin Aktaudakı logistika mərkəzini ziyarət edərkən və Azərbaycan gəmisinə minərkən mən öyrəndim ki, bu gəmi Azərbaycan ərazisidir. Ona görə də buraya, Bakıya yenidən qayıtmaq və bu günlərdə zəruri olan çox geniş fikir mübadiləsi aparmaq üçün imkana malik olmaq xoşdur.



❖ ❖ ❖

Görüşdə Orta dəhliz layihəsi və bu layihədə Azərbaycanın rolu, ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq məsələləri müzakirə edildi, "yaşıl enerji" ilə bağlı əməkdaşlığa toxunuldu. COP29-un Azərbaycanda yüksək səviyyədə təşkil edildiyi və həmin tədbir zamanı iqlim gündəliyi ilə bağlı mühüm nəticələrin əldə olunduğu vurğulandı.

Söhbət zamanı humanitar əlaqələrin inkişafına toxunuldu. Alman icmasının uzun illər Azərbaycanda sülh və əmin-amanlıq şəraitində yaşaması və onlara dövlət səviyyəsində göstərilən yüksək diqqət qeyd edildi.

# Azərbaycan və Almaniya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer mətbuata bəyanatlarla çıxış edib, jurnalistlərin suallarını cavablandırıblar.**

**AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı

- Hörmətli cənab Prezident.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə cənab Prezident, Sizi bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Mən şadam ki, bizim aramızda siyasi dialoq müntəzəm olaraq aparılır. Keçən ilin aprel ayında mən Berlində səfərdə olarkən Sizinlə görüşmüşdüm və şadam ki, mənim dəvətimi qəbul edib Siz Azərbaycana rəsmi səfərə gəlmisiniz.

Həm təkbətək görüşdə söhbət əsnasında, həm də nümayəndə heyətlərinin iştirakı ilə apardığımız danışıqlarda Almaniya-Azərbaycan əlaqələrinin gələcək inkişafı müzakirə edilmişdir. Mən tam əminəm ki, bu səfər bizim əlaqələrimizə yeni müsbət təkan verəcəkdir. İqtisadi sahədə əldə edilmiş nəticələr bizi təbii olaraq ruhlandırır. Çünki bu ilin yanvar-fevral aylarında bizim ticarət dövriyyəmiz təxminən üç dəfə artıb. Bunun əsas səbəbi Azərbaycandan Almaniyaya ixrac edilən xam neftin həcminin artması olmuşdur. Ona görə biz hesab edirik ki, gələcək illərdə öz ticarət dövriyyəmizin şaxələndirilməsi ilə bağlı daha fəal addımlar atmalıyıq, xüsusilə bərpaolunan enerji sahəsində - harada ki, Almaniya şirkətlərinin çox böyük təcrübəsi var, Azərbaycanın da çox böyük proqramı, planları var. Biz xarici investorların sərmayəsi hesabına 2030-cu ilə qədər bərpaolunan enerji növlərinin istehsal gücünü 6 gigavata çatdırmaq fikrindəyik və bu, tam realdır, bunun bir hissəsi Avropaya ixrac ediləcəkdir.

Bildiyiniz kimi, keçən il Azərbaycan COP29 beynəlxalq iqlim konfransına evsahibliyi etmişdir. Bu istiqamət üzrə də bizim Almaniya ilə çox fəal əməkdaşlığımız olub. COP29-da 197 ölkəni təmsil edən 77 mindən çox iştirakçı qeydiyyatdan keçmişdir və bu konfrans böyük, uğurlu nəticələrlə zəngin idi. İştirak etməyən yeganə ölkə Ermənistan olmuşdur. Bu da təbii olaraq təəssüf hissi doğurur. Çünki xüsusilə indiki şəraitdə - Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin uğurla getdiyi bir zamanda Ermənistan tərəfinin bu beynəlxalq konfransı boykot etməsi başadüşülən deyildi. Bu gün bu məsələ də müzakirə olundu və Azərbaycanın mövqeyi Almaniya tərəfinə çatdırılmışdır.

Azərbaycan 30 il ərzində erməni işğalından əziyyət çəkmişdir. Bizim xalqımız etnik təmizləməyə məruz qalmışdır. Bir milyon azərbaycanlı erməni aqressiyasına görə evsiz-eşiksiz qalmışdır və torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdür. Əfsuslar olsun ki, beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı ciddi addım atmamışlar. Azərbaycan bu münaqişəni və beynəlxalq hüququ özü döyüş meydanında və siyasi müstəvidə həll etmişdir. Məhz bu tarixi Zəfərimiz sülh danışıqlarına yol açmışdır.

*Ardı 3-cü səh.*

◆ Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri

# Azərbaycan-Almaniya əlaqələrinin inkişafına yeni təkan

## Azərbaycan və Almaniya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

Əvvəli 2-ci səh.



Hesab edirəm ki, bu gün Azərbaycanın və Ermənistanın sülhün əldə edilməsində mövqeləri bir-birinə kifayət qədər yaxınlaşmışdır.

Eyni zamanda bu gün digər beynəlxalq məsələlər də müzakirə edildi, o cümlədən Amerika-Avropa İttifaqı gərginliyi, Rusiya-Qərb gərginliyi. Bütün bu məsələlər təbii olaraq bütün dünyaya təsir edir və səmimi fikir mübadiləsi aparmaq mənim üçün çox önəmli idi.

Bir daha demək istəyirəm, əminəm ki, bu səfərin çox müsbət nəticələri olacaqdır. İkitərəfli münasibətlərimizin tarixində bu, Almaniya Prezidentinin Azərbaycana birinci rəsmi səfəridir. Əminəm ki, səfərin yekunları bizim ölkələrimizi bir-birinə daha yaxın edəcəkdir.

Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

Sonra Almaniya Prezidenti bəyanatla çıxış etdi.

### Prezident Frank-Valter Ştaynmayerin bəyanatı

- Hörmətli həmkarım cənab Prezident, bu səmimi dəvətə görə dərin təşəkkürümü bildirir və göstərilmiş qonaqpərvərliyə görə bütün alman nümayəndə heyətinin adından təşəkkür edirəm. Çox ürəyimizcə oldu. Siz qeyd etdiniz ki, Azərbaycanda birinci dəfə deyiləm, bu vəzifədə ilk dəfədir gəlirəm. Prezident kimi birinci dəfə gəlirəm. Əvvəllər Azərbaycanda dəfələrlə olmuşam. Amma axırıncı dəfə 2016-cı ildə səfər etmişdim və artıq doqquz il keçib üstündən. Hazırda dünyada vəziyyət çox sürətlə dəyişir və geosiyasi baxımdan 9 ildə o qədər dəyişikliklər olub ki, 2016-cı ildə ölkənizə səfərim mənə artıq uzaq keçmiş kimi görünür. Şadam ki, bu gün yenidən gəlib görüşdük və çox geniş fikir mübadiləsi apara bildik. Əslində, həmişə bu mübadiləni aparmışıq. Bakıda olmasa da, başqa yerlərdə görüşmüşük, telefonla söhbət etmişik. Münxen Təhlükəsizlik Konfransında görüşmüşük, eləcə də Sizin Berlinə səfərinizi yaxşı xatırlayıram. Keçənilki görüşdə müzakirə apardıq və şadam ki, səfərinizə cavab olaraq bu gün ölkənizdəyəm.

Cənab Prezident, biz ölkələrimiz arasındakı münasibətlərin tarixi haqqında danışmışıq. Əvvəla, şvabiyalı kəndlilərin burada - Azərbaycanda məskunlaşmasını, şərabçılıq ənənələrini yaratmasını xatırlaya bilərik. Onlar kənd təsərrüfatının inkişafında iştirak ediblər. Əlbəttə, sənayeləşmədə də onların xeyli iştirakı olub. Alman təşkilatları, böyük şirkətlər sənayenin inkişafında, mis çıxarılmasında, elektrik enerjisi şəbəkəsinin qurulmasında iştirak ediblər. Bir çox almanlar Azərbaycanda yaşayıblar. Bunu ona görə xatırladıram ki, bu münasibətlərimizin uzun keçmişini, Almaniya ilə Azərbaycan arasında bu münasibətlərin çoxdan olduğunu bilmək vacibdir. Çox məmnunam ki, Azərbaycanda alman dilinə və Almaniyada təhsilə böyük maraq var. Azərbaycan gəncləri Almaniyada təhsil almağa böyük maraq göstərirlər və hesab edirəm ki, biz məhz elmi əməkdaşlıq sahəsində əlaqələrimizi genişləndirməliyik.

Bu cür mübadilədən çox məmnunam. Şadam ki, bir-birimizlə həmişə açıq danışa bilmişik. Həm ümumi fikrimiz olduğu mövzularda, həm də mövqeyimiz fərqləndiyi məsələlərdə səmimi danışa bilmişik. Hər iki tərəf geniş söhbətlər əsnasında bir-biri ilə açıq danışıb, söhbətlər aparıb. Hazırda çox sürətli və dramatik dəyişikliklərin baş verdiyi dünyada yaşayırıq. Cənab Prezident, Siz ölkələrimizi birləşdirən meyarları artıq qeyd etdiniz. Beynəlxalq hüququn qorunması, dünyanın tənzimlənən əsaslarla inkişaf etməsində marağımız da bizi birləşdirir və biz gələcək nəsillərə də düzənsiz dünyanı qoyub getmək istəmirik.

Bizim üçün strateji mövzularda da müzakirə apardıq. Eyni zamanda iqtisadi əməkdaşlıq perspektivlərimizi müzakirə etdik. Siz artıq bir neçə meyarı qeyd etdiniz. Bununla belə, 2022-ci ildə Azərbaycan Almaniyada böyük rol oynayıb. Rusiyadan aldığımız qaz təchizatında dayanma baş verdiyi zaman Azərbaycan üzərinə böyük məsuliyyət götürdü və mən buna görə Sizə çox təşəkkür edirəm. Sizin sözlərinizdən elə başa düşdüm ki, burada qaz ilə yanaşı, infrastrukturun genişləndirilməsinə də ehtiyac var. Beləliklə, infrastrukturun yaxşılaşdırılması üzərində Avropada işləməliyik. Çünki o, hələ də kifayət həcmdə deyil. Bir sözlə, bu görüşlərdən sonra yeni ev tapşırıqlarımız da var.

Çox şadam ki, Azərbaycan inkişaf edərək mühüm məkana çevrilib və buradan olduqca vacib ticarət yolları keçir, öz növbəsində həmin amil dünyanın birləşməsinə əsas ola bilər. Biz iqtisadi-ticari münasibətlərimiz haqqında danışdıq. Yalnız Mərkəzi Asiya ilə deyil, həm də Uzaq Şərqlə, o cümlədən Cənub-Qərbi Asiya və Çinlə Almaniyanın ticarət əlaqələrində ölkənizin rolu var. Bilirik ki, hazırkı mövcud yolların imkanları məhduddur. Ölkənizdən keçən yollar, həmçinin Orta dəhlizin rolu alman iqtisadiyyatı üçün vacibdir, yaxşı perspektivdir və bu, daha maraqlı olacaq. Son illərdə cərəyan etmiş hadisələrdən sonra Cənubi Qafqaz regionunuz daha sabit bölgəyə çevriləcək. Bununla mən, cənab Prezident, Sizin toxunduğunuz bir məsələyə də münasibət bildirmək istəyirəm. Siz qonşu Ermənistan arasında sülh münasibətləri haqqında danışdınız. Bu sülh prosesinin çox böyük əhəmiyyəti var. Kənardan müşahidə edən bir şəxs kimi deyə bilərəm ki, bu, bizə böyük təəssürat bağışlayır. Yəni son bir il ərzində çox böyük addımlar atılıb, çox böyük irəliləyişlər olub. Hər iki tərəfi bu münasibətlə təbrik edirəm ki, artıq anlaşma yaranıb. Martın 13-də bu sülh müqaviləsinin mətninin razılaşdırılması barədə bəyanat verildi. Bu müqavilə haqqında mən bu gün səhər danışanda cənab Prezidentə dedim ki, bu anlaşma ilə ümid doğuran bir an yaranıb. Bu razılaşma əldə olunduğuna görə ümid edirəm ki, vəziyyət daha da inkişaf edəcək və ondan istifadə edərək tezliklə sülh müqaviləsinin imzalanmasına gəlib çıxacaqsınız, nəhayət, sizin regionunuzda əsl və davamlı sülh yaranacaq. Mən buna çox böyük ümid bəsləyirəm və sizi həmin anı əldən buraxmamağa çağırıram. Bütün çətinliklərə və maneələrə baxmayaraq, bu yol qət edilib, xeyli addımlar atılıb və sona qədər getmək lazımdır. Bununla belə, təbii olaraq, kompromislər üçün cəsarət, siyasi iradə lazımdır, nəticədə siyasi müqavilə həqiqətən də həyata keçə bilər və qüvvəyə minər. Ümid edirəm ki, hər şey alınacaq və biz həmçinin kənardan bacardığımız qədər, necə mümkündürsə öz dəstəyimizi verəcəyik. Çox sağ olun.

❖ ❖ ❖

Daha sonra jurnalistlərin sualları cavablandırılıb.

Berlində fəaliyyət göstərən DPA informasiya agentliyindən **Ullrix Ştaynkol:**

*- Cənab Əliyev, Sizin İrəvandakı həmkarınız bildirmişdir ki, bu müqavilənin həyata keçirilməsində yaranmış maneələr aradan qaldırıla bilinəcək maneələrdir. O, özü bunun üçün çalışır. Çətinlik ondadır ki, Sizin ölkəniz daha əlavə tələblər irəli sürür. Xahiş edirəm, izah edin, sülh müqaviləsini imzalamaqda nə qədər ciddisiniz? Sülh Sizin üçün nə qədər ciddidir? Daha bir sualım cənab Federal Prezidentədir ki, Siz öz növbənizdə Ermənistandan Azərbaycana hər hansı mesaj gətirmisinizmi?*

**Prezident İlham Əliyev:** Bu gün söhbət əsnasında mən cənab Prezidenti Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı kifayət qədər məlumatlandırdım. Bildirdim ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan və şəxsən mən sülh danışıqlarının başlanmasının təşəbbüskarı olmuşam. O vaxt nə Ermənistan, nə də ki, o vaxt hələ fəaliyyət göstərən ATƏT-in Minsk qrupu belə bir təklif irəli sürməmişdir. Bu təklifi Azərbaycan tərəfi vermişdir. Bu, özlüyündə onu göstərir ki, biz sülh müqaviləsinin bağlanmasında nə qədər maraqlıyıq. Ermənistandan hər hansı bir cavab gəlmədiyi üçün biz mümkün olan bu müqavilənin əsas prinsiplərini də ortaya qoyduq. Yadımdadır, 5 əsas prinsip irəli sürülmüşdü və bu prinsiplər əsasında müzakirələrə start verildi. Danışıqların əsas maneəsi ondan ibarət idi ki, 2024-cü ilin yanvar ayına qədər Ermənistan təkidlə sülh müqaviləsinə dırnaqarası Dağlıq Qarabağ respublikasının taleyini salmaq istəyirdi. Biz isə buna qəti etiraz edirdik. Çünki "Dağlıq Qarabağ" adlı respublika yoxdur. Bu, ancaq Ermənistanın xülyalarında mövcud olub. Azərbaycanın Qarabağ bölgəsi mövcuddur. Bu, bizim daxili işimiz olduğu üçün biz təbii ki, dövlətlərarası müqaviləyə belə bir bəndin salınmasına heç vaxt razı ola bilməzdik.

Ancaq 2023-cü ilin sentyabr ayında Qarabağ torpağında separatizmə son qoyulandan bir neçə aydan sonra Ermənistan təkidlə irəli sürdüyü o maddəni sülh müqaviləsinin mətnindən çıxarmağa razı oldu. Faktiki olaraq real danışıqlar təqribən bir il bundan əvvəl başlamışdır. Bu günə qədər sülh müqaviləsinin mətni tam razılaşdırılıb, 17 paraqrafdan ibarətdir. Azərbaycan burada hər hansı bir əlavə şərt irəli sürməyib. Bizim şərtlərimiz Ermənistan üçün bəllidir, yenilik deyil. Bu şərtləri biz uzun müddət ərzində irəli sürürük. Ancaq Ermənistandan bu günə qədər hər hansı bir ciddi cavab almamışıq. Nədən ibarətdir bu? Birincisi, ATƏT-in Minsk qrupu ləğv edilməlidir. Bunun da məntiqi ondan ibarətdir ki, 1992-ci ildə yaradılmış ATƏT-in Minsk qrupunun mandatı Qarabağ münaqişəsinin həlli idi. Qarabağ münaqişəsini Azərbaycan özü həll edib - BMT Nizamnaməsi əsasında və beynəlxalq hüquq çərçivəsində. Münaqişə həll olunduğu üçün və Ermənistan rəsmən Qarabağı Azərbaycan torpağı kimi tanıdığı üçün ATƏT-in Minsk qrupunun de-yure fəaliyyətinə heç bir əsas qalmamışdır. Onsuz da de-fakto bu qrup fəaliyyət göstərmirdi. Ermənistanın buna razı olmaması bizdə haqlı olaraq şübhələr doğurur. Görəsən, nə üçün? Bəlkə Ermənistan bizə qarşı yenə də ərazi iddiası ilə çıxış etmək istəyir? Onların sürətli silahlanması, öldürücü silahlar əldə etməsi, bu sahədə onlara əsas yardımçı olan Fransanın onları yeni təxribatlara təhrik etməsi bu şübhələri təbii olaraq artırır. Yəni bu, birinci məsələdir.

İkinci məsələ Ermənistanın konstitusiyası ilə bağlıdır. Ermənistan konstitusiyasında Ermənistanın müstəqillik aktına istinad var. O, konstitusiyanın tərkib hissəsidir. Orada isə Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşməsi haqqında müddəa var və bu, bizə qarşı açıq ərazi iddiası sayılır. Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir. Bu iki şərt təmin ediləndən sonra sülh müqaviləsini imzalamaq üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər doğrudan da Ermənistan sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir.

❖ ❖ ❖

**Prezident Frank-Valter Ştaynmayer:**

- Xanımlar və cənablar.

Son üç onillik ərzində bu münaqişəni, onun kəskinləşməsini və yaratdığı əzab-əziyyətləri, eləcə də xeyli qurbanlara səbəb olmuş müharibələri müşahidə edən hər bir insan başa düşür ki, bu cür münaqişənin həlli, eləcə də tərəflər arasında qarşılıqlı etimadın bərpası üçün xeyli vaxt və səy tələb olunur. Bunu öncədən qeyd etdim və bilirəm ki, belə münaqişələrdən sonra çox böyük səylər tələb olunur. Həmin səylərə də hörmət bəsləyirəm ki, müqavilənin mətni işlənib hazırlanıb. Hazırkı dövrdə razılığı əldə etmək çox böyük işdir. Ümidvaram ki, həmin müqaviləyə əlavə olaraq cənab Prezident Əliyevin indicə qeyd etdiyi şərtlər üzərində də razılaşma olacaq. Fikrimcə, onlar Azərbaycanla Ermənistan arasında davamlı sülhün əldə olunmasında maneəyə çevrilməməlidir. Təkrar edirəm, çox önəmli qətiyyət var, vacib an yetişib, onun ritmini itirmək məsuliyyətsizlik olardı. Yadda saxlamaq lazımdır, Almaniyanın da, Avropanın da təcrübəsi göstərir ki, müqavilənin hazırlanması və onun həyata keçirilməsi ilk addımdır. Sonra isə müqavilənin həqiqətən də qüvvəyə minməsi, reallıqda barışığa çevrilməsi neçə nəsilləri tələb edir. Bu, çox uzun bir prosesdir. Belə bir etibarlı barışığın həyata keçirilməsi hər iki ölkədən və xalqdan hələ çox vaxt tələb edəcək. Ona görə də bu barışığa uzun zaman tələb edildiyini diqqətdən qaçırmaq olmaz. Amma ilk addım müqavilənin hazırlanması, imzalanması, ratifikasiyası, qüvvəyə minməsi və həyata keçirilməsidir. Sonra isə digər problemlər də həll oluna bilər. Ümid edirəm ki, bu, tezliklə baş tutacaq.

❖ ❖ ❖

REAL Televiziyasından **Vəfa Həmzəyeva:**

*- Hər ikinizi salamlayıram. Sualım cənab Ştaynmayerədir. Cənab Prezident, Siz çıxışınızda qeyd etdiniz ki, Ermənistan ilə Azərbaycan arasında olan bu prosesləri, münaqişəni və indi gəldiyimiz nöqtəni izləyirdiniz və biz əminik ki, proseslərin fərqindəsiniz. Ermənistan 30 ilə yaxın bir müddətdə Azərbaycan ərazilərində təcavüzkar müharibə aparıb və beynəlxalq hüququn normalarını ciddi şəkildə pozub. Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazilərinin 20 faizini işğal etmişdi. Yəqin ki, hələ o dönəmdə Ermənistana qarşı sanksiyalar tətbiq olunsaydı, münaqişə daha tez həllini tapardı. Necə düşünürsünüz, Qərb niyə Ermənistana qarşı konkret addımlar atmadı? Təşəkkür edirəm.*

**Prezident Frank-Valter Ştaynmayer:**

- İlk növbədə demək istəyirəm ki, suala görə çox sağ olun. Amma dediklərimə yəqin qulaq asmamısınız. Mən müxtəlif vəzifələrdə Cənubi Qafqazdakı münaqişələrlə məşğul olmuşam, Azərbaycan ilə Ermənistan arasında münasibətlərlə də uzun müddətdir tanışam. Almaniya hökumətlərinin son illərdə siyasətlərinə nəzər yetirsəniz, yəqin görəcəksiniz ki, orada həm Ermənistana, həm Azərbaycana çox balanslaşdırılmış münasibət olub. Yəni çalışmışıq elə yanaşma göstərək ki, həssas məqamlar diqqətdən kənarda qalmasın və bu vaxta qədər biz beynəlxalq hüquq normalarına uyğun münasibət bildirmişik. Dediyim kimi, biz sülh müqaviləsinin hazırlanmasını çox alqışlayırıq və Qarabağ regionunun Azərbaycan ərazisi olduğunu bilirik, tanıyırıq. Bu, bizim mövqeyimizdir və bu mövqe Azərbaycan tərəfindən də konkretləşdirilə bilər.

❖ ❖ ❖

Almaniyanın ARD telekanalının müxbiri **Silviya Ştöber:**

*- Cənab Prezident Əliyev. Siz 17 bəndi qeyd etdiniz. Bu 17 bənddən Azərbaycan üçün hansı ən vacibidir?*

*Cənab Prezident Ştaynmayer, Siz barışıq sözünü işlətdiniz. Bu barışıq İkinci Dünya müharibəsindən sonra Almaniyanın bərpası üçün vacib idi. Həmin amil Avropadakı ölkələrin xalqlarının bir-birinə yaxınlaşması işində necə rol oynamışdır? Bu barədə də danışsanız, minnətdar olaram.*

**Prezident İlham Əliyev:** Əslində, belə tarixi müqavilələrdə hər bir paraqraf, hər bir bənd böyük əhəmiyyət daşıyır. Mən Prezident Ştaynmayerlə söhbət əsnasında bildirdim ki, Azərbaycan bilərəkdən bu müqaviləni həddindən çox yükləmək də istəməmişdi, ona görə o, çox yığcam müqavilədir, əsas prinsipləri əhatə edir. Yenə də deyirəm, hər bir məsələ orada ciddi əhəmiyyət daşıyır. Bu sənəd üzərində iki ölkənin mütəxəssisləri, hüquqşünasları, Xarici İşlər nazirliklərinin nümayəndələri fəal işləyiblər və hesab edirəm ki, hər iki tərəf xoş niyyət göstərib. Əks təqdirdə, bu sənəd ərsəyə gəlməzdi. Bu, birincisi. İkincisi, Ermənistanda və bəzi Qərb dairələrində Azərbaycanı müqaviləni imzalamamaqda günahlandırmaq istəyirlər. Bu da tamamilə əsassızdır. Çünki artıq qeyd etdiyim kimi, bu prosesin təşəbbüskarı Azərbaycan olub. Əsas prinsipləri işləyən də Azərbaycan olub və biz xoş niyyət göstərərək bu danışıqlarda iştirak etmişdik. Əgər biz müqaviləni imzalamaq istəməsəydik, elə qeyri-real bir şərt qoyardıq ki, Ermənistan onu qəbul etməzdi.

O ki qaldı həmin prinsiplərin ən əsasına, ən vacibinə, əlbəttə ki, bu, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü tanımasıdır - Qarabağ daxil olmaq şərti ilə. Özü də o Ermənistan hökumətindən ki, 2019-cu ildə bu hökumətin başçısı Xankəndidə - Azərbaycan ərazisində, - haraya ki, qanunsuz gəlmişdi, - mitinqdə elan etmişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Bu gün bəziləri, - mən bunu bir neçə dəfə demişəm, - Ermənistanı "sülh göyərçini" kimi təqdim etməyə çalışırlar. Amma Ermənistan hökuməti həmin hökumətdir ki, hakimiyyətə 2018-ci ildə gələndən sonra o vaxta qədər aparılmış bütün danışıqları sıfra bərabər etdi. Bildirdi ki, Azərbaycan dırnaqarası, qanunsuz "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bizə qarşı əsassız ərazi iddialarını nəinki aradan götürmədi, hətta öz tələblərini daha da sərtləşdirdi. Bax, bugünkü həmin Ermənistan hökumətinin müdafiə naziri açıq demişdir ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır. Yəni indi bugünkü Ermənistan hökumətindən və onun başında duranlardan "sülh göyərçini" düzəltmək tamamilə yanlış və əsassızdır. Bu gün razılaşdırılmış mətn onu göstərir ki, Ermənistan bu sülh müqaviləsinə məcburən imza atır. Çünki döyüş meydanında əldə etdiyimiz Qələbə, ondan sonra siyasi müstəvidə Azərbaycanın mövqeyinin üstünlük təşkil etməsi Ermənistanın arxasında duran bəzi Avropa ölkələrinin səylərinə rəğmən, nə BMT Təhlükəsizlik Şurası, nə Avropa İttifaqı Azərbaycana qarşı hər hansı bir məhdudlaşdırıcı ölçü götürmədiyi üçün bu gün Ermənistan məcbur olub Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Ona görə bu bəndlər arasında təbii olaraq məhz budur - "Qarabağ Ermənistandır və nöqtə" deyən bir adam bu gün "Qarabağ Azərbaycandır" deyir. Hesab edirəm ki, bu, gözəl bir təkamül prosesidir və biz bunu alqışlayırıq.

❖ ❖ ❖

**Prezident Frank-Valter Ştaynmayer:**

- Mənə verilən suala cavab olaraq bir neçə cümlə deyim. Barışıq necə qurulmalıdır? Buna necə təşəbbüs göstərmək olar? Bunun üçün istənilən yerdə tətbiq oluna biləcək bir resept və ya standart yoxdur. Məlumdur ki, müharibə apardıqdan sonra inam yalnız müəyyən vaxt keçdikdən sonra yaranır. Etimad birdən-birə yox, tədricən və ya ehtiyatla qazanılır. Qarşılıqlı inam bu cür formalaşır. Sizin suala cavab olaraq Avropadan bir misal çəkim: Ullrix Vikard, alman jurnalisti, tanıdığınız həmkarınız, bu yaxınlarda alman-fransız münasibətləri haqqında kitab dərc edib. O yazır ki, son 400 il ərzində Almaniya ilə Fransa arasında 23 müharibə baş verib. 1870-ci, 1914-cü və 1939-cu illərdəki son 3 müharibə lap çox qurbanlarla yadda qalmışdır. Bu iki ölkə bir-birinə sonsuz ədavəti olan düşmən idilər. Keçmiş tarix kitablarında Fransa Almaniyanın əzəli düşməni kimi qələmə verilirdi. Əslində, çoxsaylı qurbanlardan sonra yaxın dostluq münasibətlərinin yaranmasını gözləmək çox da asan deyildi. Əski tarix kitablarına baxsaq, bunu təsəvvür etmək belə mümkün deyil. Hər iki tərəf həm qətiyyət, həm siyasi iradə göstərərək keçmişi geridə qoyub yeni gələcəyə doğru addım atıb. Hər bir regionda, dünyada, o cümlədən Cənubi Qafqazda da azad və sülh şəraitində həyatı hər kəs arzulayır. Bununla belə, dinc şəraitdə yaşamaq üçün həmçinin müəyyən siyasi işlər görülməlidir.

❖ ❖ ❖

Azərbaycanın AnewZ televiziyasından **Orxan Amaşov:**

*- Mənim sualım Prezident Ştaynmayerədir. Azərbaycanın Qarabağ regionunda Ermənistan tərəfindən yaradılmış qondarma separatçı rejimin keçmiş rəhbərlərinin hazırda Bakıda məhkəməsi gedir. Onlar öz ifadələrində etiraf edirlər ki, 100-dən artıq mülki şəxsin ölümü ilə nəticələnən Azərbaycanın şəhər və kəndlərinin bombardmanı Ermənistanın hazırkı rəhbərliyinin, daha dəqiq desək, baş nazir Nikol Paşinyanın birbaşa əmrləri ilə aparılmışdır. Həmin müharibə cinayətlərinə gəldikdə, nəyə görə Avropa İttifaqı və onun təsisatları Ermənistana və onun siyasi-hərbi rəhbərliyinə qarşı sanksiya tətbiq etməyib? Sağ olun.*

**Prezident Frank-Valter Ştaynmayer:**

- Almaniyanın xarici siyasətinə nəzər salsaq görərik ki, mən son dövrlərdə bu siyasətin iştirakçısı olmuşam, bir çox hökumətlərdə iştirak etmişəm. Öz adımızdan onu deyə bilərəm ki, biz bu regionda qeyri-sülh şəraiti ilə heç vaxt barışmamışıq. Bir tərəfin digər tərəfə ərazi iddialarına heç vaxt dəstək verməmişik. Düşünürük ki, beynəlxalq səviyyədə tanınmış sərhədlər qüvvədə olmalıdır, tanınmalıdır və onlara hörmətlə yanaşılmalıdır. Almaniyanın mövqeyinə gəldikdə deyə bilərəm ki, biz öz xəttimizə, mövqeyimizə həmişə sadiq olmuşuq. Ümid edirəm ki, bu, sizin regionda da anlaşılar. İstəyirik ki, iki dövlət arasında qeyri-sülh dövrü geridə qalsın və sabitlik gətirəcək yeni bir gələcək yaransın. Həm Ermənistan, həm də Azərbaycan üçün Cənubi Qafqaz sülhün bərqərar olduğu regiona çevrilməlidir.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana rəsmi səfəri

# Azərbaycan-Almaniya əlaqələrinin inkişafına yeni təkan

## Prezident İlham Əliyevin adından Almaniya Prezidentinin şərəfinə rəsmi nahar verilib



Aprelin 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin şərəfinə rəsmi nahar verilib.

## Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Almaniyanın birinci xanımı Elke Büdenbender ilə görüşü olub





Aprelin 2-də Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyevanın Almaniya Federativ Respublikasının birinci xanımı Elke Büdenbender ilə görüşü olub.

## Azərbaycan və Almaniya prezidentləri Heydər Əliyev Mərkəzində təşkil olunmuş konsertdə iştirak ediblər

**Aprelin 2-də Heydər Əliyev Mərkəzində məşhur Azərbaycan və alman bəstəkarlarının əsərlərindən ibarət konsert proqramı təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer, birinci xanım Elke Büdenbender tədbirdə iştirak ediblər.

Konsertdən sonra furşet təşkil olunub.





## Şəhidlər xiyabanını ziyarət





**Azərbaycanda rəsmi səfərdə olan Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer və xanımı Elke Büdenbender aprelin 2-də Şəhidlər xiyabanını ziyarət ediblər.**

AZƏRTAC xəbər verir ki, Prezident Frank-Valter Ştaynmayer Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub. Sonra Bakının ən hündür nöqtəsindən paytaxtımızın mənzərəsini seyr edən ali qonağa və xanımına Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

## Almaniya Prezidenti "Bakı Ağ Şəhər"də olub



Aprelin 2-də Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer "Bakı Ağ Şəhər"də olub.

## İçərişəhərlə tanışlıq

**Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer və xanımı Elke Büdenbender aprelin 2-də dünya mədəni irs abidələri sırasında yer alan İçərişəhərlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, ali qonağın İçərişəhərə gəzintisi tarixi memarlıq abidəsi olan Qız qalası ilə tanışlıqdan başlayıb. Almaniya Prezidenti qala divarlarının inşasının tarixi barədə məlumatlandırılıb.

Bildirilib ki, eramızdan əvvəl VII-VI əsrlərdə əsası qoyulmuş Qız qalası XII əsrdə bərpa edilib. Hündürlüyü 28 metr, diametri 16-16,5 metr olan abidə silindr formalı əsl qaladan və cənub tərəfdən ona bitişən iri dayaq tikilidən ibarətdir.

Gəzinti zamanı Almaniya Prezidenti və xanımına UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə də ətraflı məlumat verilib. Qeyd olunub ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.



Sonra ali qonağa Xalq yazıçısı Maqsud İbrahimbəyovun xatirəsinə yaradılmış Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzi haqqında məlumat verilib.

Almaniya Prezidenti Orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi barədə də məlumatlandırılıb.

İçərişəhərlə tanışlıq Prezident Frank-Valter Ştaynmayerdə və xanımı Elke Büdenbenderdə xoş təəssüratlar yaradıb.

## Səfər başa çatdı

**Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycan Respublikasına rəsmi səfəri aprelin 2-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayeri hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.





# Azərbaycan - Çin dostluq münasibətləri daha da möhkəmlənir

## Prezident İlham Əliyev Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdirini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 2-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonu qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Lü Tzyançaonun səfərinin ölkələrimiz arasında dostluq münasibətlərinin gələcəkdə də möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.

Prezident İlham Əliyev ölkələrimiz arasında münasibətlərin yaxşı inkişaf dinamikasının olduğunu və bir çox sahələri əhatə etdiyini dedi. Dövlətimizin başçısı vurğuladı ki, ötən il Si Cinpinlə görüşünün nəticələrinə əsasən qəbul edilən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə" dostluq, tərəfdaşlıq və əməkdaşlığımızın nümayişi olmaqla, qarşılıqlı fəaliyyətimizin səviyyəsini yüksəldib.

Azərbaycan Prezidenti gələcəkdə də ölkələrimiz arasında münasibətlərin uğurla inkişaf edəcəyinə əminliyini bildirdi, siyasi, iqtisadi, nəqliyyat sahələrində əməkdaşlığın regionda təhlükəsizliyin və çoxtərəfli əməkdaşlığın möhkəmlənməsi işinə xidmət etdiyini vurğuladı.

Lü Tzyançao dövlətimizin başçısı ilə görüşməkdən şərəf hissi duyduğunu deyərək, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını və xoş arzularını Prezident İlham Əliyevə çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Si Cinpinə çatdırmağı xahiş etdi.

Ölkəmizə ilk dəfə gəldiyini deyən qonaq Bakıda şahidi olduğu inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirdi.

Görüşdə ölkələrimiz arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi, bərpaolunan enerji, nəqliyyat, Orta dəhliz və "Bir kəmər, bir yol" layihəsi çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olundu, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında münasibətlərin inkişafına dair fikir mübadiləsi aparıldı.

# Baş nazir Əli Əsədov Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin nümayəndə heyəti ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov aprelin 2-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin siyasi iradəsi və birgə səyləri sayəsində iki ölkə arasında əlaqələrin yüksək inkişaf dinamikası nümayiş etdirməsindən məmnunluq ifadə olundu.

Ötən il dövlət başçıları tərəfindən "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbul edilməsinin dövlətlərarası münasibətləri keyfiyyətcə yeni səviyyəyə qaldırdığı bildirildi.

Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın səviyyəsi yüksək qiymətləndirildi, bu əməkdaşlığın iki ölkə arasında əlaqələrin inkişafı baxımından əhəmiyyəti vurğulandı.

Görüşdə Azərbaycan-Çin qarşılıqlı faydalı tərəfdaşlığının gündəliyində duran aktual məsələlər və bir sıra konkret istiqamətlər üzrə perspektivli layihələr nəzərdən keçirildi, həmçinin ticarət-iqtisadi, investisiya, "yaşıl enerji", nəqliyyat-logistika, rəqəmsal inkişaf və innovativ texnologiyalar, mədəni-humanitar, turizm sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı məsələlər müzakirə olundu.

Söhbət zamanı Baş nazir tərəfindən Orta dəhlizin bütövlükdə Avrasiya, o cümlədən Cənubi Qafqaz ölkələri üçün əhəmiyyəti qeyd edildi, Zəngəzur dəhlizinin açılmasının Orta dəhlizin inkişafına təkan verəcəyi vurğulandı.

# Azərbaycan və Çin bir çox sahələrdə uğurla əməkdaşlıq edirlər



**Aprelin 2-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonağı və rəhbərlik etdiyi nümayəndə heyətini Milli Məclisdə salamlamaqdan məmnunluğunu ifadə edən spiker Sahibə Qafarova Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu bildirib. Vurğulanıb ki, ölkələrimiz bir çox sahələrdə uğurla əməkdaşlıq edir və xüsusi əhəmiyyət kəsb edən məsələlərdə daim qarşılıqlı dəstək nümayiş etdirilir. Azərbaycan hər zaman birmənalı olaraq "Vahid Çin" siyasətini və Çinin ərazi bütövlüyünü dəstəkləyib. Azərbaycan da Çinin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyini yüksək qiymətləndirir və ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində bir-birinin maraqlarını müdafiə edirlər.

Söhbət zamanı ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin dərinləşməsində və inkişafında ən yüksək səviyyədə həyata keçirilən səfərlərin və dövlət başçıları arasında keçirilən görüşlərin mühüm rolu qeyd edilib. Bildirilib ki, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan əlaqələrimiz Prezident İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən uğurla davam etdirilir.

Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığın yaradılmasına dair Birgə Bəyannamənin, qarşılıqlı etimada əsaslanan yüksəksəviyyəli siyasi dialoqun əhəmiyyəti, Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında qurulan müntəzəm təmasların ikitərəfli münasibətlərin inkişafında rolu, iqtisadi, ticari, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlığın perspektivləri, Azərbaycanın Çin Xalq Respublikası Sədrinin irəli sürdüyü "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkə kimi bu istiqamətdə həyata keçirdiyi layihələr barədə fikir mübadiləsi aparılıb. Qeyd edilib ki, eyni zamanda "Orta dəhliz"in inkişafı istiqamətində birgə əməkdaşlıq həyata keçirilir və regionda kommunikasiyaların açılması, "Zəngəzur dəhlizi" təşəbbüsünün həyata keçirilməsi Azərbaycanın "Bir kəmər, bir yol" təşəbbüsünə növbəti töhfəsi olacaq.

Söhbət zamanı humanitar, elm, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi, iki ölkə arasında mədəni və humanitar mübadilənin əsas hərəkətverici qüvvəsi olan Heydər Əliyev Fondu və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası arasında əlaqələrin inkişafının ölkələrimizə verdiyi töhfələr vurğulanıb.

Azərbaycan və Çin arasında parlamentlərarası əməkdaşlığın əhəmiyyətindən danışan spiker Sahibə Qafarova qeyd edib ki, Milli Məclis Çindən olan həmkarları ilə əməkdaşlığın gücləndirilməsinə xüsusi önəm verir. Bu sahədə Milli Məclisdə Çinlə parlamentlərarası əlaqələr üzrə işçi qrupu uğurla fəaliyyət göstərir və Çin parlamenti ilə müxtəlif səviyyələrdə münasibətləri daha da inkişaf etdirməkdə maraqlıyıq.

Görüş üçün təşəkkürünü bildirən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Mərkəzi Komitənin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançao Azərbaycana səfər etmək arzusunun həyata keçməsindən məmnunluğunu bildirib. Qonaq ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin inkişafı, diplomatik münasibətlərin yaradılmasından ötən müddət ərzində görülmüş işlər, bu sahədə Ulu Öndər Heydər Əliyevin misilsiz xidmətləri, "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsində birgə fəaliyyət, "yaşıl iqtisadiyyat"a keçid və ikitərəfli münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini bölüşüb.

Bildirilib ki, qarşılıqlı əlaqələrin inkişafında Çinin Kommunist Partiyası ilə Azərbaycanın Yeni Azərbaycan Partiyası arasında əlaqələr xüsusi rola malikdir və qarşılıqlı təcrübə mübadiləsi, dünyadakı təhlükəsizlik çağırışlarına qarşı həmrəyliyin gücləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Söhbət zamanı qonaq Azərbaycanın "Vahid Çin" siyasətinə verdiyi dəstəyə görə təşəkkürünü ifadə edib, ölkələrimiz və parlamentlərimiz arasında əlaqələrin perspektivləri barədə fikirlərini bölüşüb.

Görüşdə YAP Sədrinin müavini və Mərkəzi Aparatının rəhbəri Tahir Budaqov, Milli Məclisin deputatları və digər rəsmi şəxslər iştirak ediblər.

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*

# Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət





**Çin Kommunist Partiyası Mərkəzi (ÇKP) Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə ölkəmizə səfərə gəlib.**

Səfər çərçivəsində aprelin 2-də YAP-ın nümayəndələri və ÇKP-nin nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb. Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

*"Azərbaycan"*

# YAP Mərkəzi Aparatında görüş keçirilib

**Aprelin 2-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaonun rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**



Görüşdə Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında diplomatik əlaqələrin mövcud olduğu 33 ildə qarşılıqlı faydalı münasibətlərin uğurla inkişaf etdiyi məmnunluqla vurğulanıb. Qeyd olunub ki, dövlət başçılarının milli mənafelərə cavab verən məqsədyönlü siyasətinin nəticəsi kimi, Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu çoxşaxəli işbirliyinin dərinləşdirilməsi, iki ölkənin beynəlxalq müstəvidə bir-birinin maraqlarını müdafiə etməsi baxımından böyük əhəmiyyətə malikdir.

Azərbaycan ilə Çinin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə əlaqələri genişləndirməkdə maraqlı olduqları vurğulanaraq "Bir kəmər, bir yol" layihəsi və Orta dəhliz çərçivəsində nəqliyyat-logistika sahəsində əməkdaşlığın önəmindən bəhs edilib.

Görüş zamanı dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi YAP ilə ÇKP arasında əlaqələrin inkişafının xüsusi diqqət mərkəzində olduğu vurğulanıb. Qarşılıqlı səfərlərin, fikir və təcrübə mübadiləsinin partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd edilib. 2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində ÇKP ilə əməkdaşlıq memorandumunun imzalanmasının ölkələrarası strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə önəmli töhfə olduğu bildirilib. Memorandumdan irəli gələn vəzifələrin yerinə yetirilməsinin partiyalar arasında qarşılıqlı inam, hörmət və etimada əsaslanan səmərəli işbirliyinin genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub. Bildirilib ki, yeni mərhələdə görüləcək işlər ortaq maraqları təmin etməklə həm partiyalarımız, həm də ölkələrimiz üçün faydalı və perspektivli olacaqdır.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

## "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Somali Federativ Respublikasının Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2025-ci il fevralın 12-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Somali Federativ Respublikasının Təhsil, Mədəniyyət və Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Somali Federativ Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 aprel 2025-ci il*

## DTX-də Azərbaycan təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı qeyd olunmuşdur



**Ümummilli Lider Heydər Əliyevin 23 mart 1997-ci il tarixli sərəncamı ilə 28 mart tarixi Azərbaycan təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi təsis olunmuşdur.**

Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 106-cı ildönümü ilə əlaqədar aprelin 2-si Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyev və Xidmətin əməkdaşları Fəxri xiyabanda Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etmiş, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiramlarını bildirərək, məzarı önünə əklil və gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın da xatirəsi anılmış, məzarı üzərinə gül dəstələri düzülmüşdür.

Daha sonra Şəhidlər xiyabanında respublikamızın müstəqilliyi yolunda canlarından keçmiş şəhidlərimizin və Azərbaycanın Milli qəhrəmanları olan təhlükəsizlik orqanlarının mərhum əməkdaşlarının məzarları ziyarət olunmuş, Xidmətin adından "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulmuşdur.

Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) akt zalında Xidmətin şəxsi heyətinin və veteranlarının iştirakı ilə təşkil olunmuş tədbirdə öncə, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin xatirəsi yad olunmuş və ardınca Dövlət himni səsləndirilmişdir.

DTX-nin rəisi general-polkovnik Əli Nağıyev çıxış edərək, peşə bayramı münasibətilə şəxsi heyətə öz təbriklərini çatdırmış, yarandığı gündən bu günədək mürəkkəb yol keçmiş təhlükəsizlik orqanlarının inkişafında ömrünün 25 ilini bu mühüm təsisatda xidmətə həsr etmiş Ulu Öndər Heydər Əliyevin danılmaz rolundan ətraflı bəhs etmişdir. Xidmət rəisi bildirmişdir ki, DTX-nin əməkdaşları dahi rəhbərin bu orqanlarda əsasını qoyduğu peşəkarlıq məktəbini və vətənpərvərlik irsini bu gün də layiqincə davam etdirirlər.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təhlükəsizlik orqanlarına göstərdiyi xüsusi diqqət və əvəzsiz qayğıdan söhbət açan general-polkovnik Əli Nağıyev qeyd etmişdir ki, məhz bu diqqət və qayğının nəticəsində DTX-nin fəaliyyətini müasir çağırışlara uyğun şəkildə qurmaq mümkün olur, Xidmətin maddi-texniki təminatı, əməkdaşların iş şəraiti və sosial vəziyyəti gündən-günə yüksəlir.

Xidmət rəisi ötən il ərzində də təhlükəsizliyin etibarlı təmin olunması baxımından DTX-nin səmərəli fəaliyyət göstərdiyini, xarici və daxili təhdidlərin qarşısının alınması istiqamətində vacib işlərin görüldüyünü, xüsusən dövlətə xəyanət, casusluq, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsdə hazırlıq cinayətləri ilə mübarizədə əhəmiyyətli nəticələrin əldə edildiyini vurğulamışdır.

Ötən dövrdə bəzi destruktiv qüvvələr tərəfindən pozuculuq fəaliyyətinin həyata keçirilməsinə cəhdlərin edildiyini qeyd edən general-polkovnik Əli Nağıyev ölkəmizin təhlükəsizliyinə yönələn halların qarşısının qətiyyətlə alınacağını bildirmişdir.

Çıxışının sonunda Əli Nağıyev, Ali Baş Komandan İlham Əliyev tərəfindən DTX-nin şəxsi heyətinə göstərilən etimadın və etibarın bundan sonra da doğruldulacağına, təhlükəsizliyin qorunması naminə əməkdaşların daim böyük səy və əzmlə çalışacaqlarına dərin inamını ifadə etmişdir.

Tədbirdə çıxış edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev DTX-nin əməkdaşlarını və veteranlarını Azərbaycan təhlükəsizlik orqanlarının yaranması günü və peşə bayramı münasibətilə təbrik etmiş, Azərbaycan xüsusi xidmət orqanlarının qarşısında duran vəzifələrin bundan sonra da uğurla yerinə yetiriləcəyinə, DTX-nin təhlükəsizliyin qorunması işinə davamlı olaraq önəmli töhfələr verəcəyinə, ölkə başçısının rəhbərliyi ilə Xidmətin gələcəkdə də yeni-yeni nailiyyətlər qazanacağına əmin olduğunu demişdir.

Çıxışlar bitdikdən sonra DTX-nin bir qrup əməkdaşının ali hərbi rütbələrə, müxtəlif orden və medallara layiq görülməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin imzaladığı sərəncamlar elan olunmuş, DTX-nin müvafiq əmrləri ilə bir sıra əməkdaşlar mükafatlarla təltif edilmişlər.

Tədbir rəsmi hissədən sonra DTX-nin Mədəniyyət Mərkəzində mədəni proqramdan ibarət bədii hissə ilə davam etmişdir.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri, Əziz Qardaş.

Sizə, yaxınlarınıza və qardaş Azərbaycan xalqına sevimli Novruz bayramı münasibətilə ən səmimi təbriklərimi çatdırıram.

Novruz bayramı baharın gəlişini, yeni başlanğıcları, harmoniyanı və ümidi simvolizə edir. Bu bayram həmçinin bizə dostluq bağlarını yeniləmək və arzularımızı bölüşmək üçün əlverişli imkan yaradır.

Bu ruhda mən Pakistanın qardaşlıq əlaqələrimizi qarşılıqlı faydalı iqtisadi tərəfdaşlığa yönəltməklə bağlı güclü öhdəliyini bir daha təsdiqləyirəm.

Zati-aliləri, bu ilin fevralında gözəl ölkənizə səfərim zamanı Sizinlə səmimi və məhsuldar görüşlərimi məmnuniyyətlə xatırlayıram. Zati-alinizi İslamabadda görməyə böyük ümid bəsləyirəm.

*Hörmətlə,*

***Məhəmməd Şahbaz ŞƏRİF,***
***Pakistan İslam Respublikasının Baş naziri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Novruz bayramı münasibətilə zati-alinizə, Azərbaycan hökumətinə və qardaş xalqınıza səmimi-qəlbdən təbriklərimi çatdırıram. Sizə cansağlığı, xoşbəxtlik, ölkənizi və xalqınızı daha böyük tərəqqi və firavanlığa doğru aparmağı davam etdirməkdə uğurlar arzulayıram.

Fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq, qardaşlıq və hörmətə əsaslanan münasibətləri gücləndirmək istəyimi ifadə edirəm.

Cənab Prezident, ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

❖ ❖ ❖

Cənab Prezident.

Sizi, ailənizi və bütün Azərbaycan xalqını Şimali Kipr Türk Cümhuriyyətinin xalqı adından və şəxsən öz adımdan Novruz və Ramazan bayramları münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizə dərin ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

***Ersin TATAR,***
***Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Türk dünyasının ortaq dəyəri, baharın müjdəçisi, əcdadlarımızdan bizə çox əhəmiyyətli bir miras olan Novruz bayramı münasibətilə Sizi təbrik edirəm. Bu bayramı qardaşlıq ruhu ilə səciyyələnən gözəl günlərdə qeyd etməyimizin sevincini yaşayırıq.

Novruz baharın gəlişi ilə yeniləşməni, bolluq və bərəkəti, qardaşlığı simvolizə edən mühüm bayramdır, eyni zamanda keçmişimizdən güc alaraq gələcəyimizi qurmaq iradəmizi gücləndirən bir imkandır.

Bu il Novruz bayramı ilə birlikdə qeyd etdiyimiz, mənəvi saflığın, həmrəyliyin rəmzi olan Ramazan bayramı münasibətilə də Sizi təbrik edirəm. Ümidvaram ki, bu bayram da türk dünyasına sevinc bəxş edəcək, birliyimizi, həmrəyliyimizi daha da gücləndirəcəkdir.

Novruz və Ramazan bayramlarının bütün dünyaya sülh, əmin-amanlıq və bərəkət gətirməsi arzusu ilə zati-alinizə cansağlığı, xoşbəxtlik və uğurlar diləyir, dərin ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Binəli YILDIRIM,***
***Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) adından zati-alinizi və Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edir, Sizə xoş arzularımı çatdırıram. Novruzun xalqınıza bol ruzi-bərəkət, xoşbəxtlik və əmin-amanlıq gətirməsini diləyirəm.

Novruz bayramı birlik və həmrəylik ruhunda Azərbaycanda və dünyanın bir çox ölkəsində ailələri, dostları və icmaları bir araya gətirir. İnsanlar baharın gəlişini, təbiətin oyanışını gözəl ənənələrlə qeyd edir, bu hadisənin mədəni əhəmiyyətinə mühüm önəm verirlər.

Cənab Prezident, icazə verin, bu xoş fürsətdən istifadə edərək OPEC-ə və Azərbaycan Respublikasının təsisçi üzvü olduğu qeyri-OPEC ölkələrinin Əməkdaşlıq Bəyannaməsinə göstərdiyiniz davamlı dəstəyə görə Sizə və ölkənizə təşəkkürümü bildirim. Zati-alinizin müdrik rəhbərliyi ilə Azərbaycan əsas tərəfdaşımızdır və biz ümumi məqsədlərimizə nail olmaq istiqamətində dialoqumuzun və əməkdaşlığımızın genişləndirilməsində dəstəyiniz və məsləhətlərinizdən faydalanmağa davam edəcəyik.

Sizə bir daha ən xoş arzularımı bildirir, yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Haysam Əl-QAYS,***
***Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi***

❖ ❖ ❖

Əs-səlamu ələykum və rəhmətullahi və bərəkatuhu.

Dünya müsəlmanlarının böyük bayramı olan Ramazan bayramı münasibətilə zati-alinizi və Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm.

Ramazan bayramı dünya müsəlmanları arasında sosial-dini bağların möhkəmlənməsini əks etdirən, mübarək Ramazan ayında ürəkdən edilən ibadətlərin səmərə verdiyini göstərən gözəl bir bayramdır.

Ümid edirəm ki, rəhmət və bərəkətlə dolu olan bu bayramın mübarəkliyi və xeyir-bərəkəti sayəsində bütün müsəlman xalqları arasında daha artıq həmrəyliyin yaranmasına, islam ölkələrində sülh və sabitliyin bərqərar olmasına və ölkələrimiz arasındakı əlaqələrin bütün sahələrdə gündən-günə daha da genişlənməsinə şahid olacağıq.

Uca Allahdan zati-alinizə möhkəm cansağlığı və müvəffəqiyyətlər, Azərbaycan xalqına isə səadət və xoş günlər arzulayıram.

*Hörmətlə,*

***Məsud PEZEŞKİAN,***
***İran İslam Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Dəyərli qardaşım.

Bütün müsəlman ümmətinin böyük sevinc və fərəhlə qeyd etdiyi müqəddəs Ramazan bayramı münasibətilə Sizə və qardaş Azərbaycan xalqına səmimi-qəlbdən təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Qardaş Özbəkistan və Azərbaycan xalqları əsrlər boyu səxavət və mərhəmət rəmzi kimi dəyərləndirdikləri bu möhtəşəm bayramı səbirsizliklə gözləyir və böyük sevinc hissi ilə qeyd edirlər.

Sizinlə birgə apardığımız sistemli işlər və nümayiş etdirdiyimiz qəti siyasi iradə nəticəsində dost ölkələrimiz arasında çoxşaxəli və uzunmüddətli əməkdaşlığı strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə qaldırmağımızın xalqlarımızın ən böyük nailiyyətlərindən biri olduğunu xüsusi qeyd etmək istəyirəm.

Allahın rəhmət və məğfirətinin bol olduğu, qəlblərimizin ilahi nurla dolduğu bu xoşbəxt və mübarək günlərdə Sizə möhkəm cansağlığı, ailə səadəti və məsuliyyətli dövlətçilik fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq, davamlı inkişaf və rifah arzulayıram.

*Səmimi ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu.

Mübarək Ramazan bayramı münasibətilə Sizə və bütün dost Azərbaycan xalqına səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan şərəf duyuram.

Tarix boyu bu müqəddəs bayramın adət-ənənələri və yüksək mənəvi idealları xalqlarımıza saflıq, paklıq, mərhəmət, tolerantlıq, xeyirxahlıq, qarşılıqlı dəstək, nəciblik və xoşməramlılıq kimi dəyərləri təbliğ edib.

Əminəm ki, ölkələrimiz arasında dostluq münasibətləri və çoxşaxəli əməkdaşlıq bu mübarək bayramın yüksək dəyərləri sayəsində xalqlarımızın köklü mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Uca Yaradandan Sizə möhkəm cansağlığı, xoşbəxtlik, yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı tərəqqi, firavanlıq, əmin-amanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Emoməli RƏHMON,***
***Tacikistan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Əs-səlamu ələykum və rəhmətullahi və bərəkətuhu.

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Uca Allahdan zati-alinizə cansağlığı, uzun ömür, dost ölkənizə və xalqınıza davamlı inkişaf, tərəqqi, İslam ümmətinə xeyir-bərəkət və firavanlıq diləyirəm.

Bayramınız mübarək!

*Hörmətlə,*

***Şeyx Məşəl əl-Əhməd əl-Cabir əl-SABAH,***
***Küveyt Dövlətinin Əmiri***

❖ ❖ ❖

Zati-aliləri Prezident İlham Əliyev.

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq.

Uca Allahdan Sizə möhkəm cansağlığı, xoşbəxtlik, Azərbaycan xalqına davamlı tərəqqi və firavanlıq diləyirik.

Zati-aliləri, ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Həməd bin İsa Al XƏLİFƏ,***
***Bəhreynin Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Müqəddəs Ramazan bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizə ən xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

❖ ❖ ❖

Zati-aliləri.

Mübarək Ramazan bayramı münasibətilə Sizə səmimi təbriklərimizi çatdırmaqdan məmnunluğumuzu bildiririk.

Zati-alinizə cansağlığı və xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzulayırıq.

Uca Allahdan diləyimiz budur ki, İslam ümmətinə xeyir-bərəkət və firavanlıq nəsib etsin.

*Hörmətlə,*

***Heytəm bin Tariq Al SƏİD,***
***Omanın Sultanı***

❖ ❖ ❖

Hörmətli cənab Prezident.

Mübarək Ramazan bayramı münasibətilə zati-alinizə səmimi təbriklərimi çatdırıram.

Allah-Taaladan Sizə cansağlığı, xoşbəxtlik və uğurlar, qardaş Azərbaycan xalqına və bütün xalqlara xeyir-bərəkət, səadət bəxş etməsini arzulayıram.

Ramazan bayramınız mübarək!

***Mahmud ABBAS,***
***Fələstin Dövlətinin Prezidenti, Fələstin Azadlıq Təşkilatı İcraiyyə Komitəsinin sədri***

❖ ❖ ❖

Zati-aliləri.

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Mübarək Ramazan ayında İslam inanclı 200 milyon hindistanlı dünyadakı qardaş və bacılarına qoşularaq oruc tutub və dua edib.

Ramazan bayramı təfəkkür, şükür və birlik bayramıdır. Bu bayram qlobal birliyin üzvləri olaraq bizi birləşdirən mərhəmət, alicənablıq və həmrəylik dəyərlərini əks etdirir.

Bu əlamətdar bayram münasibətilə bütün dünya xalqlarına cansağlığı, xoşbəxtlik, sülh və harmoniya arzulayırıq. Qoy ölkələrimiz arasında dostluq əlaqələri daha da möhkəmlənsin!

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Narendra MODİ,***
***Hindistan Respublikasının Baş naziri***

❖ ❖ ❖

Əs-səlamu ələykum və rəhmətullahi və bərəkatuhu.

Ramazan bayramı münasibətilə Əfqanıstan İslam Əmirliyi və ölkənin müsəlman xalqı adından zati-alinizə və şərəfli Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram. Azərbaycan xalqının bu mübarək bayramı hər zaman mehribanlıq, təhlükəsizlik və rifah şəraitində qeyd etməsini arzulayıram.

Əfqanıstan və Azərbaycan arasında ikitərəfli münasibətlərin möhkəmlənməsi və genişlənməsi istiqamətində son vaxtlar baş verən inkişaf prosesləri təqdirəlayiqdir. Zati-alinizin rəhbərliyi altında iki dost və qardaş ölkə arasında siyasi, iqtisadi və mədəni əlaqələrin bundan sonra daha da dərinləşməsini arzu edirəm.

Əminəm ki, ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrin genişləndirilməsi hər iki tərəf üçün faydalı olacaq və Əfqanıstan İslam Əmirliyi bu istiqamətdə səylərini əsirgəməyəcəkdir.

***Əl-Hac Molla Məhəmməd Həsən AXUND,***
***Əfqanıstan İslam Əmirliyinin Baş naziri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Sizi və ailə üzvlərinizi Türk Mədəniyyəti və İrsi Fondu adından və şəxsən öz adımdan bütün müsəlman, o cümlədən türk dünyasının təqvimində müstəsna dəyərə sahib olan müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikasına rəhbərlik etdiyiniz ilk gündən bu vaxta qədər türk və islam dünyasının birliyi və ölkənin inkişafı naminə göstərdiyiniz tarixi xidmətlər hər zaman yüksək qiymətləndirilir. Sizin təşəbbüsünüzlə yaradılmış Türk Mədəniyyəti və İrsi Fondu türk-müsəlman tarixi-mədəni dəyərlərini, humanist prinsiplərini dünyada təbliğ edir və bu istiqamətdə lazımi tədbirləri həyata keçirir.

Bu gün işğaldan azad olunmuş Azərbaycan torpaqlarında tarixi-mədəni, dini abidələr, o cümlədən məscidlər, məbədlər və kilsələr bərpa edilir. Doğma Qarabağda, əziz Şuşada Azərbaycanın dağıdılmış dini abidələrinin bərpası ilə bağlı humanist addımlar, ilk növbədə Sizin müsəlman və türk dünyasının tarixi-dini, mədəni dəyərlərinə göstərdiyiniz yüksək ehtiramın ifadəsi kimi müasir dünya tarixinin parlaq səhifələrinə həkk olunur.

Sizin rəhbərliyinizlə sürətli inkişaf yolunda mətinliklə irəliləyən Azərbaycan dövləti multikultural dəyərləri siyasi gerçəklik timsalında bəşəriyyətə möhtəşəm şəkildə təqdim edir, dini dəyərlərin insanlar tərəfindən qarşılıqlı hörmət müstəvisində qorunmasının dünyada nadir rast gəlinən bəşəri örnəyini yaradır.

Möhtərəm cənab Prezident, Sizi və ailə üzvlərinizi müqəddəs Ramazan bayramı münasibətilə bir daha ürəkdən təbrik edir, Uca Allahdan Azərbaycana Sizin rəhbərliyinizlə daha böyük yüksəlişlər, bol ruzi-bərəkət və davamlı əmin-amanlıq nəsib etməsini arzulayırıq.

*Hörmətlə,*

***Aktotı RAİMKULOVA,***
***Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident.

Müqəddəs Ramazan bayramı münasibətilə Sizə və ailənizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Mənəvi yüksəliş rəmzi olan, sevinc, şükür, səxavət hissi ilə qeyd olunan Ramazan bayramı ailələr, dostlar və daha geniş icmalar arasında əlaqələrin gücləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Uca Allahdan Sizə və yaxınlarınıza cansağlığı, xoşbəxtlik, firavanlıq və əmin-amanlıq arzulayıram.

OPEC Katibliyinin bütün kollektivi adından Sizi Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Haysam Əl-QAYS,***
***Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi***

❖ ❖ ❖

Cənab Prezident.

Ramazan bayramı münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram. Sizə və xalqınıza cansağlığı, firavanlıq, xeyir-bərəkət arzu edirəm.

Zati-alinizə ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Səad Əl-HARİRİ,***
***Livan Respublikasının sabiq Baş naziri***

❖ ❖ ❖

Zati-aliləri.

Ramazan bayramı münasibətilə zati-alinizə ən səmimi salamlarımı çatdırmaqdan, Sizə cansağlığı və səadət, xalqınıza sərhədsiz tərəqqi və firavanlıq bəxş etməyi Uca Allahdan diləməkdən böyük məmnunluq duyuram. Allah bizə Öz rəhmətini bəxş etsin. Bütün müsəlman ümmətinin nəsibi sülh və əmin-amanlıq olsun.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Salim bin Məhəmməd əl-MALİK,***
***ICESCO-nun Baş direktoru***

# "Azərbaycan - Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi"

**Aprelin 2-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Azərbaycan - Çin strateji tərəfdaşlığı: Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi" mövzusunda konfrans keçirilib.**

Tədbirdən əvvəl YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ülviyyə Həmzəyevanın ötən il Çin Xalq Respublikasına (ÇXR) səfər təəssüratlarından ibarət rəsm əsərləri nümayiş olunub.

Konfransda əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan və Çin Xalq Respublikasının müstəqilliyi və suverenliyi uğrunda canlarını qurban vermiş vətən övladlarının əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Sonra Çin Xalq Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirilib.

Konfransın moderatoru, Milli Məclisin deputatı Pərvin Kərimzadə Azərbaycanla Çin arasında əlaqələrin dinamik inkişaf etdiyini bildirib. Çin Xalq Respublikasının qlobal güc mərkəzlərindən biri olduğunu deyən P.Kərimzadə Azərbaycanın Cənubi Qafqaz regionunun lider dövləti kimi müasir beynəlxalq münasibətlər sistemində mövqelərini möhkəmləndirdiyini diqqətə çatdırıb. O qeyd edib ki, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında səmərəli, qarşılıqlı faydalı və çoxşaxəli əlaqələr mövcuddur. P.Kərimzadənin fikrincə, bu konfrans iki ölkə arasında mövcud əlaqələr və perspektiv əməkdaşlığa dair fikir mübadiləsinin aparılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlamaqdan məmnunluğunu ifadə edib, dəvəti qəbul edərək ölkəmizə səfərə gəlmiş Çin Kommunist Partiyasının nümayəndə heyətinə təşəkkürünü bildirib və konfransın işinə uğurlar arzulayıb.

Tahir Budaqov qeyd edib ki, bu gün Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasındakı münasibətlər dostluq, qarşılıqlı faydalı əməkdaşlıq və etibarlı strateji tərəfdaşlığa əsaslanır: "Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpin iki ölkə arasında əlaqələrin inkişafına böyük önəm verirlər. Dövlət başçılarının iradələri sayəsində müxtəlif sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi istiqamətində məqsədyönlü fəaliyyət həyata keçirilir. Fəal siyasi dialoq və davamlı diplomatik təmaslar fonunda son olaraq 2024-cü il iyulun 3-də Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı çərçivəsində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin qəbulu müstəqil siyasət həyata keçirən iki dövlətin ortaq iradəsini ifadə etməklə gələcəyə yönəlik çox önəmli addım kimi böyük əhəmiyyətə malikdir. Bəyannamədə qeyd edildiyi kimi, tərəflər siyasi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığı genişləndirməyə, beynəlxalq məsələlərdə qarşılıqlı fəaliyyəti gücləndirməyə, iki ölkənin ümumi maraqlarını birgə qorumağa, həmçinin regional və qlobal sülh, sabitlik və inkişaf fəaliyyətini irəlilətməyə dair razılıq əldə etmişlər. Bu, Azərbaycan ilə Çinin bir-birini prioritet və etibarlı tərəfdaş hesab edərək strateji hədəflərini ardıcıl olaraq gerçəkləşdirmək əzmini göstərir".

YAP Sədrinin müavini vurğulayıb ki, dünyada yüksək nüfuza malik olan dövlətlər kimi Azərbaycan ilə Çin beynəlxalq müstəvidə əməkdaşlığı xüsusi diqqət mərkəzində saxlamaqla bir-birinin maraqlarının qorunmasına böyük önəm verirlər. Onun sözlərinə görə, öz ərazi bütövlüyü və suverenliyini tam təmin edərək yeni geostrateji reallıqlar yaradan Azərbaycan beynəlxalq hüququn norma və prinsiplərini əsas götürərək müstəqil dövlətlərin, o cümlədən dost və tərəfdaş Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə birmənalı dəstəyini daim ifadə etməkdədir: "Öz növbəsində BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Çin Xalq Respublikasının Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etməsi xalqımız tərəfindən yüksək dəyərləndirilir. Çinin ölkəmizin BRICS platformasında təmsilçiliyinə və Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstək göstərməsi isə daha bir səmimi dostluq və tərəfdaşlıq nümunəsidir".

Tahir Budaqov bildirib ki, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində Avrasiyanın mühüm tranzit qovşağına çevrilən Azərbaycan Çinin "Bir kəmər, bir yol" layihəsinə ilk dəstək verən ölkələrdən biri kimi bu layihə və Orta dəhliz çərçivəsində əməkdaşlığın genişləndirilməsində son dərəcədə maraqlı olduğunu öz əməli fəaliyyəti ilə əyani şəkildə nümayiş etdirməkdədir: "Heç şübhəsiz, ölkəmizin prinsipial mövqeyi fonunda qarşıdakı dövrdə Zəngəzur dəhlizinin reallaşdırılması tərəfdaş dövlətləri, o cümlədən Azərbaycan ilə Çini yeni çoxtərəfli əməkdaşlıq platformasında bir araya gətirərək Avrasiyada konstruktiv işbirliyinin güclənməsini şərtləndirəcəkdir".

YAP Mərkəzi Aparatının rəhbəri söyləyib ki, ölkələrimiz arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamədə əksini tapan başlıca məsələlərdən biri də partiyalararası əlaqələrin gücləndirilməsidir: "Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin müstəsna rolu vardır. Son illərdə hakim partiyalar arasında fəal siyasi dialoq şəraitində intensiv təmaslar diqqəti cəlb edir. Xüsusilə də qarşılıqlı səfərlər partiyalararası münasibətlərin inkişafına təkan verməkdədir. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri çərçivəsində aktual məsələlərə dair fikir və təcrübə mübadiləsinin aparılması ikitərəfli əlaqələrin inkişafında mühüm amil kimi xüsusi əhəmiyyətə malikdir. 2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çin Xalq Respublikasına səfəri zamanı Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında memorandumun imzalanması isə qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlığın siyasi və hüquqi əsaslarını möhkəmləndirərək partiyalar arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsini təmin etmişdir. Memorandumdan irəli gələrək əlaqələri yüksək səviyyədə saxlamaq, mütəmadi olaraq nümayəndə heyətlərinin səfərlərini təşkil etmək, ümumi maraq doğuran məsələlər üzrə təmasları gücləndirmək qarşıda duran başlıca vəzifələrdəndir".

Tahir Budaqovun sözlərinə görə, Azərbaycan-Çin strateji tərəfdaşlığı təkcə iki ölkə arasında münasibətlərin inkişafı və işbirliyinin dərinləşdirilməsi ilə əlamətdar deyil, eyni zamanda Qlobal Cənubda konsolidasiya və əməkdaşlığın təşviqi baxımından olduqca mühüm əhəmiyyətə malikdir: "İnkaredilməz həqiqətdir ki, Cənubi Asiya, Afrika, Latın Amerikası və Karib hövzəsi boyunca dünya əhalisinin yarıdan çoxunu özündə ehtiva edən Qlobal Cənub ciddi siyasi və iqtisadi resursları cəmləşdirməklə yeni güc mərkəzinə çevrilmişdir. Qlobal Cənub ölkələri dayanıqlı iqtisadi inkişaf, rəqəmsal transformasiya, texnoloji innovasiyalar və sosial tərəqqi üçün yeni standartlar yaratmaq potensialına malikdir. Bütövlükdə Qlobal Cənubun yüksəlişi bərabərlik, inklüzivlik və səmərəli əməkdaşlıq prinsiplərinə söykənən ədalətli beynəlxalq münasibətlər sisteminin formalaşması baxımından müstəsna önəm daşıyır. Qlobal problemlərin artdığı şəraitdə milli maraqlara hörmət və ədalət prinsiplərinə əsaslanan yeni əməkdaşlıq modelinin formalaşması üçün Qlobal Cənub ilə Qlobal Şimalın konstruktiv işbirliyi məsələsi aktual çağırış kimi qarşımızda dayanır. İstər Azərbaycan, istərsə də Çin çoxqütblü siyasi nizamın tərəfdarı kimi beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı barışmaz mövqe sərgiləyərək müstəqil, qətiyyətli və konstruktiv siyasət həyata keçirməklə qlobal miqyasda dialoq və əməkdaşlığı təşviq edirlər. Yeni reallıqlar fonunda həmrəylik nümayiş etdirərək dünyada bərabərsizlik, təcridetmə və haqsız rəqabət kimi problemlərin əhəmiyyətli dərəcədə həllinə nail olmaqla bəşəriyyətin sağlam və xoşbəxt gələcəyi üçün etibarlı zəmin formalaşdıra bilərik".




YAP Sədrinin müavini vurğulayıb ki, bu zamana qədər görülən işlər və qazanılan uğurlarla yanaşı, qarşımızda önəmli hədəflər durur: "Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası hakim siyasi partiyalar kimi dövlət başçılarının dostluq münasibətlərini və Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlığı əsas götürərək birgə fəaliyyəti müvəffəqiyyətlə davam etdirmək və yeni uğurlara imza atmaq əzmindədir. Yeri gəlmişkən, fürsətdən istifadə edərək Yeni Azərbaycan Partiyasının nümayəndə heyətlərinin Çin Xalq Respublikasına səfərləri zamanı göstərilən yüksək qonaqpərvərliyə və cari ayda da "Şanxay Əməkdaşlıq Təşkilatının Siyasi Partiyalar Forumu"na dəvətə görə Çin Kommunist Partiyasının rəhbərliyinə təşəkkürümü ifadə edirəm. Əminəm ki, bugünkü konfransımız da həm ölkələrimiz, həm də partiyalarımız arasında əməkdaşlığa dair aktual məsələlərin müzakirəsi üçün səmərəli olacaq və faydalı ideya platforması kimi məhsuldar nəticələrlə yadda qalacaqdır".

Çıxış edən Çin Kommunist Partiyası (ÇKP) Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançao Yeni Azərbaycan Partiyasının dəvəti ilə Azərbaycana səfər etməkdən məmnunluğunu ifadə edib. O, xalqlarımızın mədəniyyətinin bir-birinə yaxın olduğunu vurğulayaraq bildirib ki, Çin xalqı Azərbaycan xalqının mədəni irsi ilə tanışdır.

Lü Tzyançao vurğulayıb ki, Çin və Azərbaycan strateji tərəfdaşlardır və qarşılıqlı faydalı əməkdaşlıq edirlər: "Azərbaycan və Çin xalqları arasında dostluğun qədim tarixi var. Bu tarixi dostluq bizim müasir dövrdəki münasibətlərimizə də böyük təsir göstərir. Ötən il iki dövlətin liderlərinin Çin - Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə çatdırılmasını elan etməsi də bunun göstəricisidir. Bu, ikitərəfli münasibətlərimizin inkişafının mühüm mərhələsidir və biz qarşılıqlı etimad əsasında bir-birimizi dəstəkləyirik. Hazırda Çin dövlət quruculuğu istiqamətində fəaliyyətini genişləndirməkdədir. Eyni zamanda biz bilirik ki, Azərbaycan tərəfi də uğurlu inkişaf strategiyası həyata keçirir. Bu inkişaf yolu milli maraqlarımıza əsaslanır və kənar müdaxilələrə qarşı yönəlib. Biz müasirləşməyə yol açaraq qarşılıqlı tərəqqini təmin etməyə çalışırıq. Azərbaycan və Çin arasında iqtisadi əlaqələr bir-birini tamamlayır və davamlı nailiyyətlərə töhfə verir".

Onun sözlərinə görə, Çin və Azərbaycan arasında elm sahəsində əlaqələr inkişaf etməkdədir: "Hesab edirəm ki, iki ölkə arasında "yaşıl enerji" və rəqəmsal iqtisadiyyat sahələrində də əməkdaşlıq daha da genişlənəcək".

Lü Tzyançao qeyd edib ki, hazırda dünyada böyük dəyişikliklər baş verir: "Bu ilin əvvəlindən etibarən beynəlxalq vəziyyət ciddi sarsıntılarla üzləşib. Dövlətlər qeyri-sabit və qeyri-müəyyən amillərlə qarşılaşır. Avrasiyada yeni çağırışlar meydana çıxır. Çin və Azərbaycan bu geosiyasi məkanda önəmli ölkələrdir və dövlətlərarası əməkdaşlıq bu qeyri-sabit dövrdə böyük ümidlər yaradır. Xüsusilə Asiya və Avropanı əhatə edən kommunikasiya sahəsindəki inkişafı qeyd etmək lazımdır. Bu, ölkələrimiz üçün yeni imkanlar və perspektivlər açır. Çin və Azərbaycan birlikdə Şanxay Əməkdaşlıq Təşkilatının ruhunu gücləndirir, dövlətlər arasında qarşılıqlı hörmət və çoxşaxəli əməkdaşlıq prinsiplərini dəstəkləyir. Bu mənada, biz sülhün və təhlükəsizliyin təşviqinə töhfə verməliyik".

Lü Tzyançao qeyd edib ki, nəqliyyat marşrutlarının təhlükəsizliyinin təmin edilməsi istiqamətində də Çin və Azərbaycan fəal əməkdaşlıq edir, birgə regional və logistik kanallar inkişaf etdirilir. Onun sözlərinə görə, Azərbaycan bu sahədə çox aktiv rol oynayır: "Çin və Azərbaycan həm səmimi dostlar, həm də önəmli tərəfdaşlardır. Həmçinin ölkələrimiz Qlobal Cənubun mühüm iştirakçılarıdır. Hər iki dövlətin qarşısında yeni vəzifələr dayanır".

Lü Tzyançao XII Qlobal Bakı Forumunda müxtəlif ölkələrin nümayəndələrinin qlobal çağırışları müzakirə etdiklərini, o cümlədən Qlobal Cənubun dünya nizamında rolunu vurğuladıqlarını xatırladıb. Onun fikrincə, Azərbaycanın Qlobal Cənubla bağlı mühüm rolu nəzərdə tutulan layihələrin reallaşdırılmasına əlavə təkan verəcək.

O, Azərbaycanın keçən il COP29-a uğurla evsahibliyi etdiyini, Çinin Bakının iqlim sahəsində təşəbbüslərini dəstəklədiyini vurğulayıb. "Çin və Azərbaycan Qlobal Cənub dövlətləri ilə birgə səylərlə bir-birinə dəstək olaraq gələcək inkişaflarını təmin etməlidirlər. Qlobal Cənub dövlətlərinin üstünlükləri böyükdür. Bu dövlətlər tərəqqiyə böyük önəm verirlər. Eyni zamanda onlar dünyada terrora və münaqişələrə qarşı çıxış edirlər. Biz dövlətlər arasında bərabərliyin, ədalətin tərəfdarıyıq. Bu prosesə Çin və Azərbaycan çox böyük töhfə verirlər. Çinlə Azərbaycan indiyə qədər olduğu kimi, bundan sonra da bir-birini dəstəkləyəcək".

Yeni Azərbaycan Partiyası Sədrinin müavini, Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov isə çıxışı zamanı bildirib ki, Azərbaycan-Çin əməkdaşlığı xalqlarımızın mənafelərinə uyğundur. Hər iki ölkənin böyük potensiala malik olduğunu deyən Ə.Əhmədovun fikrincə, perspektivdə ölkələrimiz arasında əlaqələr daha geniş və çoxşaxəli olacaq. YAP Sədrinin müavini qeyd edib ki, bu amil dövlətlərimizə qarşılıqlı fayda verəcək: "Ölkələrin əməkdaşlığı iqtisadi, siyasi maraqlar, sivilizasiya yaxınlığı kimi amillər üzərində qurulur. Bizim əməkdaşlığımız bu parametrlərə cavab verir. Qlobal Cənub təmsilçisi olaraq xalqlarımızın mədəni yaxınlığı da ölkələrimiz arasında əməkdaşlığın daha etibarlı zəmin üzərində qurulmasını təmin edir".

Əli Əhmədov deyib ki, bu gün dünya sürətlə dəyişir və son zamanlar müxtəlif regionlarda xaos elementləri də artır: "Bu da dünya ictimaiyyətini narahat edir. İkinci Dünya müharibəsindən sonra formalaşmış beynəlxalq hüquq normalarının çökməsi və onu güc elementləri ilə əvəz etmək cəhdləri bəşəriyyəti təhdidlərlə üz-üzə qoyur. Belə olan halda, bəşəriyyətin gələcəyi naminə dövlətlərin və xalqların ciddi düşünməsinə ehtiyac yaranır. Bu düşüncələr fonunda yeni birliklər, platformalar meydana çıxır. Hazırda BRICS və Şanxay Əməkdaşlıq Təşkilatı kimi platformalar təkcə iqtisadi maraqlardan ibarət olmayan birliklərə çevrilmək şanslarına malikdir. Bəşəriyyətin fəlakətdən xilas olmasına, beynəlxalq münasibətlər sisteminin bu günün dəyərləri zəminində yenidən qurulmasına ehtiyac var. Azərbaycanla Çin arasında tərəfdaşlıq, dostluq bütövlükdə dünyanın qarşısında dayanan çağırışlara ən düzgün cavabın tapılması üçün əhəmiyyətli rol oynaya bilər. Çünki bu əməkdaşlıq, dialoq iqtisadi maraqlarla yanaşı, qarşılıqlı hörmət, bir-birinin daxili işlərinə qarışmamaq, beynəlxalq hüquqa istinad etmək kimi prinsiplər üzərində qurulub. Ölkələrimizin əməkdaşlığı gələcəkdə bəşəriyyətin üzləşdiyi təhlükələrin aradan qaldırılması üçün daha səmərəli yolların tapılmasına təkan verə bilər".

Ə.Əhmədovun fikrincə, Çin dünyanın indiki reallıqlarına və gələcək inkişaf perspektivlərinə ciddi şəkildə təsir etmək imkanlarına malikdir. "Güman edirəm ki, Çin gələcəkdə bu imkanları daxilində dünyanın daha ədalətli prinsiplər əsasında idarə olunmasını qarşısına məqsəd qoyan birliklərin meydana çıxması üçün öz töhfələrini artıracaq", - deyən YAP Sədrinin müavini Azərbaycanın da regionumuzda bütün proseslərin sülh və əməkdaşlıq prinsipləri əsasında qərarlaşmasına öz töhfəsini verdiyini diqqətə çatdırıb.

Onun sözlərinə görə, Azərbaycan ərazi bütövlüyü və suverenliyini təmin etməklə yanaşı, regionda sülh gündəliyini də təqdim edib: "Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin ana xəttini sülh gündəliyi təşkil edir. Hesab edirəm ki, bu fakt təkcə Cənubi Qafqazda deyil, daha böyük coğrafiyada sülh gündəliyinin təşviq olunması üçün Azərbaycanın çox ciddi şəkildə fəaliyyət göstərməsindən xəbər verir".

Ə.Əhmədov qeyd edib ki, xalqları və dövlətləri bir-birinə yaxınlaşdıran əsas amillərdən biri də kommunikasiyalardır: "Tarixən Şərqlə Qərbi birləşdirən Böyük İpək yolunun sülhün bərqərar olmasında da mühüm rolu olub. Bu gün də dünyada sülhü bərqərar etmək üçün dövlətlər arasında əməkdaşlığın güclənməsində kommunikasiyaların oynadığı vacib rolu hər kəs anlayır. Bu mənada, Çin lideri tərəfindən irəli sürülmüş "Bir kəmər, bir yol" layihəsi dünya ictimaiyyətinin sülh ehtiyacının ödənilməsinə töhfə verə bilər. Azərbaycan bu layihəni ilk dəstəkləyən ölkələrdəndir".

Ə.Əhmədov deyib ki, Qlobal Cənub dünyanın gələcəyinin müəyyən edilməsində əhəmiyyətli rol oynamaq imkanlarına malik faktor kimi özünü təsdiqləyib. "Vaxtilə sivilizasiya, bəşəriyyətin güc mənbəyi bu coğrafiyada yaranıb. Bu gün də Qlobal Cənub öz potensialını bəşəriyyətin firavan gələcəyi üçün səfərbər etmək imkanlarına sahibdir. Bunun reallaşmasında Çin və onunla əməkdaşlığa böyük önəm verən Azərbaycan mühüm rol oynaya bilər. Bu mənada Azərbaycan-Çin strateji tərəfdaşlığı xalqlarımızın maraqlarına xidmət etməklə yanaşı, bəşəriyyətin daha xoşbəxt gələcəyinin qurulmasına töhfə verə bilər", - deyə YAP Sədrinin müavini vurğulayıb.

Çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti (AMEA) İsa Həbibbəyli bildirib ki, Azərbaycan-Çin əməkdaşlığının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub: "Ümummilli Lider ölkəmizdə siyasi hakimiyyətə qayıdışından təxminən bir il sonra - 1994-cü ildə Çin Xalq Respublikasına rəsmi səfər etmişdir. Heydər Əliyev bu səfəri ilə həm də inkişafın Çin modelinin əhəmiyyətinə böyük dəyər verdiyini nümayiş etdirmişdir".

İsa Həbibbəyli qeyd edib ki, Ümummilli Liderin 1994-cü ildə Çin Xalq Respublikasına səfəri zamanı Pekin İctimai Elmlər Akademiyasında böyük tarixi əhəmiyyətə malik çıxışı, əslində, yenicə müstəqillik qazanan Azərbaycan dövlətinin dünyaya tanıdılması demək idi: "Azərbaycan Prezidenti İlham Əliyevin Çin Xalq Respublikasının Sədri ilə keçirdiyi görüşlər və iki ölkə arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamənin qəbulu dövlətlərarası əməkdaşlığı yeni inkişaf mərhələsinə çatdırmışdır. Hazırda iki ölkə arasında müxtəlif sahələrdə, o cümlədən elm və təhsil sektorlarında mühüm tədbirlər həyata keçirilir. Ölkəmizin yüksək reytinqə malik təhsil ocaqlarında Çin dili üzrə yüksəkixtisaslı mütəxəssislər hazırlanır. Azərbaycan Milli Elmlər Akademiyasının bir sıra institutlarında Azərbaycan-Çin əlaqələrinə həsr olunmuş genişmiqyaslı tədqiqatlar aparılır. Bu istiqamətdə Azərbaycan alimləri Çindəki analoji qurumlarının nümayəndələri ilə birgə ortaq layihələr həyata keçirirlər".

O vurğulayıb ki, bu faktorlar humanitar sahədə də Azərbaycan-Çin əməkdaşlığının yüksələn xətlə inkişaf etdiyini əyani şəkildə göstərir: "2017-ci ildən etibarən Azərbaycan Milli Elmlər Akademiyasında Çin Tədqiqatları Mərkəzi fəaliyyət göstərir. Çin Xalq Resublikasının Azərbaycandakı səfirliyi və Konfutsi Mərkəzinin dəstəyi ilə bu mərkəzdə Çin dili uğurla tədris olunur. Artıq müxtəlif elmi müəssisələrdə çalışan əməkdaşların bir qismi həmin mərkəzdə dil öyrənmələri ilə bağlı sertifikat alıblar. Müxtəlif beynəlxalq seminarların aparılması, universitetlər arasında keçirilən görüşlər Azərbaycan elminin Qlobal Cənuba verdiyi töhfələrdəndir. Şübhəsiz ki, bu istiqamətdə işlər perspektivdə də uğurla davam etdiriləcək".

İsa Həbibbəyli qeyd edib ki, 2024-cü ilin iyun ayında Çində keçirilən "Xəzərdən Çin səddinədək" beynəlxalq konfrans birbaşa Qlobal Cənubun prioritetlərini əks etdirən mühüm bir platforma idi: "Həmin konfransda Çin və Azərbaycanla yanaşı, digər regionlardan olan mütəxəssislərin iştirakı ilə birgə bəyannamənin qəbul edilməsi elm sahəsində yeni üfüqlərin açılmasından xəbər verir. Ötən ilin sentyabr ayında Pekin Xarici Dillər Universitetinin təşkilatçılığı və evsahibliyi ilə Birinci Çin azərbaycanşünaslıq beynəlxalq elmi konfransının keçirilməsi də bu əlaqələrin möhkəmlənməsinə xidmət edir. Azərbaycan universitetləri Çində Azərbaycan dili üzrə mütəxəssislərin yetişməsi üçün çalışırlar, alimlərimiz orada məruzələrlə çıxışlar edirlər. Bütün bunlar göstərir ki, geosiyasət, diplomatiya, iqtisadiyyat, mədəniyyət və digər sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də Azərbaycan Qlobal Cənubun inkişafında əhəmiyyəti rol oynayan aktorlardan biridir".

Çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov vurğulayıb ki, Azərbaycan və Çin arasında çoxşaxəli əməkdaşlığın daha da genişləndirilməsi olduqca vacibdir. O qeyd edib ki, müasir dövrdə ekoloji və sosial-humanitar məsələlər qlobal xarakterli problemlər kimi diqqət mərkəzindədir: "Dünya birliyi inkişafın davamlı və dayanıqlı olması yolu ilə bu problemlərin həll edilməsini ön plana çıxarıb. Hazırda bu prosesin reallaşması istiqamətində müəyyən nailiyyətlər əldə olunub. Lakin qlobal miqyasda 2030-cü ilə qədər nəzərdə tutulmuş bəzi məqsədlərin həyata keçirilməsi bir qədər ləngiyir. Bu faktorlar onu göstərir ki, inkişafın idarə edilməsində yeni yanaşmalar lazımdır. Yeni yanaşmalar dedikdə, dünya öz inkişafında ekoloji sivilizasiya mərhələsinə keçid etməlidir. Qeyd etmək lazımdır ki, bu termin və ümumiyyətlə, sözügedən konsepsiya 1990-cı illərin əvvəllərində Azərbaycanda yaranmış və Ümummilli Lider Heydər Əliyev tərəfindən BMT-nin "İnsan İnkişafı Hesabatı"nda təqdim olunmuşdur. Çin məhz bu sahədə qlobal lider mövqeyini qoruyub saxlayır. 2007-ci ildə Çin Kommunist Partiyasının XVII Qurultayında ekoloji sivilizasiya konsepsiyası ümummilli kontekstdə qeyd edilib. Bu partiyanın 2012-ci ildə keçirilən XVIII Qurultayında isə ekoloji sivilizasiya Çinin Konstitusiyasına daxil edilib. Çin Xalq Respublikasının Sədri Si Cinpin Çin Kommunist Partiyasının 2017-ci ildə keçirilən XIX Qurultayında bu konsepsiyanın nə qədər əhəmiyyətli olduğunu və onun hansı mexanizmlərlə həyata keçirilməsi barədə ətraflı çıxış edib".

Rektor vurğulayıb ki, 2024-cü ilin noyabr ayında Azərbaycanın paytaxtı Bakı şəhərində COP29 tədbiri çox uğurla həyata keçirilib: "Bildiyiniz kimi, bəzi dairələr iddia edirdilər ki, bu mötəbər konfransın ölkəmizdə keçirilməsi mümkün deyil. Hələ bu söhbətlər gedən ərəfədə - 2023-cü ildə və daha sonra 2024-cü ildə Dünya İqtisadi Forumu yeni bir hesabat dərc etmişdir. Dünya ölkələrinin enerji keçidinə həsr olunmuş bu hesabatda Azərbaycan 120 ölkə arasında 32-ci yeri tutmuşdur. Bu uğurlu nəticə onu göstərir ki, Azərbaycan sözügedən sahəni ən effektiv idarə edən ölkələr sırasındadır. Bütün bunlar dövlətimizin qlobal səviyyədə böyük nailiyyətlər əldə etdiyini bir daha nümayiş etdirir. Azərbaycan Ermənistanın işğalından azad etdiyi ərazilərində - Qarabağ və Şərqi Zəngəzurda ekoloji sivilizasiya konsepsiyasına əsaslanan möhtəşəm işlər həyata keçirir. Yeni yaşayış mərkəzləri, sosial-iqtisadi infrasrukturlar həmin bölgələrdə bu tələbatlara tam uyğun olaraq yaradılır".

Milli Məclisin deputatı Fariz İsmayılzadə çıxışında bildirib ki, Azərbaycan-Çin münasibətləri uğurla inkişaf edir. O, Çin-Azərbaycan münasibətlərinin siyasi sahədə möhkəm təməl üzərində qurulduğunu diqqətə çatdırıb: "İki ölkə arasında münasibətlər regional və beynəlxalq müstəvidə, o cümlədən Şanxay Əməkdaşlıq Təşkilatı, BRICS kimi platformalar çərçivəsində də inkişaf edir: "Azərbaycanla Çin terrorizm və ekstremizmə qarşı mübarizədə eyni mövqe nümayiş etdirirlər".

Onun sözlərinə görə, Çin və Azərbaycan arasında iqtisadi münasibətlərə ticari əlaqələr, infrastruktur layihələri, qarşılıqlı investisiyalar, eyni zamanda iqtisadiyyatın qeyri-neft sahəsinə sərmayələr, tranzit dəhlizləri, energetika sahəsi, "yaşıl enerji" və s. aiddir: "Son illər ərzində Çin Qırğızıstanla Özbəkistanı, Xəzər regionunu birləşdirən yeni dəmir yolu layihəsinə başlayıb. Bu, əmtəə dövriyyəsini artıracaq və "Bir kəmər, bir yol" layihəsini yerinə yetirməyə imkan verəcək".

Millət vəkili bildirib ki, Azərbaycan üçün işğaldan azad edilmiş ərazilərə Çin investisiyalarının cəlb edilməsi önəmlidir: "Azərbaycanın yeddi azad iqtisadi zonası var ki, Çin şirkətləri investisiya qoyuluşu edə bilərlər. Azərbaycanda aktiv olaraq bir neçə Çin şirkəti fəaliyyət göstərir. Atılan addımlar iki ölkə arasında əməkdaşlığın dərinləşməsinə imkan verəcək".

O, son illər ərzində ölkələrimiz arasında mübadilə layihələrinin artdığını, birgə konfransların təşkil olunduğunu, Çinin ali təhsil ocaqları ilə birgə ikili diplom proqramlarının həyata keçirildiyini vurğulayıb. "Zənnimcə, iqtisadi, siyasi sahələrdə olduğu kimi, bu sahədə də geniş perspektivlər var".

Çıxışlardan sonra tədbir iştirakçılarının sualları cavablandırılıb.

Konfransa yekun vuran YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bir daha Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri Lü Tzyançaoya ölkəmizə səfərinə görə təşəkkürünü bildirərək bu səfərin istər partiyalarımız, istərsə də ölkələrimiz arasında əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Konfrans Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# SÜLHSEVƏR DÜNYANIN FİKİR ÜNVANI




Adətən, insanlar bir işə başlamazdan öncə düşüncələrində götür-qoy edir, nəyi necə edəcəklərini özləri üçün qərarlaşdırırlar.

Müəyyən bir hadisə baş verəndə də onu təhlil edib aydınlaşdırmaq, çətin vəziyyətdən uğurla çıxmaq üçün düşünməyə, daha doğru və ağıllı qərarlar qəbul etməyə ehtiyac yaranır.

*Bütövlükdə real addımlar atılmasının, hərəkətə keçilməsinin ilkin başlanğıcı məhz bu cür olur:*

*Əvvəlcə düşünmə, təhlil etmə, daha optimal qərarlar qəbul etmə, sonra isə hərəkətə keçmə.*

**Son illər Azərbaycan həm də bəşəriyyətin rahat, təhlükəsiz və firavan yaşayışının təmininə dəstək verilən, ağıllı ideyaların və konkret səmərəli təkliflərin irəli sürüldüyü bir ünvana çevrilmişdir.**

*Buna Azərbaycanın beynəlxalq nüfuzu, dünya iqtisadiyyatının inkişafına verdiyi töhfələr, gördüyü işlər, xüsusən uzun illər işğal altında qalan torpaqlarını azad etməsi də mənəvi haqq qazandırır.*

**Azərbaycan Prezidenti İlham Əliyevin 2012-ci ildə BMT-nin Təhlükəsizlik Şurasının iclaslarına sədrlik etməsi, Qoşulmama Hərəkatına uğurla rəhbərliyi və buna görə sədrliyinin daha bir il artırılması, 2011-ci ildən fəaliyyət göstərən Bakı Beynəlxalq Humanitar Forumunun işi, COP29-un möhtəşəm səviyyədə keçirilməsi dünyanın diqqətini yenidən Bakıya yönəltmişdir.**

*Bu günlərdə Azərbaycanın dövlət başçısı İlham Əliyevin himayəçiliyi ilə daha bir ənənəvi beynəlxalq tədbir - XII Qlobal Bakı Forumu keçirildi.*

Əvvəlki forumlar kimi budəfəki tədbir də dünyanı dərindən düşündürən və narahat edən, bir çox suallara cavab verilməsini istəyən məsələyə həsr olunmuşdu - *"Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi".*

Əvvəlkilər kimi bu forum da yüksək səviyyədə keçirildi, çox dəyərli fikirlər və təkliflər səsləndirildi, iştirakçılar dünyanın sabahı ilə bağlı bəzi narahatlıqlarını da dilə gətirdilər.

❖ ❖ ❖

XII Qlobal Bakı Forumunda müxtəlif ölkələrdən gəlmiş 50-dən artıq böyük biliyə və təcrübəyə malik fəaliyyətdə olan, habelə sabiq dövlət və hökumət başçısı iştirak edirdi.

İştirakçıların çıxışlarında müxtəlif və rəngarəng fikirlər səsləndirildi, hətta onlardan üst-üstə düşməyənləri də oldu.

**Lakin niyyət saf və sağlam idi, deyilənlər də yaxşılığa doğru dəyişmək istəyindən doğurdu.**

Bir məsələdə isə hamı yekdil rəydə idi:

* Hazırda yeni dünya düzəni müəyyənləşir!

* Hələ də beynəlxalq ictimaiyyət tərəfindən istifadə olunacaq konfiqurasiya kimsəyə bəlli deyil!

* Bəzi beynəlxalq təşkilatlar öz zəifliyini nümayiş etdirir və ya tamamilə iflic vəziyyətindədirlər.

* Hər bir ölkə özünün daxili işlərinə və daxili imkanlarına daha çox diqqət ayırmalı, hər hansı bir yardıma, hətta beynəlxalq hüquqa belə arxalanmamalıdır!

* Yeni münasibətlərin necə qurulacağı hadisələrin sonrakı gedişindən məlum olacaqdır!

Yaxşı haldır ki, Azərbaycan bu dövrə də hazırlıqlı vəziyyətdə gəlir.

Ən əsası, əsas problemini qələbə ilə həll edərək ərazi bütövlüyünə və konstitusiya əsaslarının təmininə nail olub.

Milli maraqlarını özü öz gücü ilə təmin edir, heç bir kəsə, yaxud heç bir təsisata arxalanmır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev XII Qlobal Forumdakı çıxışında bütün bu vacib məsələlərə toxundu.

❖ ❖ ❖

Dünya üçün faydalı olmaq, dövlətlərə böyük xeyir gətirəcək layihələr gerçəkləşdirmək, işlər görmək nədənsə heç də hamının xoşuna gəlmir.

**Azərbaycanı gözü götürməyənlər, ona düşmən münasibəti bəsləyənlər hər vasitə ilə ona mane olmağa, qazandığı nailiyyətləri xəyanətkar üsullarla gözdən salmağa çalışırlar.**

*BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına evsahibliyi edən Azərbaycan bir neçə dövlət və qurum tərəfindən belə yaramaz münasibətlə üzləşdi.*

* Bu gün Azərbaycan dünyanın 12 dövlətinə təbii qaz ixrac edir və onlardan 10-u Avropa ölkəsidir.

* COVID-19 pandemiyası dövründə Azərbaycan 80-dən artıq ölkəyə humanitar və maliyyə yardımı göstərdi.

* "Yaşıl enerji" istehsalını sürətlə artıran ölkəmiz onun Avropaya ixracından ötrü Qara dənizin altı ilə kabel xətti çəkməyi planlaşdırır.

**COP29-da isə iki mühüm problemin uğurlu həllinə nail oldu:**

*Əvvəla,* on ildən artıq keçilməz sədd sayılan Paris Sazişinin 6-cı maddəsi üzrə konsensus əldə edildi.

*İkincisi,* bərpaolunan enerji layihələri üçün maliyyələşmənin əvvəlki 100 milyarddan 300 milyard dollara artırılmasına nail oldu.

*Halbuki bəzi dövlətlər və beynəlxalq qurumlar COP29-u boykot yolu tutmuşdular.*

ABŞ-nin Dövlət Departamenti, "The Washington Post", "The New York Times", "Politico", "Newsweek" və "Associated Press", Fransanın "Le Monde", "Le Figaro" və digər qəzetlər əleyhimizə sistemli təbliğat apararaq barəmizdə saxta xəbərlər yayırdılar.

Nəticə nə oldu?!

Biz istəyən kimi...

**Çünki Azərbaycan yalnız özünə güvənir və onun rəhbəri İlham Əliyev nəyi nə vaxt və necə edəcəyini yaxşı bilir.**

❖ ❖ ❖

XII Qlobal Bakı Forumundakı çıxışında cənab İlham Əliyev Azərbaycan-ABŞ münasibətlərinə də toxundu.

Bu da təsadüfi deyil.

*Azərbaycan daim ABŞ-yə dost münasibəti bəsləyib və ehtiyac duyanda ona dostcasına kömək göstərib.*

ABŞ-də 11 sentyabr terror aktı baş verəndə buna ilk reaksiya verənlərdən biri Azərbaycan oldu və daim onun yanında olacağını bəyan etdi.

ABŞ İraqda, Əfqanıstanda hərbi əməliyyatlar aparanda Azərbaycan yenə öz hərbi kontingenti ilə onun yanında dayandı.

2001-ci ildə Əfqanıstandakı əməliyyata qoşulan ilk qeyri - NATO dövləti və oradan sonuncu çıxan da Azərbaycan idi.

**Elə ki, Bayden administrasiyası, necə deyərlər, yükünü təpəyə yığdı, Ermənistanın yanında dayanaraq 907-ci düzəlişi yenidən bərpa etdi, haylarla strateji tərəfdaşlıq barədə xartiya imzaladı.**

**ABŞ-nin Dövlət katibi Entoni Blinken isə ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi.**

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-nin yeni administrasiyasının sələflərinin bu səhvini düzəldəcəklərini güman etdiyini bildirdi:

*"Ümid edirik ki, yeni administrasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımızı yenidən quracayıq".*

❖ ❖ ❖

* Əgər dünya ikili standartlarla işləyirsə;

* Əgər beynəlxalq hüquq ayaq altında tapdalanırsa;

* Əgər sülh yaratmalı olan qurumların özü tərəf tutursa;

* Əgər təcavüzkar dövlət müdafiə edilərək silahlandırılırsa;

*Onda güclü olmalısan!*

*Onda güclü olmağa borclusan!*

*Onda ədaləti, beynəlxalq hüququ öz gücünlə təmin etməyi də bacarmalısan!*

**Azərbaycan da belə etdi və dünyaya mükəmməl bir nümunə göstərdi!**

* Vaxt vardı dünya sürətlə silahlanmanı tənqid edirdi...

* Vaxt vardı militarizm siyasəti qınanılırdı...

* Vaxt vardı "tankları əridərək məhsul istehsal edən dəzgahlar düzəldək" şüarı irəli sürülürdü.

**Bu gün isə Avropa ölkələri dövlət büdcəsindən hərbi xərclərə daha çox vəsait ayırmağı planlaşdırırlar.**

Bu gün Avropa dövlətləri bir-birilərindən Ukraynaya daha çox yardım ayırmağı tələb edirlər.

Bu gün Avropa İttifaqı Ukrayna ilə Rusiya arasındakı dağıdıcı müharibəyə son qoymaq barədə deyil, NATO vasitəsilə Ukraynanı müharibədən qalib çıxarmaq üzərində düşünür.

**Dağılan yaşayış məntəqələri, vacib infrastruktur, qırılan genofond, qanı axıdılan mülki vətəndaşlar, qaçqına çevrilən insanlar kimsəni narahat etmir.**

Bu müharibənin bir hədəfi də Ukraynanın nadir metal elementlərinə yiyələnməkdir.

*Belə dünyada başı salamat saxlamaq heç də asan deyil!*

* Güclü olmalısan!

* Ağıllı olmalısan!

* Doğru və uzaqgörən siyasət yürütməlisən!

* Milli maraqlarını qoruya bilməlisən!

* Azərbaycandan öyrənməyi və Azərbaycandan nümunə götürməyi bacarmalısan!

**Odur ki, hamı Azərbaycana böyük həvəslə toplaşır, dünyanın gələcəyi ilə bağlı müzakirələrdə fəal iştirak edir, öz təcrübəsi barədə danışır, bildiklərini başqaları ilə səxavətlə bölüşür, ən əsası, dünyanın sabahı ilə bağlı narahatlığını söyləyərək birgə tədbirlər görülməsi, birlikdə doğru yol tapılması üçün fikir mübadiləsində aktiv iştirak edir.**

Bəli, artıq on ikinci dəfədir ki, Qlobal Bakı Forumu dünyanın tanınmış siyasətçilərini, hazırkı və keçmiş dövlət başçılarını, müdrik və uzaqgörən insanlarını ətrafına toplayaraq maraqlı müzakirələr keçirir, dəyərli fikir mübadiləsinə, maraqlı təkliflər söylənilməsinə şərait yaradır!

*Çünki Azərbaycanın niyyəti təmiz, məqsədi aydın, hədəfi sülh və əməkdaşlıqdır!*

❖ ❖ ❖

Mirzə Ələkbər Sabirin məşhur bir beyti var:

Çalxalandıqca, bulandıqca zaman nehrə kimi,

Yağı yağ üstə çıxır, ayranı ayranlıq olur!

**Dünya yenə çalxalanır!**

* Dövlətlər bir-biriləri ilə mehribancasına deyil, hədə, təhdid dilində danışmağa başlayıblar.

* Beynəlxalq hüquq selektiv şəkildə tətbiq olunur.

* Yaxın Şərqdə, Rusiya-Ukrayna cəbhəsində hələ də silahlar susmayıb və sülhün nə vaxt bərqərar olacağı bilinmir.

* Afrikada gərginlik davam edir.

*Dünya birinciliyinə iddialılar məqsədlərinə necə çatacaqlar və görəsən, dünyanın qalan hissəsi bundan faydalanacaq, yoxsa ziyan çəkəcəkdir?!*

Bütün bunlar dünyanın liderlərini, ağıllı siyasətçilərini düşündürən və narahat edən məsələlərdir.

Görünən isə odur ki, bu ziddiyyətli proseslər içərisində Azərbaycan da var.

**Azərbaycan dünyada əmin-amanlıq, sülh, əməkdaşlıq və qarşılıqlı anlaşma, qarşılıqlı faydalanma mühitinin yaranması üçün əlindən gələni edir.**

*Bir neçə iqtisadi əməkdaşlıq təşkilatına üzv olan Azərbaycan dünyada gedən proseslərə müsbət mənada təsir göstərməyi bacarır, səmərəli təşəbbüsləri və layihələri ilə hamıya fayda gətirə bilir.*

**Bu gün dünya Azərbaycan Prezidenti İlham Əliyevi sevir, ona hörmətlə yanaşır, onun rəhbərliyi və himayəçiliyi ilə keçirilən beynəlxalq tədbirlərə həvəslə qatılaraq səsinə səs verirlər.**

Bu səslər o qədər güclü və faydalı olur ki, bədxahlarımızın səsini eşidilməz edir, əməllərini puça çıxarır!

Müharibələr, münaqişələr, qarşıdurmalar nə qədər kəskin olub uzun sürsələr də, sonda sülhlə nəticələnirlər.

Bu, birmənalıdır!

*İlham Əliyevin Azərbaycanı isə bu gün hamını irəlicədən sülhə və əməkdaşlığa dəvət edir, inkişafın və sabitliyin yolunu göstərir, insan övladının sülh şəraitində rahat və təhlükəsiz yaşaması üçün imkanlarını və köməyini səxavətlə bölüşür.*

**Bəxtiyar SADIQOV**

# Azərbaycan-Almaniya iqtisadi əlaqələrinin bünövrəsi 200 il əvvəl qoyulub

**Almaniya Azərbaycanın Avropada ən vacib siyasi-iqtisadi tərəfdaşlarından biridir. Üstəlik, bu ölkə Avropa İttifaqının (Aİ) Şərqi Avropa ölkələri ilə sıx əməkdaşlığını nəzərdə tutan "Şərq Tərəfdaşlığı" (ŞT) təşəbbüsünün fəal müdafiəçisi və təşviqatçısıdır.**



Xatırladaq ki, Avropa İttifaqının (Aİ) "Şərq Tərəfdaşlığı" (ŞT) təşəbbüsü 2009-cu ilin mayında Praqada keçirilən seminarda Polşa və İsveç tərəfindən irəli sürülmüşdür. ŞT təşəbbüsü Avropa Qonşuluq Siyasəti çərçivəsində Şərq Tərəfdaşları kimi istinad edilən Azərbaycan, Gürcüstan, Ermənistan, Ukrayna, Belarus və Moldovanın Aİ ölkələri ilə mövcud əməkdaşlığının ikitərəfli gücləndirilməsini və çoxtərəfli formatda davam etdirilməsini ehtiva edir.

Bu baxımdan Azərbaycanın malik olduğu iqtisadi imkanlar Almaniya ilə əməkdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynayır. Almaniya Azərbaycanı Cənubi Qafqazda vacib tərəfdaş kimi qəbul edir, ölkəmizin regionda lider mövqeyini, həmçinin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyini və ərazi bütövlüyünü tam dəstəkləyir. Bu da o deməkdir ki, Azərbaycanla Almaniya arasında iqtisadi əlaqələr kifayət qədər inkişaf edib. Ticarət dövriyyəsi genişlənib, qarşılıqlı ixrac artıb. Dövlət Gömrük Komitəsinin məlumatına görə, təkcə bu ilin yanvar-fevral aylarında Azərbaycanın Almaniya ilə ticarət dövriyyəsinin ümumi dəyəri 2024-cü ilin eyni dövrünə nisbətdə 2,8 dəfə artaraq 485,3 milyon dolları üstələyib. Azərbaycandan Almaniyaya ixracın dəyəri 284,9 milyon, Almaniyadan isə Azərbaycana idxalın dəyəri 200,4 milyon dollar olub. 2025-ci ilin ilk iki ayının nəticələrinə görə, ölkənin ümumi ticarət dövriyyəsində Almaniya ilə ticarətin payı 5,45 faiz təşkil edib ki, bu da bir il öncəki göstəricidən 2,1 faiz çoxdur.

Əslində, xalqlarımız arasında iqtisadi əlaqələrin dərin tarixi kökləri var. XIX əsrdə bir qrup alman ailəsi Azərbaycan ərazisinə köçərək burada üzümçülüyün və şərabçılığın inkişafında mühüm rol oynayıb, eləcə də iqtisadiyyatın digər sahələrinin inkişafına böyük töhfə verib. Azərbaycanda ilk alman koloniyası Yelenendorf Gəncədən 7-8 kilometr aralıda - Xanarxlar deyilən kənddə (indiki Göygöl şəhərində) salınıb. Sonradan isə Gəncədən 35 kilometr şimal-qərbdə yerləşən indiki Şəmkir torpaqlarında Annenfeld adlı ikinci koloniya yaradılıb. Bir müddət sonra almanlar bu ərazilərdə yayılaraq Gəncə və Qazax qəzalarında Georqsfeld (Şəmkirin Çinarlı qəsəbəsi), Alekseyevka, Qrünfeld (Ağstafanın Həsənsu kəndi), Ayxenfeld (Şəmkirin İrmaşlı kəndi), Traubenfeld (Tovuz şəhəri) və Yelizavetinka (Ağstafa şəhəri) kimi yeni koloniyalar salıblar. Hazırda bu ərazilərdə, sözün yaxşı mənasında, hələ də alman izləri açıq-aydın görünür.

Bu gün Almaniya şirkətlərinin Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərində iştiraka maraq göstərmələri və bununla bağlı müraciət etmələri də yəqin ki, həmin tarixi bağlılıqdan irəli gəlir. Bəlkə də Bakı ilə Mayns, Sumqayıt ilə Lüdviqşafen şəhərlərinin qardaşlaşmasının kökündə də 200 il əvvəlin köçü dayanır. Hazırda bu şəhərlər arasında sırf "qardaşlaşmış şəhərlər" kontekstində əlaqələr qurulub. Azərbaycanla Almaniya arasında birbaşa ikitərəfli sərnişin daşınması hava nəqliyyatı vasitəsilə təmin olunur. Azərbaycan Hava Yolları Bakı-Berlin, Almaniyanın "Lufthansa" aviaşirkəti isə Frankfurt-Bakı marşrutu üzrə uçuşlar həyata keçirir. İki ölkə arasında yük daşımaları isə həm hava, həm də dəniz və avtomobil nəqliyyatı vasitəsilə həyata keçirilir.

Almaniya Xəzər regionuna, xüsusən Azərbaycanın iqtisadi resurslarına təkcə maraq göstərmir, həm də Avropa İttifaqı çərçivəsində maliyyə dəstəyi verir və birgə beynəlxalq layihələrdə iştirak edir. Təsadüfi deyil ki, Almaniya regiondakı heç bir dövlətlə Azərbaycanla olduğu qədər geniş spektrli iqtisadi əlaqələr qurmayıb. Bu özünü onda göstərir ki, Almaniyanın MDB məkanında Rusiyadan sonra ikinci Xarici Ticarət Palatası yalnız Azərbaycanda təsis olunub. Ticarət və İnvestisiyalar üzrə Almaniya-Azərbaycan yüksəksəviyyəli İşçi qrup 2011-ci il mayın 5-də təsis edilib. 2012-ci il noyabrın 12-də isə Bakıda Almaniya-Azərbaycan Xarici Ticarət Palatası açılıb. Almaniya Azərbaycanın xarici ticarət dövriyyəsində aparıcı ölkələr arasında səkkizinci yerdədir.

Bu gün iki ölkə arasında enerji sahəsində də əməkdaşlıq dinamik inkişaf edir. SOCAR və Almaniyanın "Uniper" şirkəti hələ 2013-cü ildə uzunmüddətli qaz tədarükü haqqında müqavilə imzalayıblar. 2020-ci il dekabrın 31-dən "Cənub qaz dəhlizi" Azərbaycan təbii qazını İtaliyadakı qəbul nöqtəsi vasitəsilə Avropa İttifaqının bazarına çatdırır. "Uniper" şirkəti Avropa bazarında təbii qazın əsas alıcılarından biridir. Bu, şirkətin ən uzunmüddətli (2020-2045) qaz alışı layihəsidir. Bundan başqa, Azərbaycanda fəaliyyət göstərən alman şirkətləri bərpaolunan enerjinin inkişafı layihələrinə də maraq göstərirlər. Almaniyanın "Berlin Wind" şirkəti tərəfindən Xızı rayonunun Yeni Yaşma və Şurabad qəsəbələrinin ərazisindəki 50 MVt-lıq "Yeni Yaşma" Külək Elektrik Parkında yenidənqurma işləri aparılıb və 2018-ci il oktyabrın 11-də parkın açılışı olub.

Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayerin Azərbaycana səfər etməsi də onu göstərir ki, Azərbaycanla Almaniya arasında münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyacaq, bir sıra sahələrdə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi üçün əlverişli imkanlar yaranacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Görüş yeri dəyişmir

## "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının növbəti toplantısı da Bakıda keçiriləcək

**"Cənub qaz dəhlizi"nin təməli 2014-cü il sentyabrın 20-də, "Əsrin müqaviləsi"nin imzalanmasının 20 ilinin tamam olduğu gün Bakıda, Səngəçal terminalında qoyuldu. Bundan cəmi bir neçə ay sonra - 2015-ci ilin fevralında paytaxtımız "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclasına evsahibliyi etdi.**

SOUTHERN GAS CORRIDOR

Həmin vaxtdan bəri Məşvərət Şurası ildə bir dəfə Bakıda toplaşır. Yalnız 2021-ci ildə koronavirus pandemiyası səbəbindən bu tədbir videokonfrans şəklində keçirildi. "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası hər dəfə bu nəhəng layihə ilə bağlı ötən il görülən işlərə yekun vuraraq cari və qarşıda duran məsələləri nəzərdən keçirir, əgər hər hansı problemlər varsa, onların həlli yollarını axtarır. Artıq iki dəfə - 2023-cü və 2024-cü illərdə bu tədbirlə yanaşı, "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin iclası da keçirilib.

Xatırladaq ki, "Cənub qaz dəhlizi" "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsini, Azərbaycanın və Gürcüstanın ərazisindən keçən, genişləndirilmiş Cənubi Qafqaz Boru Kəmərini (CQBK), Türkiyənin şərq sərhədindən qərb sərhədinə qədər uzanan Trans-Anadolu Qaz Boru Kəmərini (TANAP) və Yunanıstan, Albaniya və İtaliyanın cənubunu birləşdirən Trans-Adriatik Qaz Boru Kəmərini (TAP) əhatə edir. Dəhlizin uzunluğu 3500 kilometrdir. Layihə getdikcə yeni interkonnektorlar vasitəsi ilə şaxələnir. Hazırda Azərbaycandan 12 ölkə - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya və Slovakiya qaz alır. Azərbaycan qazı Gürcüstana CQBK ilə 2006-cı, Türkiyəyə BTƏ (Bakı-Tbilisi-Ərzurum) kəməri ilə 2007-ci və TANAP-la 2018-ci, Avropaya TAP-la 2020-ci il dekabrın 31-dən çatdırılır.

"Cənub qaz dəhlizi" ilə 2021-ci ildə Avropaya ixrac 8,1 milyard kubmetr, 2022-ci ildə 11,4 milyard kubmetr, 2023-cü ildə təxminən 12 milyard kubmetr, 2024-cü ildə isə 12,9 milyard kubmetr təşkil edib. Bu nailiyyətlərin əldə olunmasında Məşvərət Şurasının rolu böyükdür.

Təkcə keçən ilin martında keçirilən toplantıda Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 23 ölkə, 6 beynəlxalq təşkilat, 44 şirkət təmsil olunub. Tədbirə nazirlər, nazir müavinləri və digər yüksəksəviyyəli nümayəndələr qatılıblar. Toplantı açılış sessiyasından sonra işini "Cənub Qaz Dəhlizi" və "Yaşıl Enerji" üzrə Nazirlər sessiyası", "Cənub qaz dəhlizi" sessiyası: Gələcəyə baxış" və "COP29 fonunda "yaşıl enerji" sessiyası: Bərpaolunan enerjinin imkanlarından istifadə" mövzularında plenar sessiyalarla davam etdirib.

Məşvərət Şurası çərçivəsində həmçinin "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in icrası məqsədilə nazirlərin 6-cı iclası və "Dənizdə külək enerjisindən istifadənin inkişafı" üzrə Azərbaycan-Avropa İttifaqı "dəyirmi masa"sı keçirilib. Tədbir çərçivəsində, eləcə də "yaşıl enerji" sahəsində bir sıra sənədlər imzalanıb.

Prezident İlham Əliyev toplantıdakı çıxışında demişdir: "Məşvərət Şurasının ötən illərdəki toplantıları zamanı biz həmişə enerji təhlükəsizliyi məsələlərini müzakirə etmişik. Azərbaycanın burada mövqeyi hər zaman ardıcıl olub - biz bunu hər bir ölkənin milli təhlükəsizlik məsələsi hesab edirik. Biz şaxələndirmə haqqında danışarkən mövqeyimiz hər zaman dəyişməz olub və bu gün də belədir - şaxələndirmə yalnız marşrutlara deyil, həm də mənbələrə şamil edilməlidir. Bu gün Avrasiyadakı geosiyasi vəziyyət məhz bizim gördüyümüz işlərin nə dərəcədə düzgün olduğunu sübut edir. Azərbaycana gəldikdə "Cənub qaz dəhlizi" tamamilə yeni marşrutdur. Bu gün ona artıq bir çox marşrutlar - interkonnektorlar əlavə edilib. Azərbaycan qazı yeni mənbədir. Yəni biz burada, bu formatda, təşəbbüskarı olduğumuz bu layihədə enerjinin şaxələndirilməsi məsələlərinin tam şəkildə əhatə edildiyini görürük".

"Cənub qaz dəhlizi" Azərbaycanın etibarlı tərəfdaş olduğunu bir daha təsdiq etdi. Təsadüfi deyil ki, bu, Məşvərət Şurasının iclaslarında da daim vurğulanır. Məsələn, keçənilki tədbirdə Avropa İttifaqının energetika məsələləri üzrə komissarı, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının həmsədri xanım Kadri Simson demişdir:" Mən hər zaman gördüm ki, Azərbaycan etibarlı tərəfdaşdır və əməkdaşlığımızda onun genişləndirilməsi üçün güclü potensial var. Mən 2022-ci ildə buraya ilk iclasa gələndə dedim ki, necə etməliyik ki, məhz bizim münasibətlərimizin bütün potensialı daha da genişlənsin, bu dəhliz yeni bazarlara çıxsın və təmiz enerjiyə gəldikdə, biz öz işimizin miqyasını artıraq və bütün bunlar baş verdi. Bu gün məhz qaz axını Avropaya "Cənub qaz dəhlizi"ndən gedir... Avropa İttifaqının üzv dövlətləri və genişlənməyə namizəd olan ölkələr bu qazın alınmasında maraqlıdırlar. Artıq dediyim kimi, biz ötən il sizin məhz Panavropa təchizatına çevrildiyinizi gördük və bu baxımdan, əslində, bu həcmlərin artırılması üzərində işləyirik. Biz ümidvarıq ki, Azərbaycandan daxil olan təbii qaz Avropanın enerji sistemində enerji keçidi zamanı mühüm rol oynayacaqdır".

Prezident İlham Əliyev Məşvərət Şurasının iclaslarından birində bəyan edib ki,"Cənub qaz dəhlizi" layihəsi yekunlaşsa da, görüləcək işlər hələ çoxdur. Odur ki, Məşvərət Şurası yaxın zamanda yenə də toplaşacaq. Bu, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci toplantısı və "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclası olacaq. Və yenə də Bakıda! Bu da "Cənub qaz dəhlizi" kimi qlobal bir layihənin təşəbbüskarının və aparıcı qüvvəsinin Azərbaycan olduğunu bir daha təsdiqləyir və Prezident İlham Əliyevin dünyadakı hörmət və nüfuzundan qaynaqlanır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Avropa İttifaqının nümayəndələri Ağdamda minatəmizləmə fəaliyyəti ilə tanış olublar



**Avropa Xarici Fəaliyyət Xidmətinin iqtisadi və qlobal məsələlər üzrə Baş katibinin müavini Saymon Mordu, Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono, bölmə rəhbəri Dorota Dlouchy, Avropa İttifaqının (Aİ) Azərbaycandakı səfiri Peter Mixalko və digər qonaqlar Ağdamda işğaldan azad edilmiş ərazilərində aparılan minatəmizləmə fəaliyyəti ilə tanış olublar.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) mobil sahə düşərgəsinə gələn qonaqlara Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verilib.

ANAMA İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, 2020-ci ilin noyabr ayından 2025-ci il aprelin 2-dək humanitar minatəmizləmə fəaliyyətinə cəlb edilmiş qurumlar tərəfindən Qarabağda və Şərqi Zəngəzurda aparılan minatəmizləmə əməliyyatları nəticəsində ümumilikdə 190 min 194,9 hektar ərazi minalardan və müharibənin partlayıcı qalıqlarından təmizlənib. 36 min 479 ədəd piyada əleyhinə mina, 21 min 607 ədəd tank əleyhinə mina və 133 min 514 ədəd partlamamış hərbi sursat (PHS) olmaqla, ümumilikdə 191 min 600 ədəd mina və müharibənin digər partlayıcı qalıqları aşkar edilərək zərərsizləşdirilib.

Ağdam rayonunda aparılan minatəmizləmə əməliyyatları nəticəsində ümumilikdə 35 min 909,5 hektar ərazi təmizlənib, 31 min 114 ədəd mina və PHS aşkar edilərək zərərsizləşdirilib. Ağdam rayonunda Bərdə-Ağdam dəmir yolu, Bərdə-Ağdam avtomobil yolu, Füzuli-Ağdam avtomobil yolu, Ağdam-Hindarx-Ağcabədi avtomobil yolu, Ağdam sənaye parkı ərazisi, əkin sahələri, meyvə bağları, qeyri-filiz mineral-xammal yatağı əraziləri, su kanalları, qaz kəməri xətləri və digər infrastruktur layihələrinin mina və müharibənin digər partlayıcı qalıqlarından təmizlənməsi fəaliyyəti icra edilib.

Statistikaya əsasən 30 ildə Azərbaycanda mina qurbanlarının sayı 3 min 400 nəfərdən artıqdır. Onların 359 nəfəri uşaq, 38 nəfəri qadınlardır. 10 noyabr 2020-ci ildən 2025-ci il aprelin 2-dək 384 nəfər mina partlayışının qurbanı olub. Onlardan 70 nəfəri həlak olub, 314 nəfəri xəsarət alıb.

Nümayəndə heyəti sonra Sarıcalı kəndi ərazisində minatəmizləmə fəaliyyəti ilə əyani tanış olublar. Bildirilib ki, Beynəlxalq Minatəmizləmə Standartlarına (IMAS) uyğun olaraq ANAMA tərəfindən genişmiqyaslı minatəmizləmə fəaliyyəti həyata keçirilir. Təmizləmə əməliyyatları əllə minaaxtarma, xüsusi təyinatlı mexaniki maşınların, minaaxtaran itlərin dəstəyi ilə icra edilir.

Qonaqlar ərazidən tapılan minaların partlayış yolu ilə zərərsizləşdirilməsini izləyiblər.

# Aİ nümayəndələri Ağdamda aparılan bərpa və yenidənqurma işləri ilə maraqlanıblar



**Avropa Xarici Fəaliyyət Xidmətinin iqtisadi və qlobal məsələlər üzrə baş katibinin müavini Saymon Mordu, Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Maqdalena Qrono, bölmə rəhbəri Dorota Dlouchy, Aİ-nin Azərbaycandakı səfiri Peter Mixalko və digər qonaqlar Ağdam rayonunda aparılan bərpa və yenidənqurma işləri ilə tanış olublar.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, avropalı qonaqlar əvvəlcə Sarıcalı kəndinə gəliblər.

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov onlara Sarıcalı kəndində aparılan tikinti işləri haqqında məlumat verib. Bildirilib ki, Ağdam rayonunda tikintisi həyata keçirilən yaşayış məntəqələrindən biri də Sarıcalı kəndidir. Birinci mərhələ üzrə kənddə 203 fərdi ev, həmçinin təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr inşa edilib. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub. Kəndə keçmiş məcburi köçkünlərin məskunlaşması təmin edilib.

Nümayəndə heyəti sonra Ağdam Sənaye Parkının fəaliyyəti ilə tanış olub. İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyəti sədrinin müavini Aqil Əzizov bildirib ki, Ağdam Sənaye Parkı Prezident İlham Əliyevin 2021-ci il 28 may tarixli fərmanı ilə yaradılıb. Sənaye Parkının yaradılmasında məqsəd işğaldan azad edilmiş ərazilərin bərpası, sənaye potensialının inkişaf etdirilməsi, ən əsası isə, bölgədə əhalinin məşğulluğunun təmin olunmasıdır.

Ağdam Sənaye Parkında indiyədək 28 sahibkarlıq subyekti rezident, 5 sahibkar isə qeyri-rezident kimi qeydiyyatdan keçib. Artıq sahibkarlar tərəfindən sənaye parkında görülmüş işlərə 107 milyon manatdan çox investisiya yatırılıb. Hazırda Ağdam Sənaye Parkında 9 müəssisə fəaliyyət göstərir. Parkda istehsal edilən məhsulların daxili bazara satışı ilə yanaşı, ixracı istiqamətində də uğurlar əldə olunub. Sənaye parkının rezidentləri tərəfindən 22,3 milyon manatlıq məhsul satışı edilib.

Avropalı qonaqlar sonra Ağdam şəhərində aparılan bərpa və yenidənqurma işləri haqqında məlumatlandırılıb, Ağdam Cümə məscidində olublar.

# MDB PA-nın daimi komissiyasında

**Aprelin 2-də Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyasının (MDB PA) Sosial siyasət və insan hüquqları üzrə daimi komissiyasının videokonfrans formatında iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə komissiyasının sədri, deputat Nizami Səfərov iştirak edib.**



Nizami Səfərovun sədrlik etdiyi onlayn iclasda IX Sankt-Peterburq Beynəlxalq Əmək Forumunun yekunları, "Valideynlərin uşaqların təhsili və tərbiyəsinə görə məsuliyyəti haqqında", "Uşaq hüquqları üzrə müvəkkil haqqında", "MDB-yə üzv dövlətlərdə dərman təminatı haqqında" model qanun layihələri və gündəliyin digər məsələləri ətrafında müzakirələr aparılıb.

*"Azərbaycan"*

# "Dəmir yumruğ"un Aprel zəfəri

## Başlanğıcını Aprel döyüşlərindən götürən Zəfər

**Azərbaycanın hərb tarixinin şərəfli salnamələrindən biri olan Aprel döyüşlərindən 9 il ötür. Ermənistanın təxribatlarının nəticəsi olaraq 2016-cı il aprelin 2-də başlayan döyüşlər ilk növbədə onu göstərmişdi ki, Azərbaycan dövləti hərbi yolla torpaqlarını işğaldan azad etməyə hazırdır. Eyni zamanda 4 gün davam edən Aprel döyüşləri Azərbaycanın yüksəlişinin, ordumuzun gücünün artırılması istiqamətində görülən işlərin praktik təsdiqi oldu.**



### Düşmən Azərbaycan Ordusunun əzici üstünlüyünü döyüş meydanında hiss etdi

Aprel döyüşlərinə qədər Ermənistan işğal altında saxladığı ərazilərimizdən Azərbaycan Ordusunun mövqelərini və kəndlərimizi atəşə tutmaqla çoxsaylı hərbi təxribatlar törətmiş və hər dəfə layiqli cavabını almışdı. 2013-cü ilin avqust ayında ermənilər cəbhə xəttində törətdikləri təxribatdan sonra ciddi təlefatla üzləşmişdilər. 2014-cü ilin noyabr ayında isə hərbçilərimiz cəbhə xəttində düşmənin təxribatçı hərəkətlər edən hərbi helikopterini məhv etmişdilər.

Aprel döyüşləri isə 1994-cü ilin atəşkəs razılaşmasından 2020-ci ilin Vətən müharibəsinə qədər olan dövrdə cəbhə xəttində baş verən və Azərbaycan Ordusunun möhtəşəm zəfəri ilə nəticələnən ən irimiqyaslı hərbi toqquşma oldu. 4 gün davam edən hərbi əməliyyatlar zamanı texnika və canlı qüvvə sarıdan böyük təlefatlar verərək qaçmağa məcbur edilən erməni hərbi birləşmələri atəşkəs dövründə ilk dəfə olaraq Azərbaycan Ordusunun əzici üstünlüyünü döyüş meydanında hiss etdilər. Döyüş günlərində və ondan sonra Ermənistanın rəsmi dairələri və kütləvi-informasiya vasitələri çoxsaylı dezinformasiyalar yaydılar, məğlub olduqlarını gizlətməyə çalışdılar. Lakin sonradan elə erməni mənbələrinin özləri tərəfindən Ermənistanın çoxlu sayda canlı qüvvə və hərbi texnika itirdiyi etiraf olundu. Döyüşlərdən sonra Ermənistan ordusunun rəhbər heyətinin vəzifədən azad olunması, yüksəkvəzifəli hərbçilər barəsində cinayət işlərinin başlanması da bunu təsdiq etdi.

### Hərb tariximizin ən uğurlu əməliyyatlarından biri

Aprel döyüşlərində Tərtər rayonu istiqamətində bir sıra strateji mövqelər, Cəbrayıl rayonundakı Lələtəpə yüksəkliyi, ümumilikdə isə iki min hektardan artıq ərazimiz işğaldan azad edildi. Həmin strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər ordumuza təmas xəttində strateji üstünlüyünü təmin etməyə, düşmənin əlaqə yollarını nəzarət altına almağa imkan verdi.

Xüsusilə qeyd edilməlidir ki, həmin vaxt ordumuzun bölmələri əlverişsiz mövqelərdən əks-hücum əməliyyatına başlamışdılar. Bu baxımdan həyata keçirilən uğurlu hücum əməliyyatları Azərbaycan Ordusunda həyata keçirilən islahatların, döyüş qabiliyyətinin artırılmasının, şəxsi heyətin peşəkarlığının yüksəldilməsi istiqamətində görülən işlərin təcəssümü oldu. Düşmən 1994-cü ildən sonra bərkidib-betonladığı, dinc əhalinin başına güllə, mərmi yağdırdığı mövqelərdən bir həmlədə qovulub çıxarıldı. Eyni zamanda bu döyüşlər Azərbaycan hərbçilərinin yüksək mənəvi-psixoloji hazırlığını, qələbə əzmini nümayiş etdirdi. Onlar bu yolda canlarından keçərək, müqəddəs şəhidlik zirvəsinə ucalaraq xalqımızın qəhrəmanlığını dünyaya bəyan etdilər.

Prezident İlham Əliyev Aprel döyüşlərini müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biri kimi qiymətləndirmişdir: "Aprel döyüşləri bizim böyük tarixi qələbəmizdir, müasir tariximizdə ən uğurlu hərbi əməliyyatlardan biridir. Yaxşı bilirsiniz ki, döyüşlərə qədər Ermənistan silahlı qüvvələri işğal edilmiş ərazilərdən bizim yaşayış məntəqələrini, hərbi mövqelərimizi daim atəşə tuturdu. Ermənistanın təxribatının qarşısını almaq üçün Azərbaycan Ordusu çox uğurlu əməliyyat keçirmiş və vaxtilə işğal edilmiş Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsini işğalçılardan azad etmişdir. Minlərlə hektar torpaq işğalçılardan azad edildi, on minlərlə hektar ərazi nəzarətimizə keçdi".

Aprel döyüşləri tarixə Azərbaycanın böyük hərbi qələbəsi kimi həkk olundu. Ermənistanın isə siyasi, iqtisadi və psixoloji məğlubiyyəti oldu. Bu hərbi hadisə demək olar ki, Ermənistan ordusu ətrafında yaradılmış mifləri dağıtdı, "Ohanyan sərhədi"nin keçilməz olması barədə deyilənlərin yalan olduğunu göstərdi.

Bütövlükdə, 2016-cı ilin aprelində Ermənistan həm döyüş meydanında sarsıdıcı məğlubiyyətə uğradıldı, həm də siyasi meydanda heç bir dəstək almadı. Bu hadisə həm də bir daha Ermənistanın işğalçı və terrorçu mahiyyətinə işıq saldı, aparılan danışıqlarda konstruktivlikdən uzaq olduğunu nümayiş etdirdi.

### Qələbə estafeti zirvəyə yetişdi

2016-cı ilin Aprel döyüşlərində sübut olundu ki, Azərbaycan Ordusu baş verə biləcək müharibəni qısa müddətdə qələbə ilə başa çatdırmağa qadirdir. Eyni zamanda bu hadisə bir daha göstərdi ki, Azərbaycan xalqı işğalla heç vaxt barışmayacaq, torpaqlarını mütləq azad edəcək. Düşmən də gördü ki, xalqımız ərazi bütövlüyünün bərpası üçün istənilən an müqəddəs savaşa hazırdır. Prezident İlham Əliyev çıxışlarının birində bununla bağlı deyib: "Aprel döyüşləri nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun bərpa edəcəkdir".

Prezident İlham Əliyevin böyük uzaqgörənliklə və müdrikcəsinə dediyi bu sözlər Aprel döyüşlərindən cəmi 4 il sonra həyata vəsiqə aldı. 2020-ci ilin 44 günlük Vətən müharibəsində torpaqlarımız işğaldan azad edildi, bayrağımız Şuşada ucaldıldı. Beləliklə, 2016-cı ilin Aprel döyüşlərindən başlayan Zəfər estafeti 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində özünün zirvəsinə yetişdi, ərazi bütövlüyümüz və bütün torpaqlarımız üzərində milli suverenliyimiz təmin olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Zəfərə gedən yolun başlanğıcı



2020-ci il Vətən müharibəsinə gedən yolun başlanğıcı hesab olunan Aprel döyüşlərindən 9 il ötür. 2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayan, dörd gün davam edən hərbi münaqişə zamanı Şanlı Ordumuz bir sıra strateji əhəmiyyətli yüksəklikləri düşmən tapdağından azad etməklə öz gücünü, qüdrətini nümayiş etdirdi. O zaman erməni ordusunun məğlubedilməzlik mifi dağılmış, Ermənistan gerçəkləri görərək qorxuya düşmüşdü.

Aprel döyüşlərində Azərbaycan Ordusu Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəklikləri, Tərtərin Qazaxlar və Suqovuşan kəndləri istiqamətindəki yolları, Cəbrayılda Lələtəpə yüksəkliyini və Cocuq Mərcanlını, Goranboyun Gülüstan kəndini düşmləndən azad edərək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün hər şeyə qadir olduğunu göstərdi. Elə dörd il sonra İkinci Qarabağ müharibəsində də bunu bir daha sübut etdi.

Zəfərə gedən Aprel döyüşlərindən danışan Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, bu döyüşlər Qarabağ münaqişəsinin həllində ən ciddi rol oynayan faktordur: "Bu döyüşlərdə Azərbaycan Ordusu peşəkar kadr potensialını, hansı gücə malik olduğunu bir daha göstərdi. Həm dağlıq, həm düzən ərazidə, quruda, havada, suda necə döyüş aparmaq lazım olduğunu bir daha dünyaya nümayiş etdirdi. Eyni zamanda Ermənistan ordusu haqqında yaradılan mif sındırıldı. Bir sıra erməni rəhbərləri güclərinin daha çox olduğunu düşünsələr də, Aprel döyüşlərindən sonra sıralarında ciddi istefalar başlandı. Korrupsiya halları üzə çıxdı, bununla bağlı yoxlamalar aparıldı, hətta hakimiyyət dəyişikliyi baş verdi. Hakimiyyət dəyişikliyinin əsas səbəblərindən biri məhz Aprel döyüşlərində ermənilərin məğlubiyyəti idi".

Komitə sədri qeyd edib ki, Lələtəpə yüksəkliyinin min hektarlarla ərazisinin düşməndən azad edilməsi, daha sonra həmin torpaqlarda soydaşlarımızın yaşaması üçün infrastrukturun yaradılması bir daha göstərdi ki, Azərbaycan suverenliyinə, ərazi bütövlüyünə böyük önəm verir və işğal faktı ilə heç vaxt barışmayacaq. 2016-cı ilin aprel ayının əvvəllərində baş tutan döyüşlər Azərbaycan Ordusunun mühüm qələbəsi idi. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Suqovuşan istiqamətində mövqelər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi istiqamətində məntəqələr düşməndən azad edildi. Silahlı Qüvvələrimiz məğlubedilməz erməni ordusu mifini darmadağın etdi və dünyaya gücümüzü, milli kadr potensialımızı göstərə bildi. Ərazi bütövlüyümüz, hər qarış torpağımız uğrunda canını fəda etməyə hazır olan oğullarımız bu döyüşlərdə böyük qəhrəmanlıq nümayiş etdirdilər. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

Aprel döyüşləri ilə Vətən müharibəsindəki şanlı Zəfərimizin bünövrəsinin qoyulduğunu deyən A.Nağıyev bildirib ki, bu döyüşlərdəki təcrübədən irəli gələrək 2016-2020-ci illərdə Azərbaycan Ordusunda dəyişikliklər baş verdi, yeni silahlarla təchiz olunma, təlimlər, hərbi taktikanın təkmilləşdirilməsi, yeni kadr potensialının formalaşması prosesi getdi. Bu döyüşlərdə müasir müharibənin necə aparıldığını göstərə bildik. Məhz Aprel döyüşlərindən başlayan yol 2020-ci ildə Azərbaycanın şanlı qələbəsi ilə nəticələndi. Bu hadisələrdən sonra bütün döyüşlər göstərdi ki, Azərbaycan Ordusu yüksək döyüş qabiliyyətinə malikdir, torpaqlarının bir qarışını da kiməsə verəsi deyil. Tovuz hadisələrində də Ali Baş Komandanın qətiyyətinin, Azərbaycan Ordusunun döyüş qabiliyyətinin və xalqın birliyinin ən yüksək səviyyədə olduğunu gördük. Bu gün Azərbaycan xalqı bilir ki, arxasında ərazi bütövlüyünü, suverenliyini qorumağa qadir şanlı ordu dayanıb.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Xalqımıza böyük sevinc yaşadan Aprel zəfəri apreldə qalmadı...

**Üstündən doqquz illik zaman ötməsinə baxmayaraq, həmin günləri indiki kimi xatırlayırıq. Gecədən xeyli keçmişdi. Əvvəlki vaxtlarda olduğu kimi, yenə də cəbhə bölgəsinə ezamiyyətə gedirdik.**

Amma budəfəki gediş əvvəlkilərdən tamam fərqli idi. Hərbi səhra paltarını da əynimizə yüksək ovqatla geyinmişdik. Ürəyimiz atlanır, üzümüz gülürdü. Ordumuzun hissələri ermənilərin aprel ayının ilk günlərində törətdikləri təxribatın qarşısını alaraq cəbhənin ayrı-ayrı istiqamətlərində zəfər yürüşünə başlamışdı. Atəşkəs rejimini pozan ermənilər həm mövqelərimizi, həm də yaxınlıqdakı yaşayış məntəqələrimizi atəşə tutmuşdular. Buna görə də mülki adamlar arasında ölən və yaralananlar var idi. Düşməni susdurub vətəndaşlarımızın həyatını xilas etmək üçün ordumuz əks-hücuma keçmişdi. Həm Talış kəndi istiqamətindəki, həm də Cəbrayıl rayonunun ərazisindəki yüksəkliklər uğrunda gərgin döyüşlər gedirdi. Çoxdan bəri gözlədiyimiz və həsrətində olduğumuz Zəfər dolu günlərin sevincini yaşayırdıq.

İllərdən bəri sıralarında xidmət etdiyimiz milli ordumuzun zəfər yürüşü ürəyimizi sevinclə doldurmuşdu. Qürurla, fərəh hissi ilə torpaqlarımızı erməni işğalçılarından azad etmək uğrunda vuruşan zabit və əsgərlərlə görüşmək üçün cəbhə bölgəsinə tələsirdik...

### Ehtiyatda olan zabit "Yenə də döyüşə hazıram" - deyirdi

Qatarda hərbçilər daha çox gözə dəyirdi. Bizim kimi onlar müvafiq tapşırıqlarla cəbhə bölgəsinə gedirdilər. Kupelərdəki söhbətlərin mövzusu yalnız ordumuzun Aprel uğurlarından idi. Adamlar bir-birilərinə zəng vurur, Silahlı Qüvvələrin son günlər apardığı uğurlu döyüş əməliyyatları barədə sevincək məlumat verirdilər. Kupe yoldaşımız Nazim Əhmədov keçmiş hərbçi idi. Beş il əvvəl təqaüdə çıxmışdı. Topçu kimi Birinci Qarabağ müharibəsində yaxından iştirak etmişdi. Daha çox Ağdam və Ağdərə istiqamətində vuruşmuşdu. Zabit və əsgərlərimizin uğurlarından söz açan Nazim dedi ki, ordumuzun işğalçıların tapdağında qalmış bir neçə yüksəkliyi azad etməsini eşidəndə çox sevindim. İnanırdım ki, getdikcə güclənən ordumuz günlərin birində düşmən üzərində qələbə çalacaq. Yaşım çox olsa da, qələbəmizin davamlı olması üçün artilleriyaçı kimi mən də həmişə döyüşə hazıram. Torpaqlarımızdan çıxmayan erməni qəsbkarları son əsgərinə, son zabitinə kimi məhv edilməlidir.

Səhərin ala-toranlığında cəbhə bölgəsində yerləşən dəmiryol stansiyasında qatardan düşən kimi top atəşləri eşitdik. Getdikcə artan güclü gurultu səsləri yerigöyü titrədirdi. Hiss olunurdu ki, ön xətdə gərgin döyüşlər gedir. Döyüşçülərimiz düşməni susdurub geri oturtmağa çalışırdılar. Bizi hərbi hissəyə aparan taksi sürücüsü dedi ki, dünən atəş səsləri bundan da güclü idi. Xeyli yol gəlib hərbi hissəyə çatdıq. Burada böyük canlanma var idi. Rabitə qurğuları bir an olsun belə susmurdu. Ön xətdən yeni məlumatlar daxil olur, yeni tapşırıqlar verilir, ard-arda uğurlar qazanılırdı. Ərazilərimiz addım-addım düşmənlərdən azad olunurdu.

Vaxt itirmədən yola çıxdıq. Qarşıdakı döngəni sağa burulandan sonra ön xətdə yerləşən bölməyə çatdıq. Topların gurultusu burada daha aydın eşidilirdi. Yaxınlıqdakı kəndlərdə yaşayan sakinlər hündür təpələrin üstünə çıxaraq atəş səsləri gələn istiqamətə boylanırdılar. Onlar cəbhədən uğurlu xəbərlər eşitmək, Azərbaycan əsgərinin qələbəsinin şahidi olmaq istəyirdilər.

Bir az qabağa gedib Talış kəndi istiqamətində bir neçə strateji yüksəkliyi qəsbkarlardan azad edən şəxsi heyətin yanına çatdıq. Ürəyimiz atlanır, gözümüzdə sevinc qığılcımları sayrışırdı. Qarşımızda uzun illərdən sonra ordumuzun ilk zəfər yürüşünü həyata keçirən, xalqımıza xoş anlar yaşadan Azərbaycan zabitləri, Azərbaycan əsgərləri dayanmışdı.

### Azərbaycan əsgəri qüdrətlidir, məğlubedilməzdir

Çöhrəsindən cəsurluq yağan gənc zabit Nihad Bayramov iştirakçısı olduğu son əməliyyatlardan söz açaraq dedi:

- Neçə müddət idi erməni qəsbkarları həm yerləşdiyimiz bölgənin yaşayış məntəqələrini, həm də postlarımızı atəşə tuturdular. Aprel ayının 1-də düşmən mövqelərimizə hücum etdi. Hücumun qarşısını almaq üçün döyüşə atıldıq. Elə ilk həmlədən qəsbkarları geri çəkilməyə məcbur etdik. Bir azdan ermənilər silah-sursatlarını atıb qaçdılar. Yağıları qovub mövqelərini ələ keçirdik. Postlarda vizual görüntü üçün kameralar quraşdırılmışdı. Heç bu da onlara kömək etməmişdi. Qısa müddətdə ermənilərin dörd postunu aldıq. Sonuncu mövqedə möhkəmlənib dayandıq. Hava işıqlaşan kimi düşmən üzərimizə hücuma keçdi. Gərgin döyüş başlandı. Silahlar od püskürdü, yer-göy lərzəyə gəldi. Bir addım da olsun geri çəkilmədən vuruşurduq. Daha əlverişli mövqe tutmaq üçün bir az irəli atılmaq istəyəndə böyrümdən güllə dəydi. Yaralansam da, geri çəkilməyib döyüşü davam etdirdim. Tutduğumuz postları sonadək qoruyub saxladıq. Bütün cəhdləri boşa çıxan qəsbkarlar bir addımda da olsun irəliliyə bilmədilər. Zabit və əsgərlərimiz əməliyyatlarda üzərlərinə düşən döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldilər.

### "Əsgərlərimin gözlərində intiqam qığılcımı gördüm"

Ön xətdən yenicə qayıtmış şəxsi heyət taborun həyətində silahlarını təmizləyirlər. Əsgərlər yorğun olsalar da, silahları qarşıdakı döyüşlərə hazırlayırdılar. Çünki hər an döyüş əmri verilə bilərdi. Şəxsi heyət qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirmişdi. Son əkshəmlədə zabit və əsgərlərimiz böyük hünər və rəşadət göstərərək işğalçılara sarsıdıcı zərbələr vurmuşdular. Qazanılan uğurlar bir daha sübut edirdi ki, Azərbaycan əsgəri təcrübəli və qüdrətlidir.

Döyüşlərdə ön sıralarda vuruşmuş zabit Pərviz Pirməmmədovun çöhrəsində yorğunluq hiss olunsa da, ovqatı yüksək idi. Qələbə sevinci yaşayan zabit dedi:

- Ermənilər həm mövqelərimizə hücum etmiş, həm də yaşayış məntəqələrimizi atəşə tutmuşdular. "Həyəcan" siqnalı verilən kimi düşmənin atəş nöqtələrini susdurmaq məqsədilə mövqelərimizin müdafiəsinə qalxdıq. Əvvəlcə yağıları minaatanlardan vurmağa başladıq. Qəsbkarlar hədəfimizdən yayına bilmirdilər. Qısa müddət ərzində ermənilərin bir neçə atəş nöqtəsi susduruldu. Yağıların zəiflədiyini hiss edən kimi əks-həmləyə keçdik. Zirehli texnikalar qəsbkarların mövqelərinə mərmiləri yağdıra-yağdıra irəlilədi. Tankçılarımız çox cəsarətlə vuruşurdular. Hücumdan qorxan ermənilər geri çəkilməyə başladılar. Güclü əks-həmlə nəticəsində ermənilərin mövqelərini darmadağın etdik. Böyük strateji əhəmiyyəti olan yüksəklik azad olundu. Düşmən tələsik geri çəkildiyinə görə bəzi vacib sənədlərini də atıb qorxaqcasına qaçmışdı.

### Qələbən mübarək, Azərbaycan əsgəri!

Çöhrəsindən məğrurluq yağan zabit Yaqub Qasımov dedi:

- Erməni işğalçılarının atəşkəs rejimini pozaraq mövqelərimizə hücum etməsi barədə məlumat verilən kimi səngərlərə tələsdik. Silahlar "dilə" gəlmişdi, atəş səslərindən qulaq tutulurdu. Qəsbkarlar mövqelərimizə Talış kəndi istiqamətindən hücum etmişdilər. Əsgərlərimiz döyüşə cəsarətlə girdilər. İşğal altında olan doğma torpaqlarımız da sanki bizi çağırırdı. Odur ki, inamla irəliləyirdik. Torpaqlarımızın yağı tapdağından azad olunduğu gün gəlmişdi. Gərgin döyüşdən sonra düşmənləri Talış kəndi istiqamətindəki yüksəkliklərdən qovduq.

- Bu, tarixi bir döyüş və dönüş oldu, - deyə əsgər Pirverdi Abbasov söhbətimizə qoşuldu. - Düşmən əks-həmləmiz qarşısında sonadək dayana bilməyəcəyini görüb geri çəkildi. Nə qədər cəhd göstərsələr də, mövqelərini qoruya bilmədi, xeyli canlı qüvvə və döyüş texnikası itirdi.

Qələbə sevinci yaşayan əsgər İsmət Fətiyev isə dedi ki, Talış kəndinin ətrafındakı yüksəkliklər uğrunda gedən döyüşləri həmişə xatırlayacağıq. "Bu əməliyyatlarda həm komandirlərim, həm də əsgər dostlarım igidlik göstərdilər. Düşməni məğlub edib xalqımıza sevinc bəxş etdik. İnanıram ki, bu sevinc davamlı olacaq. Daim irəli gedəcəyik. Çünki işğal altında olan torpaqlarımız bizi gözləyir".

Sıra meydanında məğrurcasına addımlayan əsgərlərə baxdıqca ürəyimizdən, dilimizdən bu sözlər süzülürdü: "Qələbən mübarək, Azərbaycan əsgəri!"

### Döyüşçülər dedilər ki...

Pulemyotçu Şirin Məmmədov iştirakçısı olduğu savaşdan söz açaraq dedi:

- Torpaqlarımızı erməni işğalçılarından azad etmək amalı ilə döyüşə atıldıq. Düşmənin üstünə qorxmadan, cəsarətlə gedirdik. Gülləleri bizə müqavimət göstərmək istəyən düşmənin üstünə dolu kimi yağdırırdıq. Bir neçə atəş nöqtəsi susdurulandan sonra işğalçılar zəiflədilər. Tankların irəli getməsinə əmr verilən kimi zirehli texnikaların mühərrikləri guruldadı. Biz zirehli texnikaların arxasınca ətrafa diqqət kəsilərək ehtiyatla addımlayırdıq. Ermənilərin mövqelərinə yaxınlaşan kimi tanklar atəş açdı. Mövqe tutub vuruşmağa başladıq. İşğalçıların qarşımızda yalnız iki saat dayanmağa gücü çatdı. Bir-birinin ardınca düşmən mövqelərini ələ keçirib yüksəkliyi azad etdik.

Əsgər Mehman Bayramov söhbətimizə qoşularaq dedi ki, bölüyün sanitar-təlimatçısıyam. Savaş zamanı üzərimə ikiqat məsuliyyət düşürdü. Həm vuruşur, həm də döyüşdə yaralanan zabit və əsgərlərə ilkin tibbi yardım göstərirdim. Hamımızın döyüş ovqatı yüksək idi. Qəsbkarları mütləq məhv edəcəydik. İşğalçıları addım-addım geri sıxışdırırdıq. Gərgin döyüşdən sonra yağıları böyük strateji əhəmiyyəti olan yüksəklikdən qovduq. Vuruşa-vuruşa yüngül yaralanmış gizir Şiriyevə və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Məmmədova tibbi yardım göstərdim.

Əməliyyatlarda fəal iştirak etmiş gənc zabit Cahangir Eyvazov dedi:

- Erməni işğalçıları mövqelərimizə hücum edəndə dünyaya göz açdığım Naxçıvanda məzuniyyətdə idim. Ermənilərin hücumlarını eşidən kimi zəng gözləmədən geri döndüm. Hərbi hissəyə çatan kimi silahımı götürüb ön xəttə yollandım. Həmin anlarda Talış kəndi istiqamətində şiddətli döyüş gedirdi. Əsgərlərimə yetişən kimi mövqe tutub vuruşmağa, onlara tapşırıqlar verməyə başladım. Qısa müddət ərzində erməni işğalçılarını postlarından qovduq. Növbəti həmlə zamanı düşmən qəflətən bizi minaatanlardan atəşə tutdu. Mərmilər yaxınlığımızda yerə düşüb torpağı yarır, dağı-daşı parçalayırdı. Yaxşı ki, yaxınlığımızda təbii manelər çox idi. Erməni qəsbkarları minaatan atəşlərinə ara verəndən sonra hücumu davam etdirdik. Düşmən atəş açır, müqavimət göstərir, biz isə güllələrdən, mərmilərdən yayınaraq irəli addımlayırdıq. Bir neçə güclü həmlədən sonra ermənilər silahlarını da atıb qaçdılar. Döyüş tapşırığı qələbə ilə yerinə yetirildi.

### Yaralılar döyüşlərə qayıtmaq istəyirlər

Müharibə zamanı hərbi həkimlərin də üzərinə mühüm vəzifələr düşür. Onlar döyüşlərdə yaralanmış zabit və əsgərlərin həyatını xilas etmək üçün səylə çalışırlar. Məhz həkimlərin peşəkarlığı və bacarığı sayəsində neçə-neçə döyüşçü ölümdən dönərək həyata qovuşur. Ağır döyüşlər getdiyi günlərdə yaralılara göstərilən tibbi yardımla yaxından tanış olmaq üçün hərbi səyyar hospitala baş çəkdik.

Döyüşdə yaralanmış zabit Asif Rəsulov dedi ki, sağlamlığım bərpa olunan kimi ön xəttə dönəcəyəm. İndi özüm burada olsam da, fikrim əsgərlərimin yanındadır. İnanıram ki, şəxsi heyət azad etdiyimiz torpaqlarımızı qoruyub saxlayacaq. Ermənilər nə qədər müqavimət göstərsələr də, məqsədlərinə çata bilməyəcəklər. Hücuma keçmək istəyərkən düşmən gülləsinə tuş gəldim. Hospitala çatdırılan kimi həkimlər məni əməliyyata götürdülər. İndi yaxşıyam, həyatım üçün heç bir təhlükə yoxdur. Döyüş zamanı gücümüzü görən düşmən geri çəkilməyə məcbur oldu. Cəsarətimizlə qəsbkarlara göstərdik ki, Qarabağın əsl sahibi bizik. Yurdumuzun azadlığı uğrunda hər an döyüşə getməyə, düşməni məhv etməyə hazırıq.

Əsgər Rahib Abdullayev həkimlərdən, tibb bacılarından razılıqla danışdı: "Ayağımdan yaralanmışdım. İlkin tibbi yardım göstərildikdən sonra məni hospitala gətirdilər. Əməliyyat uğurla başa çatdı. Həkimlər çox əziyyət çəkdilər. Həyatımı xilas etdiklərinə görə onlara dərin minnətdarlığımı bildirirəm. Ağrılarım keçib, özümü yaxşı hiss edirəm. Bir müddətdən sonra hərbi hissəyə, döyüşə qayıdacam".

Hərbi səyyar hospitaldan xoş təəssüratlarla ayrıldıq. Yolboyu yaralı əsgərin "Sağalıb tezliklə döyüşə qayıdacam" sözlərini xatırlayırıq. Deməli, Azərbaycan əsgəri yaralı olsa da, vuruşmaq, döyüşmək və qələbə qazanmaq əzmindədir.

Aprel ayının ilk günlərində döyüşdə qazanılan qələbələr xalqımızın doğma ordusuna olan inamını daha da artırdı. İctimaiyyətin Silahlı Qüvvələrimizə olan münasibəti kökündən dəyişdi.

Ürəyi Vətən eşqi ilə döyünən oğullar 27 sentyabr 2020-ci ildə erməni işğalçıları mövqelərimizə hücum edəndə silaha sarılaraq döyüşlərə yollandılar. Gərgin döyüşlər zamanı erməni qəsbkarlarına qalib gəldilər. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında İkinci Qarabağ müharibəsində torpaqlarımızı işğaldan azad etdi. Düşmən üzərində qazanılan tarixi Zəfər nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa olundu. Bu gün Qarabağın bütün şəhər və kəndlərində üçrəngli bayrağımız əzəmətlə, vüqarla dalğalanır. Çox şükürlər olsun ki, hamımıza böyük sevinc bəxş etmiş Aprel zəfəri apreldə qalmadı. Onun qığılcımları 2020-ci ildə qazanılan Zəfər məşəlini əbədi olaraq daha da gur alovlandırdı...

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***



# Artıq Kəlbəcərin zəfər və quruculuq tarixlərini qeyd edirik

**Düz beş ildir ki, aprel ayının gəlişi ilə Kəlbəcərin işğalından neçə illər keçmir...**

**İndi ötən zaman kəlbəcərli bəxtəvərlər olmamızın üzərinə qürurlu günlər, aylar, illər əlavə edir...**

**Kədər içərisində Kəlbəcərin daha işğal ildönümlərini deyil, yaşının üstünə yaş gələn təntənəli azadlıq bayramlarını sevinclə qeyd edirik...**

Ancaq düz 27 il Kəlbəcər eli baharın qaşqabaqlı aprel ayını heç qarşılamaq istəmədi... Bu 27 il ərzində hər aprel ayı gələndə Kəlbəcərdən ayrı düşdüyü o faciəvi günləri bir daha yaşadı, Murovun qarlı aşırımları ilə fəğan edə-edə naçar tərk etdiyi torpağının həsrətindən köz kimi qovruldu, qüssəli aprel ayına qoşulub hönkür-hönkür ağlamaqdan başqa da çarəsi heç nəyə yetmədi...

1993-cü ilin apreli kəlbəcərlilər üçün şaxtası ilikləri sızıldadan zimistan ayına çevrilmişdi. Torpağının altı da, üstü də xəzinə, havası, suyu, bitkiləri min bir dərdə dəva olan gülüstan Kəlbəcər saralıb-solmuş, düşmən tapdağı altına düşmüşdü.

Həmin zaman altmış minlik Kəlbəcər eli mal-mülkünü qoyaraq quruca canını götürüb zülm-zillətlə minlərlə metr hündürlükdə olan Murov dağı vasitəsilə ölkəmizin dörd bir yanına səpələnərək pərən-pərən olmuşdu. Lakin nə yazıq ki, çoxlarına bu da qismət olmamış, ya Murovda borana düşüb həyatını itirmiş, ya düşmən gülləsinə tuş gəlmiş, ya da girov götürülmüşdü...

## "Kəlbəcər bizimdir!"

Əslində, Kəlbəcər rayonu Qarabağda hadisələr alovlanandan iki tərəfdən mühasirədə idi. 1992-ci ilin mayında Laçının işğalından sonra isə Kəlbəcərin daha bir tərəfi bağlanmış və rayon 3 tərəfdən düşmən mühasirəsində qalmışdı. Kəlbəcərin Azərbaycanın digər bölgələri ilə əlaqəsi yalnız 3500 metr hündürlükdə olan Murov dağı vasitəsilə həyata keçirilirdi.

Düz beş il çətin şəraitdə düşmənlə təkbaşına döyüşən Kəlbəcərin işğalı Ermənistana qısa zamanda Azərbaycanın daha beş rayonunu zəbt etməyə şərait yaratmışdı.

Rayonun işğalı zamanı Murovdan Gəncəyədək sıralanan köç karvanlarında yaşanan ağrı-acıya, insanların gözlərindən oxunan dəhşətə, dillərindəki ağılara, hərbi maşınlarla daşınan yaralılara, meyitlərə, yerdəki qan qoxusuna görə göy üzünə qara bulud kimi topalaşan qarğa-quzğunun dəhşətli çığırtılarına, bir-biri ilə didişməsinə şəxsən şahid olan biri kimi deyirəm ki, elə bil, sözün əsl mənasında, o günlərdə biz əsl qiyaməti yaşayırdıq...

Təbii ki, hər cəhətdən zəngin diyar olan Kəlbəcərdən sonra kəlbəcərlilərin yaşamı dözülməz oldu. Aclıq, yoxluq, maddi çətinliklər bütün məcburi köçkünlər kimi, onları da xeyli sınağa çəkdi. Həyatlarının düz üç onilliyi bu cür sıxıntılarla, əziyyətlərlə bada getdi. Kəlbəcər həsrəti ilə çoxları əbədi gözlərini yumdu. Onların son vəsiyyətləri isə "məni Kəlbəcər torpağında dəfn edərsiniz oldu"... Amma həmin naəlac günlərdə o dünyaya yollanan insanların doğmalarından son istəkləri bu dünyadakı ən müşkül, yerinə yetirilməsi mümkünsüz iş kimi ürəkləri dərindən yaraladı...

İşğal illərində nişan da, toy da edirdilər, bayramlarda da bir yerə yığışırdılar, qonaq da gedirdilər, amma onların ən çox rahatlıq tapdıqları yer yas məclisləri olurdu. Çünki burada ürəkləri istəyən qədər el-obalarının halına, Kəlbəcərsizlik dərdinə doyunca ağlayıb ürəklərini boşalda bilirdilər...

Beləcə, kəlbəcərli keçmiş məcburi köçkünlər düz 27 il, 1993-cü ilin aprelindən 2020-ci ilin noyabrına qədər bu əzablarla yaşamağa çalışdılar...

Amma gün yetişdi, 2020-ci il sentyabrın 27-si kəlbəcərlilərin diriliş, noyabrın 25-i isə Kəlbəcərin qurtuluş gününə çevrildi.

2020-ci il noyabrın 25-də Kəlbəcər bir güllə atılmadan, bir itki verilmədən azad edildi. Həmin gün Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edərək, "Əziz həmvətənlər. Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu. Bu günü Azərbaycan xalqı uzun illər ərzində səbirsizliklə gözləyirdi…

…Kəlbəcər bizimdir! Qarabağ Azərbaycandır!" müjdəsi ilə Kəlbəcərin 27 illik həsrətini qəlblərimizdən əbədilik sildi.

## "Çay üstündə qala"

"Kəlbəcər" toponiminin mənşəyi qədim türk dilində (oykonimin ilkin forması Kevliçer kimi qəbul edilib) "çay üstündə qala" deməkdir.

Kəlbəcər ən qədim insan məskənlərindən biridir. Bu rayon böyük tarixi keçmişi, zəngin mədəniyyəti, qədim tarixi abidələri, təbii sərvətləri ilə seçilir. Rayonun ərazisində 30 min ildən çox tarixi olan qədim yaşayış məskənləri, 6 min il yaşı olan qaya təsvirləri, çöpşəkilli qədim türk əlifbası nümunələri aşkar edilib. Buradakı daş abidələr Şimali Azərbaycanda erkən dövr türklüyün, atəşpərəstliyin, xristianlığın, VII əsrdən isə islamın yayıldığı dövrlərdə yaradılıb.

Kəlbəcərdə "Türk qəbiristanlığı" adı ilə tanınan bir neçə qədim məzarlıq var. Bunların ən böyüyü Alıbəyli, Zar və başqa kəndlərin ərazisindədir. Qəbiristanlıqlar müxtəlif əsrlərdə yaradılmış, forma və ölçüləri ilə bir-birindən fərqlənən at, qoç, sandıq qəbirüstü fiqurlar, başdaşı və günbəzlərlə zəngindir.

Kəlbəcər ərazisindəki qayaüstü təsvirlər Qobustandakı yazılı və şəkilli daşların oxşarıdır. Kəlbəcərdə alban dövrünə aid xeyli tarixi abidələr də var. Bunlardan ən məşhuru Xudavəng məbəd kompleksidir. Eyni zamanda burada "Laçınqaya", "Lev", "Uluxan", "Qalaboynu", "Comərd" adlı digər qədim alban abidələri də var.

Təəssüf ki, erməni vandalları buranı işğal etdikdən sonra bu tarixi abidələrin əksəriyyətini məhv ediblər.

Kəlbəcəri Yer üzünün xəzinəsi adlandırsaq, qətiyyən mübaliğəyə varmarıq. Bu ərazi yeraltı və yerüstü təbii sərvətlərlə zəngindir. Kəlbəcər rayonu ərazisində Söyüdlü (Zod), Ağduzdağ və Tutxun qızıl yataqları var. Sənaye əhəmiyyətli civə yataqları da buradadır. Həmçinin tuf, gil, perlit, üzlük daşı, qum-çınqıl qarışığı, gözəl dekorativliyə malik 4 mərmər oniksi, nefroid, 1 obsidian (dəvə gözü), 1 listvenit yataqları var.

Kəlbəcər Yuxarı İstisu, Aşağı İstisu, Keşdək, Qarasu, Tutxun, Mozçay, Qoturlusu kimi çox böyük müalicə-balneoloji təsirə malik mineral su yataqları ilə də dünyada şöhrət qazanıb.

1988-ci ildə aparılmış son meşə quruluşu işlərinə əsasən, Kəlbəcər meşə təsərrüfatının ərazisi 32774 hektar təşkil edirdi. Kəlbəcər rayonu ərazisində 4 mindən artıq müxtəlif növ bitkidən 200-ə qədəri dərman bitkisidir.

Rayon işğal olunarkən 140 iri və orta müəssisə, 90 məktəbəqədər uşaq müəssisəsi, 115 ümumtəhsil məktəbi, 1 texniki peşə məktəbi, 107 xəstəxana və tibb müəssisəsi, 214 mədəniyyət ocağı ermənilər tərəfindən yandırılıb, darmadağın edilib.

## Kəlbəcərdə quruculuq təntənəsi

Kəlbəcəri azadlığına qovuşduran və 2021-ci ilin avqustunda bu ulu diyara ilk səfərini edən Müzəffər Ali Baş Komandan İlham Əliyev bəyan etdi ki, bu bölgəni cənnətə çevirəcəyik. Qalib lider İlham Əliyevin bu xoş xəbərindən ötən qısa zaman dönəmində Kəlbəcərdə böyük quruculuq, bərpa işləri həyata keçirilib, yeni sosial-iqtisadi obyektlərin təməlləri atılıb, uğurlu açılışlar edilib.

Prezident İlham Əliyevin birbaşa nəzarəti altında bu ərazidə infrastruktur layihələr gerçəkləşdirilir, yollar, tunellər çəkilir, su-elektrik stansiyaları qurulur, kompleks işlər görülür.

Təməli Prezident İlham Əliyev tərəfindən qoyulan Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murov dağında inşa olunan 11,6 kilometrlik tunelin özü bu ərazidə həyata keçirilən misilsiz işləri gözlər önünə sərən nümunələrdən yalnız biridir.

2023-cü il mayın 27-də - Müstəqillik Günü ərəfəsində yolunu yenidən Kəlbəcərdən salan xilaskar lider İlham Əliyev Kəlbəcər rayonunda ilk kəndlərin - Yanşaq və Zalların, eləcə də Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsinin təməlini qoydu.

Ötən ilin sentyabrında birinci xanım Mehriban Əliyeva ilə birgə Kəlbəcərə növbəti səfərini edən Prezident İlham Əliyev rayonda yeni açılışlar etdi, bünövrələr atdı. Bu səfər zamanı dövlətimizin başçısı Kəlbəcər şəhərində ikinci yaşayış kompleksinin, inzibati binanın, İstisu qəsəbəsinin təməlini qoydu. Həmçinin "İstisu" mineral su zavodunun açılışı edildi...

Həmin tarixdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ilə kəlbəcər sakinlərinin görüşüb söhbətləşdiyi zaman yaşanan sevincqarışıq duyğulu anların "günün videosu" kimi KİV-də, sosial mediada yayımlanan görüntüləri hər kəsdə dərin təəssüratlar oyatdı. Bu, həm də doğma torpağına qovuşan kəlbəcərlilərin və Kəlbəcəri xilas edən qalib lider İlham Əliyevin Zəfərdən doğan qürurunun, xoşbəxtliyinin, sevincinin möhtəşəm təsviri idi...

## Bir gün gülə-gülə qayıdacaqdı...

Bir qərinədən sonra Kəlbəcərə dönmək, o torpağa qədəm qoymaq insanın ruhunu təzələyir, xoşbəxtlik hissindən ürəyini uçundurur...

Digər yandan da yaşayış məntəqələrinin hamısının erməni talanının izlərini daşıdığını görmək, tənha kəndlərdəki qapısı, pəncərəsi, tavanı, çardağı olmayan içərisində kol-kos, ağac bitmiş yarıuçuq evləri görmək ürəyini ağrıdır.

Amma elə Kəlbəcər ərazisinə ilk qədəm qoyduğun andan etibarən bu sərt təbiətə malik yerlərdə qurucu lider İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında dünyada görünməmiş miqyasda həyata keçirilən quruculuq işlərinin şahidi olduqda ürəyin yenidən dağa dönür. Doğma torpağa əbədi qovuşmağın xoşbəxtlik əhvalına bürünürsən...

Bəli, bu da Tanrının möcüzəsidir ki, indi Kəlbəcər eli illər öncə şair Sücaətin qələmə aldığı o İlahi məqamı yaşayır:

*"Bir gün gülə-gülə qayıdacaqdı,*
*Ağlaya-ağlaya köçən Kəlbəcər".*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetləri

**XXI əsrdə müstəqil dövlət üçün xarici siyasətin prioritetlərini milli maraqlara uyğun müəyyən etmək sadə məsələ deyildir. Qloballaşma dalğasının yaratdığı geosiyasi turbulentliklə regional ziddiyyətlərin qarşılıqlı əlaqəsində düzgün prioritetləri tapmaq hər bir liderdən yaradıcı yanaşma tələb edir. Azərbaycan Prezidenti cənab İlham Əliyev 2024-cü ildə Azərbaycan Respublikasının xarici siyasət kursunun 14 prioritet (üstün, daha çox önəm verilən) istiqamətlərini tamamilə milli maraqlara və müstəqilliyin tələblərinə uyğun müəyyənləşdirmişdir. Dövlət başçısı dərin və hərtərəfli təhlilləri və dəqiq proqnozlaşdırmaları sayəsində çox uğurlu addım atmışdır.**

Şübhəsiz ki, vurğuladığımız kimi, bu proses əsaslı kreativ (biz burada "kreativ" terminini praktiki tətbiqi də innovativ olan yaradıcı fəaliyyət mənasında işlədirik) yanaşma tələb edir. Bununla yanaşı, elm üçün maraqlıdır ki, tədqiqatçılar həmin kreativ fəaliyyəti və onun "məhsulları"nı da yenidən araşdırırlar. Dərin və əsaslı dərketmə nəticəsində formalaşan biliklərin özünü təhlil etməyə ciddi ehtiyac yaranır. Bu, müasir dövrün əsas elmi tələblərindən biridir və ona obrazlı şəkildə "idrakın dərk edilməsi" də deyilir.

Prezident İlham Əliyevin xarici siyasət üçün yeni tarixi mərhələdə müəyyən etdiyi 14 üstün istiqamət vurğulanan elmi tələblərə tam cavab verir və təsadüfi deyildir ki, artıq siyasi-nəzəri tədqiqatların aktual mövzusuna çevrilmişdir. Bu kontekstdə Kamal Adıgözəlovun "Yeni tarixi mərhələdə Azərbaycanın xarici siyasətinin prioritetləri: politoloji təhlil" adlı kitabı həm aktual, həm də maraqlı bir araşdırmadır. Onun elmi redaktoru olmağa razılığımın kökündə məhz mövzunun aktuallığı, dövlətçilik baxımından zəruriliyi və dərin təhlillərin aparılması (müəllifin imkanları daxilində) gerçəkliyi dayanır. Kitabın bir sıra məziyyətləri üzərində dayanmaq istərdim.

## Semantik quruluşu

Sirr deyil ki, müasir elmdə anlayışların məna yükü və ritorikası önəm daşıyır. Bu və ya digər siyasi fikrin ifadə ediləcəyi ritorikanın böyük əhəmiyyəti var. Bir çox hallarda eşidirik ki, siyasi liderin nitqinin semantikası və ifadə formasına əsasən yeridilən siyasətin əsl mahiyyəti haqqında elmi fikir yürüdülür. Məsələn, siyasi lider nitqində radikal və ya qeyri-humanitar termin elementlərinə üstünlük verirsə, peşəkar dilçi alim asanlıqla onun real semantik mənasına varır və söylənən fikrin əsl mənasını üzə çıxarır.

İndi bu məsələ geosiyasi, siyasi, psixoloji, kulturoloji, linqvistik, neyrolinqvistik təhlillərdə geniş yer tutur. Bu baxımdan İlham Əliyevin xarici siyasət kursunu təhlil edərkən nitqin semantik, struktur və funksional cəhətlərinə ciddi fikir verilməlidir. Çünki Azərbaycan Prezidenti lider kimi dərin, humanitar, sülhpərvər və dialoqa, əməkdaşlığa istiqamətlənmiş diplomatik ritorika tətbiq edir. Dövlət başçımızın bu kontekstdə diplomatik məharəti və uğurlu siyasi kommunikabelliyi tanınmış tədqiqatçılar tərəfindən xüsusi vurğulanır.

Təqdirəlayiqdir ki, K.Adıgözəlov kitabda Prezident İlham Əliyevin məsələləri təqdim etməsində ona məxsus nitq semantikası və ifadə özəlliyini maksimum dərəcədə gözləməyə çalışmışdır. Bu, problemin politoloji qoyuluşunda, aparılan təhlillərin və çıxarılan nəticələrin məntiqində hiss edilir. Buna görə də hesab edirəm ki, kitabın semantik quruluşu müasir politologiyanın tələblərinə uyğundur.

## Məzmun və formanın vəhdəti

Bu məsələ hər bir əsər üçün ənənəvi olaraq aktualdır. Lakin yeni tarixi mərhələdə Prezident İlham Əliyevin xarici siyasət üçün müəyyən etdiyi üstün (prioritet) istiqamətlərin təhlilində məzmunla formanı uyğunlaşdırmaq elə də asan məsələ deyildir. Burada nitqin semantikası və ifadə tərzinin müasir elmin tələblərinə uyğun olması kifayətedici deyildir. Müəllif üstün istiqamətləri vahid məntiqi bucaq altına gətirmək üçün, birincisi, hər istiqamətin məzmununu aydın və siyasi baxımdan dəqiq ifadə etməlidir, ikincisi, 14 istiqaməti bütöv sistem (və ya şəbəkə) kimi təqdim etməlidir. Bu isə o deməkdir ki, müəllif araşdırdığı məsələnin məzmunu ilə onun təqdimolunma formasını siyasi-nəzəri terminoloji çərçivədə uyğunlaşdırmalıdır.

Kitabın strukturuna baxdıqda görürük ki, müəllif bu vəzifənin öhdəsindən xeyli dərəcədə gəlmişdir. Belə ki, əsər bir-biri ilə məntiqi və məzmun bağlılığı olan 5 hissəyə bölünmüşdür və onların ümumi ifadəsi üçün ayrıca "Ümumiləşdirici qənaətlər" bölməsi də vardır. Hissələrdə xarici siyasətin üstün istiqamətlərinin milli, regional, regionlararası və qlobal masştablarda başlıca özəllikləri təhlil edilmişdir. Bir hissədən digərinə keçidin daxili məntiqi izahı vardır. Bununla kitab konkret elmi-tədqiqat məqsədi olan yaradıcılıq nümunəsi təsiri bağışlayır.

Vurğuladığım fikir çərçivəsində kitabın bir sıra tezislərinin üzərində dayanmaq istərdim.

## Milli maraqlara əsaslanan müstəqil xarici siyasət

Kitabın bu hissə ilə başlaması maraq doğurur. Çünki yeni mərhələ üçün xarici siyasətin üstün istiqamətlərinin uğurlarının kökündə məhz onun milli maraqlara söykənən siyasi kursun tərkib hissəsi olması dayanır. Müəllif bu əsasda Cənubi Qafqazın perspektivlərinə nəzəri, hüquqi, geosiyasi, siyasi və diplomatik yanaşmanın sintetik işığında baxır. Bu, konkret olaraq, regionda davamlı sülhün təmin edilməsinə yeni mərhələdə regional təhlükəsizlik konseptinin formalaşmasının "geosiyasi və siyasi-diplomatik anatomiyası" müstəvisində baxılmasında öz ifadəsini tapmışdır.

Müəllif həmin nəzəri problemi iki aspektin sintezində nəzərdən keçirir: birincisi, regionda davamlı sülhün bərqərar olması, ikincisi, Cənubi Qafqazın dayanıqlı inkişaf bölgəsinə çevrilməsi.

Bu yanaşmada bir mühüm siyasi məqama işarə vardır - Azərbaycanın regional xarici siyasətində sülhlə dayanıqlı inkişafın vəhdəti əsaslı şəkildə ifadə edilmişdir. Prezident İlham Əliyevin praktiki siyasi və diplomatik fəaliyyətində bu tezis qabarıq şəkildə öz təsdiqini tapmaqdadır. Dövlət başçısı dərin siyasi-nəzəri və geosiyasi təhlillə düzgün proqnozlaşdırmanı üzvü surətdə birləşdirmişdir.




## "4M" formulu

Geniş prizmadan baxdıqda, görürük ki, kitab, əslində, bu düşündürücü və yığcam formulun ayrı-ayrı aspektlərinin qarşılıqlı əlaqədə təhlili kimi də təsəvvür edilə bilər. "4M" formulunun müəllifi, təbii ki, Prezident İlham Əliyevdir. Onu ilk dəfə Prezidentin köməkçisi Hikmət Hacıyev ifadə etmişdir. Etiraf edim ki, İlham Əliyev kimi yüksək zəka, fitri istedad, böyük dünyagörüşü və zəngin təcrübə sahibinin, bacarıqlı siyasətçi və mahir diplomatın xarici siyasət kursunun ümumiləşdirici politoloji tədqiqinə çoxdan böyük ehtiyac yaranmışdır. Bunun bir neçə səbəbini burada vurğulaya bilərəm.

Əvvəla, Azərbaycan rəhbəri həqiqi mənada Avrasiyada yeni liderlik nümunəsi yaratmışdır. Bunun məhz Azərbaycan elm adamları və politoloqları tərəfindən fundamental araşdırılması arxivacibdir.

İkincisi, İlham Əliyevin titanik siyasi səyləri sayəsində Avrasiyada İkinci Dünya müharibəsindən sonra Azərbaycan öz gücünə ərazi bütövlüyünü və suverenliyini təmin etdi. Bu aspektin də Azərbaycanda liderlik ənənəsi kontekstində elmi dərki çox vacibdir.

Üçüncüsü, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan yeni tarixi mərhələyə qədəm qoymuşdur və həmin mövzunun fəlsəfi, siyasi-nəzəri və digər aspektlərdə tədqiqi zəruridir.

Əlbəttə, başqa faktorları da vurğulaya bilərəm. Lakin bu üç məqam aydın göstərir ki, kitab vurğulanan istiqamətdə həm istiqamətverici, həm də motivəedici rol oynaya bilər.

Onu da vurğulayım ki, burada qeyd edilən aktual məsələlər "Azərbaycan" qəzetinin səhifələrində davamlı olaraq təhlil edilir. Ancaq bu prosesin geniş elmi dairələrdə dərin araşdırılması vacibdir.

Sonda "4M"in məna açılışını qeyd edək. Yeni tarixi mərhələdə xarici siyasətimizin "M"ləri kitabda göstərildiyi kimi, aşağıdakılardır: multivektorallıq, multiregionalizm, multilaterallıq və multikulturalizm! Bu anlayışların siyasi məzmununu dərk etmək üçün əsəri oxumaq gərəkdir!

Kitab faydalı və aktual mövzuya həsr edildiyindən Azərbaycan politoloji fikrində müsbət hadisə kimi qiymətləndirilməlidir. Onun təsvir dili aydın və oxunaqlıdır. Yüksək səviyyədə tərtibatı da diqqət çəkir. Ümid edirəm ki, əsər dəyərli oxucularda maraq oyadacaqdır!

***Nizami CƏFƏROV,***
***akademik***

# "Vatican News" portalı Azərbaycan dilində xəbərlər yaymağa başlayıb

**Müqəddəs Taxt-Tacın "Vatican News" portalı əlaqələri, imanı gücləndirmək və dinlərarası dialoqu təşviq etmək məqsədilə aprelin 2-dən etibarən Azərbaycan dilində xəbərlər yaymağa başlayıb.**

AZƏRTAC xəbər verir ki, "Vatican News" Azərbaycan dilini əlavə etməklə çoxdilli xidmətinin əhatə dairəsini genişləndirib. Bu addım Azərbaycana səfər edən ilk Roma Papası olan II İohan Pavelin vəfatının 20-ci ildönümü münasibətilə atılıb. Bununla da, portalın xəbər yaydığı dillərin sayı 56-ya yüksəlib.

Roma Katolik Kilsəsinin Apostol prefekti yepiskop Vladimir Fekete II İohan Pavelin 2002-ci ildə Azərbaycana səfərini xatırladaraq deyib: "2002-ci il mayın 23-də Bakıda söylədiyi moizədə II İohan Pavel vurğulamışdı ki, ölkədəki kiçik katolik icması "maya" olmalı və yol göstərən ruh olmalıdır. Müasir dünyada media həqiqəti yaymaq, dindarların ümid və imanını gücləndirmək üçün getdikcə daha güclü vasitəyə çevrilir".

Vatikanın Kommunikasiya üzrə Dikasteriyası ilə əməkdaşlığın nəticəsi olan bu təşəbbüsü dəstəkləyən yepiskop Vladimir Fekete bildirib: "Azərbaycandakı əksər yerli katoliklər başqa dillərdə danışmırlar və onlar Ümumdünya Kilsəsi haqqında öyrənmək üçün bəzən etibarlı olmayan mənbələrə müraciət etməli olurlar. Bu səbəbdən biz biliyi təşviq etmək və imanı gücləndirmək üçün "Vatican Radio"-"Vatican News" ilə bu layihəni başlamağa qərar verdik. İndi hər kəs Müqəddəs Atanın sözlərini və Ümumdünya Kilsəsində baş verən hadisələr haqqında xəbərləri öz dilində oxuyacaq. Əminəm ki, bu, başqa dinlərin nümayəndələri və ya imanı olmayanlar üçün də dəyərli məlumat mənbəyi olacaq".

O, həmçinin vurğulayıb ki, Azərbaycan dilində təkcə Azərbaycanda deyil, dünyada 30 milyondan çox azərbaycanlı danışır.

Vatikanın Kommunikasiya üzrə Dikasteriyasının prefekti Paolo Ruffini qeyd edib ki, hər bir parça saysız-hesabsız toxunmuş saplardan ibarətdir. Bizim kommunikasiya şəbəkəmiz də buna bənzəyir. Bu gündən etibarən yepiskop Vladimir Fekete və Azərbaycanın Apostol Prefekturası ilə əməkdaşlığın sayəsində həmin şəbəkə Azərbaycan dilində də danışacaq.

"Hər bir dil bizim gündən-günə tikdiyimiz kilsənin canlı binasında mühüm rol oynayır. 2016-cı ilin oktyabrında Bakıya səfəri zamanı Papa Fransisk kiçik azərbaycanlı katolik icmasını tərifləyərək, onu Müqəddəs Ruhun enişini Yuxarı Otaqda toplaşaraq gözləyən ilk şagirdlərlə müqayisə etdi. Azərbaycan dilini "Vatican News"un bir çox dillərinə əlavə etmək - kilsədə heç kimin digərindən böyük və ya kiçik olmadığını nümayiş etdirmək üsulumuzdur.

Vatikan Mediasının baş redaktoru Andrea Tornielli deyib ki, "Vatican News"un Azərbaycan dilində mövcudluğu təkcə Papanın mesajını daha çox insana çatdırmaq üçün bir yol deyil, həm də dinlər arasında dialoqun təşviqi istiqamətində mühüm addımdır. Müharibə və zorakılıqla sarsılan dünyada Peterin Xələfinin sözləri bölünmə və nifrətə təslim olmaqdan imtina edən, bunun əvəzinə görüş, qarşılıqlı anlaşma və qardaşlıq yolları qurmağa çalışan hər kəs üçün körpüdür.



# Mədəniyyət



## Dövlət qayğısı

**Azərbaycanın incəsənət xadimlərinə dövlət qayğısı həyata keçirilən mədəniyyət siyasətinin hər zaman mühüm istiqamətlərindən olmuşdur. Mədəniyyət xadimləri yaradıcı insanlardır, onların həssas münasibətə, yeni yaradıcılıq uğurlarına ruhlandırılacaq diqqətə, xidmətlərinə görə layiqli qiymətə daim ehtiyacları var.**



# Sənət əbədidir

## Prezident İlham Əliyevin mədəniyyət siyasətində yaradıcı insanlara diqqət və qayğı xüsusi yer tutur

Azərbaycanın mədəniyyət işçilərinin dövlət təltifləri ilə mükafatlandırılması bu diqqətin bariz nümunəsidir. Hər bir xalq yetirdiyi mədəniyyət xadimləri ilə tanınır, öz potensialını onların yaradıcılığı ilə ifadə edir. Prezident İlham Əliyev bu xüsusda olan çıxışlarında dəfələrlə vurğulayır ki, Azərbaycanı dünyada tanıdan bizim ziyalılarımızdır - alimlərimiz, rəssamlarımız, şairlərimiz, aktyorlarımız, yazıçılarımız, bəstəkarlarımızdır: "Azərbaycanı bu insanlar tanıdırlar. Bu insanlar cəmiyyətin aparıcı təbəqələridir, cəmiyyətin elitasıdır". Ona görə dövlətimiz hər zaman öz yaradıcı adamlarına böyük dəyər verir, onları dəstəkləyir, mədəniyyətimizin inkişafına zəngin töhfələr bəxş etmiş sənətkarlarımızı həmişə qiymətləndirir.

Martın 30-da görkəmli teatr və kino xadimi, Azərbaycanın Xalq artisti, Dövlət mükafatları laureatı Şəfiqə Məmmədovanın 80 yaşı tamam oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu münasibətlə bir gün əvvəl - martın 29-da Şəfiqə Məmmədovanı qəbul edərək ona ölkəmizin ən ali dövlət təltiflərindən sayılan "İstiqlal" ordenini təqdim etməsi cəmiyyətimizdə xüsusi rəğbət doğurdu.

Bu, dövlət başçısının yaradıcı insanlarımıza, Azərbaycan mədəniyyətinin inkişafına töhfələr vermis sənət adamlarımıza həssas münasibətinin təzahürüdür. Sənət adamlarımızın yubileylərinin yüksək səviyyədə qeyd olunması, onların dövlət mükafatları ilə təltif edilməsi, ömrünü sənətə sərf etmiş insanlara Prezident mükafatının ayrılması, mədəniyyət xadimlərinin evlə təmin olunması və sosial vəziyyətinin yaxşılaşdırılması üçün digər müxtəlif proqramların həyata keçirilməsi uzun illərdir ki, ölkəmizdə xoş bir ənənəyə çevrilib. Ümummilli Lider Heydər Əliyevin milli dəyər konsepsiyasından irəli gələn bu yanaşmanı Azərbaycan Prezidenti İlham Əliyev uğurla qoruyaraq inkişaf etdirməkdədir.

### Milli mədəniyyətimizə göstərilən diqqət

Yaradıcı şəxsiyyətlərə göstərilən bu münasibət onların şəxsində, ümumiyyətlə, mədəniyyətimizin inkişafı üçün müstəsna əhəmiyyət daşıyır. Belə bir həssas münasibət onların həm mənəvi, həm də sosial rifahı baxımından son dərəcə mühüm amildir. Bu insanlar illərlə incəsənətə, milli mədəniyyətə xidmət etmiş sənətkarlardır. Onların zəhmətinin dövlət səviyyəsində qiymətləndirilməsi, yüksək fəxri adlara, orden və medallara layiq görülməsi, şəxsən dövlət rəhbərinin onlarla görüşüb təbriklərini yetirməsi bu xidmətlərə, həmin şəxslərin istedadına, yaradıcı əməyinə verilən dəyərin bariz nümunəsidir. Prezident İlham Əliyev gözəl aktrisamız Şəfiqə Məmmədovaya "İstiqlal" ordenini təqdim edərkən dedi: "Siz uzun illər ərzində Azərbaycan mədəniyyətinin inkişafında çox önəmli rol oynayırsınız, ölkəmizin teatr və kino sənətinə dəyərli töhfələr vermisiniz. Həm gözəl aktrisa, həm pedaqoq, ictimai xadim kimi xalqımızın hörmət və rəğbətini qazanmısınız. Ulu Öndər Heydər Əliyev sizin fəaliyyətinizi həmişə yüksək qiymətləndirirdi, siz bunu yaxşı bilirsiniz. Hələ sovet dövründə siz həm Azərbaycan Respublikasının, həm Sovet İttifaqının Dövlət mükafatlarına layiq görülmüsünüz". Daha sonra xüsusi vurğulandı ki, Ş.Məmmədova 2000-ci ildə Ulu Öndərin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur. Prezident İlham Əliyevin sərəncamları ilə "Şərəf", Birinci dərəcəli "Əmək" ordenlərinə, fəxri diploma layiq görülmüşdür. "İstiqlal" ordeni isə şəxsən dövlətimizin başçısı tərəfindən təqdim edilmişdir. Bu, böyük qürur, mədəniyyətə göstərilən münasibətin ən ali məqamıdır.

Dövlət tərəfindən belə bir xüsusi diqqət göstərilməsi cəmiyyətdə incəsənət xadimlərinə olan hörməti daha da artırır. Bu isə onların yaradıcılıq ruhunu gücləndirir və sənətə yeni töhfələr verməyə təşviq edir. Belə insanlara təqdim olunan dövlət mükafatları və Prezident təqaüdləri sənətkarların maddi rifahının yaxşılaşmasına da kömək edir. Xüsusilə, yaşı və sağlamlıq problemləri səbəbilə aktiv fəaliyyət göstərə bilməyən sənət adamları üçün bu dəstək son dərəcə önəmlidir.

### Gənc nəslə nümunə

Burada gələcək nəsillər üçün yaradılan stimul da çox vacib məqamdır. Sənət nəsillərdən-nəsillərə ötürülən ənənədir. Bu ənənənin davamlı olaraq bir nəsildən digərinə keçməsindən, zaman ötdükcə dövrün çağırışlarına uyğun inkişaf etdirilməsindən ötrü daim yeni ardıcılların formalaşması, gənclərin estafeti təhvil alması mütləqdir. Gənclər isə hər zaman motivasiyaya ehtiyac duyur, hansısa fəaliyyət sahəsinə ictimai münasibəti müəyyən edən örnəklər əsasında öz tale yollarını müəyyənləşdirirlər. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yaradıcı adamlarımıza daimi diqqət və qayğısı bu baxımdan gənclər üçün mükəmməl nümunədir. Dövlətimizin başçısının görkəmli sənətkara göndərdiyi təbrik məktubunda aktyorluq sənətinin sirlərinə gənclərin yiyələnmələri üçün mahir pedaqoqların böyük əmək sərf etdikləri xüsusi vurğulanır.

Bildiyimiz kimi, sənət adamları milli-mənəvi dəyərlərin qorunması və inkişafında da çox böyük rol oynayırlar. Yaradıcı şəxsiyyətlər istənilən xalqın milli kimliyinin qorunmasında mühüm missiya yetinə yetirirlər. Dövlətin onlara göstərdiyi dəstək dəyərlərin möhkəmlənməsinə, milli mədəniyyətin daha da inkişaf etdirilməsinə və dünya miqyasında tanınmasına şərait yaradır. Xüsusilə qloballaşma dövründə bütün bunlar müstəsna əhəmiyyətə malikdir.

Cənab İlham Əliyevin sənətkarlara göstərdiyi diqqət ali dövlət rəhbərliyinin sənətə münasibətinin göstəricisi kimi cəmiyyət üçün də bir meyar yaradır. İnsanlarımızın dövlətə etimadını daha da artıran bu münasibət Azərbaycan Prezidentinin həyata keçirdiyi mədəniyyət siyasətinin vacib elementidir. Azərbaycan mədəniyyəti zəngin tarixi, unikal irsi və özünəməxsus incəsənət nümunələri ilə fərqlənən bir irsdir. Bu çoxkomponentli siyasət isə həm ölkə daxilində milli mədəniyyətimizin inkişafını, həm də beynəlxalq aləmdə Azərbaycanın mədəni irsinin tanıdılmasını, eləcə də uğurlu mədəniyyət diplomatiyasını əhatə edir.

Mədəniyyət diplomatiyası dövlətlər və xalqlar arasında müxtəlif mədəniyyətlərin mübadiləsini təmin edir, qarşılıqlı dözümlülük üzərindən dostluq körpüləri salır, mehriban qonşuluq əlaqələrinin qurulmasına geniş imkanlar yaradır. Müasir beynəlxalq münasibətlərdə mədəniyyət diplomatiyası hər bir dövlət üçün çox səmərəli siyasi strategiya alətidir.

Dövlətimizin rəhbərinin həyata keçirdiyi siyasətin nailiyyətləri sayəsində bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dövləti mədəniyyət sahəsində həyata keçirdiyi düşünülmüş siyasətlə də beynəlxalq aləmdə zəngin potensiala və yüksək mədəniyyətə malik ölkə kimi nüfuz qazana bilib. Ölkəmiz qısa müddətdə ümumdünya mədəniyyət diplomatiyası cərəyanına fəal şəkildə qoşularaq, özünü mədəni mübadiləyə, xalqların mənəvi yaxınlığına açıq, ümumbəşəri mədəni irsin zənginləşdirilməsinə və qorunmasına qadir dövlət kimi tanıtmağı bacarıb, bu istiqamətdə ciddi nəticələr qazanıb. Xalqımızın milli-mədəni dəyərlərinin dünyada təbliği, mədəni və humanitar əlaqələrimizin genişlənməsi, əsrlər boyu bəşər mədəniyyətinə nadir töhfələr vermiş şəxsiyyətlərimizin müasir dünyaya təqdimatı Azərbaycanın xarici siyasət kursunun mühüm istiqamətidir.

### Dünyaya çıxan Azərbaycan sənəti

Zəngin tarixi və mədəni irsi ilə xalqımızın mənəvi həyatında mühüm yer tutan Azərbaycan teatrı dövlətimizin mədəniyyətə qayğısı zəminində sürətlə inkişaf edən sahələrdəndir. Son illərdə teatr binaları əsaslı şəkildə təmir olunub, müasir avadanlıqlarla təchiz olunub, yeni teatr məkanları yaradılıb. Regionlarda fəaliyyət göstərən teatrların inkişafına diqqət daha da yüksəlib. Teatr aktyorlarının və işçilərinin əməkhaqları artırılıb, istedadlı gənc sənətçilərin dəstəklənməsi üçün müxtəlif proqramlar hazırlanaraq həyata keçirilib. Azərbaycan Prezidenti teatrlarımızın beynəlxalq festivallarda iştirakını dəstəkləyir, ölkəmizdə dünya səviyyəli teatr tədbirlərinin keçirilməsinə hər cür şərait yaradır.

Bütün bu addımlar Azərbaycan teatr sənətinin inkişafına təkan verir, gənc nəslin marağını artırır və ölkəmizdə mədəni irsin qorunmasına geniş zəmin yaradır. Ölkə rəhbərinin bu sahəyə ciddi diqqət verməsi Azərbaycan teatrının dünya səhnəsində layiqli yer tutmasına əsas yaradır.

Bu gün ölkəmizdə musiqi, muzey, kitabxana, sərgi fəaliyyətinin inkişafı üçün də ardıcıl addımlar atılır. Konsert salonları, muzeylər, sərgi zalları modernləşdirilib, müasir texnologiyalarla təchiz edilib. Prezident İlham Əliyevin mədəniyyət siyasəti çərçivəsində musiqiyə göstərilən diqqət bu sahədə də milli dəyərlərimizin qorunmasını, gənc musiqiçilərin dəstəklənməsini və Azərbaycan musiqisinin dünyada tanıdılmasını təmin edir. Bu siyasət nəticəsində ölkəmizdə həm muğam, həm klassik, həm də müasir musiqi janrları inkişaf edir, Azərbaycan dünya mədəniyyət məkanında öz musiqisi ilə layiqli yerini qoruyur.

### Sənət və sənətkar qədri bilən Lider

Dövlətimizin mədəniyyət siyasətinin uğurla həyata keçirilərək öz məqsədlərinə çatmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın müstəsna xidmətləri var. Mehriban xanımın rəhbərlik etdiyi layihələr və təşəbbüslər mədəni irsimizin qorunması, milli dəyərlərimizin təbliği və incəsənət sahəsində istedadların dəstəklənməsi baxımından böyük əhəmiyyət daşıyır. Bu layihələr Azərbaycanın tarixi abidələrinin bərpasını, milli musiqi, teatr, kino, rəngkarlıq, el sənətlərimizin inkişafını, dünyaya təqdim olunmasını əhatə edir. Mehriban xanım Əliyeva xüsusilə xalq olaraq genetik kodumuzu təşkil edən muğam sənətimizin dünya səviyyəsində tanıdılması üçün böyük işlər görüb. Bakıda və regionlarda yaradılmış muğam mərkəzləri, Azərbaycan muğamının UNESCO-nun qeyri-maddi mədəni irsi siyahısına daxil edilməsi, ölkəmizdə beynəlxalq muğam festivallarının təşkili bu işlərin müəyyən bir hissəsidir.

Vətən müharibəsindəki tarixi zəfərimizdən sonra bu gün dövlətimizin siyasətinin mühüm prioritetlərindən biri də azad yurdlarımızda mədəniyyətin bərpasıdır. Ermənilərin təxminən 30 illik işğal dövründə vandalcasına dağıtdıqları tarixi-mədəni abidələrimiz bərpa edilərək yenidən həyata qaytarılır. Hər il Şuşada təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri kimi mədəniyyət tədbirləri ilə böyük bir tarixi-mənəvi ənənə yenidən ölkəmizin və regionun mədəniyyət həyatında öz yerini tutur.

Azərbaycanın mədəniyyət siyasəti beynəlxalq əməkdaşlıq müstəvisində də böyük uğur qazanır. Dünyanın müxtəlif ölkələrində Azərbaycan mədəniyyəti ilə bağlı tədbirlər keçirilir, dünya ölkəmizi, xalqımızı mədəniyyət incilərimiz işığında bir daha yaxından tanıyır.

Mədəniyyət siyasətinin mühüm istiqamətlərindən biri kimi gənc istedadların üzə çıxarılması və dəstəklənməsi də davamlı xarakter daşıyır. Yaradıcı gənclər, o cümlədən teatr və kino sahəsində çalışan şəxslər, musiqiçilər, rəssamlar üçün müsabiqələr, proqramlar təşkil edilir. Onların təhsilinə, fərdi inkişafına, gənc sənətçilərin beynəlxalq festivallara və digər tədbirlərə qatılmasına dəstək verilir.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi mədəniyyət siyasətinə ümumi bir baxışdır, bu siyasətin uğurları işığında milli mədəniyyətimizin gələcəyi çox parlaq görünür. Çünki onun cənab İlham Əliyev kimi güclü, sənət və sənətkar qədri bilən hamisi var.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

## Əbədiyyət ömrü qazananlar

# Tarixi şəxsiyyətlər unudulmurlar

**Öz xalqına xidmət edib əbədiyaşarlıq ömrü qazanan müdrik insanlar illər, əsrlər keçsə də, unudulmurlar. Onların xatirəsi həmişə hörmətlə yad edilir... Görkəmli ictimai-siyasi və dövlət xadimi Nəriman Nərimanov da adını tarixin yaddaşına yazan böyük şəxsiyyətlərdəndir. Vəfatından, eləcə də yeganə övladı Nəcəfə ünvanladığı "Bitməmiş məktub"u yazmasından bir əsr ötür...**

Nəriman Nərimanovun anım günündə xatirə muzeyində keçirilən tədbir də belə adlanırdı - "Bitməmiş məktub və nakam ömür"...

N.Nərimanovun həyatı mənalı və keşməkeşli olub. Savad, bilik əldə etmək arzusundan doğan təhsil illərindən maarif və mədəniyyətin tərəqqisi uğrunda mübarizəyə, müstəqil fəaliyyət göstərə bilmək üçün həkimlik sənətinə yiyələnmək cəhdindən, siyasi mübarizəyə aparan yolun hər addımı anbaan kamilliyə doğru can atmanın bariz nümunəsidir. Elə bu səbəbdən də Nəriman Nərimanovun Bakıda fəaliyyət göstərən xatirə muzeyi tarixi şəxsiyyətin doğum və anım günlərində onun şəxsiyyətinə və zəngin irsinə dəyər verən insanların görüş yerinə çevrilib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti yanında DİA-nın professoru, tarix üzrə elmlər doktoru Həvva Məmmədova, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun şöbə müdiri, fəlsəfə elmləri doktoru Arzu Hacıyeva, Azərbaycan Respublikası Prezidenti yanında DİA-nın Tarix kafedrasının müdiri, Əməkdar müəllim, tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova, akademiyanın dosenti, tarix üzrə fəlsəfə doktoru Rəna Bayramova, N.Nərimanov irsinin tədqiqatçısı, professor Teymur Əhmədovun oğlu Füzuli Əhmədov, Azərbaycan Milli Tarix Muzeyinin Beynəlxalq əlaqələrlə iş şöbəsinin müdiri Zümrüd İsmayılova, eyni zamanda həmin muzeyin baş fond mühafizi Afət Kərimova, Əməkdar mədəniyyət işçisi Nailə Rəhimova, A.Şaiqin mənzil-muzeyinin müdiri Ülkər Talıbzadə, KİV nümayəndələri, tələbələr və digər qonaqlar iştirak edirdilər.



Giriş sözü ilə tədbiri açan xatirə muzeyinin direktoru Ləman Hüseynova qonaqları salamlayaraq sözü tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədovaya verdi. O, öz çıxışında N.Nərimanovun ömrünün mühüm hissəsinin qəlbən inandığı və həyatının başlıca vəzifəsi sayaraq müqəddəs amala çevirdiyi xalq işi uğrunda ardıcıl mübarizələrdə keçməsindən, milli maraqları daim üstün tutan rəhbər kimi taleyüklü problemlərə münasibətindən xalqımızın mənafeyini ömrünün son anınadək müdafiə etməsindən bəhs etdi.

Tədbirdə ilk dəfə olaraq qonaqlara N.Nərimanovun oğlu Nəcəfə və onun simasında gələcək nəsillərə xitabən yazılmış "Bitməmiş məktub" - əlyazmasının əsli təqdim edildi. Həmin həyəcanlı dəqiqələrdə dahi mütəfəkkirin qələmi ilə yazılmış, zaman keçdikcə saralıb solmuş əlyazmanın məzmunu 189-190 nömrəli orta məktəbin 9-cu sinif şagirdi Ləman Hacıyevanın ifasında səsləndi.

Dahi mütəfəkkirin və oğlu Nəcəfin həyatının mühüm mərhələsini özündə əks etdirən videoçarxı tədbir iştirakçıları maraqla seyr etdilər.

Çıxış edənlər tədbirin tariximizi öyrənmək, şəxsiyyətlərimizin miras qoyub getdikləri zəngin irsdən düzgün faydalanmağın əhəmiyyətindən danışdılar.

Tədbirdə muzeyin fonduna yeni daxil olan tədqiqat əsərləri, kitab, qəzet, jurnallar və N.Nərimanovun müxtəlif illərdə çəkilmiş portretlərindən ibarət sərgi nümayiş etdirildi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# "İrs-Nasledie" jurnalının növbəti nömrəsi çapdan çıxıb

**Moskvada nəşr olunan "İrs-Nasledie" jurnalının növbəti nömrəsi işıq üzü görüb.**

Jurnalın bu nömrəsi Musa Mərcanlının faşizm üzərində Qələbənin 80 illiyinə həsr olunmuş redaktor məqaləsi ilə açılır. Materialda təkcə İkinci Dünya müharibəsi və Nürnberq məhkəmələri zamanı baş verən hadisələr deyil, həm də XX əsrdə insanlığa qarşı törədilmiş cinayətlərlə bağlı mövcud problemlər araşdırılır. Erməni radikal qrupları tərəfindən "tarixi ədalətin bərpası" şüarı altında dinc azərbaycanlı əhaliyə qarşı həyata keçirilən kütləvi qətllərə və etnik təmizləmələrə xüsusi diqqət yetirilir. Məqalədə vurğulanır ki, nasizmin cinayətlərindən heç də az vəhşi xarakter daşımayan bu əməllər lazımi beynəlxalq qiymətini almayıb, hətta erməni cəmiyyətinin kütləvi şüurunda çox vaxt haqlı hal kimi qəbul edilir. Müəllifin fikrincə, bu amil Azərbaycan və Ermənistan arasında sülh prosesinin gedişinə mənfi təsir göstərməkdə davam edir.

Nürnberq məhkəməsində SSRİ-dən olan tərcüməçilərdən biri Ələsgər Məmmədovun ifadəsinə əsaslanan məqalə böyük maraq doğurur. O, sonralar görkəmli şərqşünas və almanşünas alim, Azərbaycan ərəbşünaslığının banisi olub.




Jurnalın tarix mövzusu Rusiya imperiyasına mühacirət etmiş və Şuşada yaşamış Qacarlar sülaləsinin şahzadəsi, azərbaycanəsilli Bəhmən Mirzə haqqında məqalə ilə davam edir. Onun əsərləri bölgənin tarixinə və Şərq mədəniyyətinə dair mühüm mənbədir.

Qədim dövrlərdə Azərbaycan əhalisi arasında geyim bəzəkləri haqqında məqalə də xüsusi maraq doğurur. Bu elementlər estetik dəyəri ilə yanaşı, xalqın inanclarını, mənəvi dünyasını əks etdirir, eyni zamanda Azərbaycanın Roma imperiyası və digər dövlətlərlə mədəni və ticarət əlaqələrindən xəbər verir.

Əvvəlki nömrələrdə olduğu kimi, bu buraxılışda da jurnalın ənənəvi bölmələri də daxil olmaqla Azərbaycan tarixinin, mədəniyyətinin və incəsənətinin müxtəlif aspektlərini əhatə edən materiallar dərc olunub.

*Fəridə ABDULLAYEVA,*
*AZƏRTAC-ın xüsusi müxbiri,*
*Moskva*

# Milli Kitabxanada Aprel döyüşlərinə həsr edilmiş sərgi hazırlanıb

**Milli Kitabxanada "Aprel döyüşləri - böyük zəfərin başlanğıcı" adlı virtual sərgi və eyniadlı ənənəvi geniş kitab sərgisi istifadəçilərə təqdim olunub.**

Kitabxanadan bildirilib ki, sərgilərdə Aprel döyüşlərində Lələtəpə, Talış yüksəklikləri və digər bir sıra mühüm strateji yüksəkliklərin işğaldan azad edilməsindən, bu döyüşlərin canlı şahidləri - qazilərlə, iştirakçı olmuş kəşfiyyatçılarla müsahibələr, Vətən müharibəsi, şanlı qələbə, tarixi Zəfərimizin əldə olunmasında Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən hərbi və siyasi strategiyasından, Azərbaycan əsgərinin əfsanəvi qəhrəmanlıqlarından, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin döyüş yolundan bəhs edən Azərbaycan və müxtəlif dillərdə kitablar, dövri mətbuat məqalələri, fotolar nümayiş olunur.



## "Böyük qayıdış"
proqramı sürətlə icra olunur



# Daha 28 ailə Sarıcalıya qayıtdı

**Otuz ilə yaxın erməni vandallığına məruz qalaraq xarabalığa çevrilmiş Qarabağ və Şərqi Zəngəzur yeni dövrünə qədəm qoyub. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində azadlığına qovuşmuş digər ərazilər kimi, Ağdam rayonuna da həyat yenidən qayıdır, uzun illər yurd həsrəti çəkən ağdamlılar tədricən torpaqlarına qovuşurlar.**

Ağdam rayonunun bərpa edilmiş birinci kəndi - Sarıcalıda tikintinin ilk mərhələsi artıq yekunlaşıb. Dünən daha 28 ailənin, 110 nəfərin kənddə daimi məskunlaşması təmin edilib. Bununla Sarıcalı sakinlərinin sayı 146 nəfərə çatıb. Kəndə birinci mərhələ üzrə 895 nəfərin (203 ailə) köçürülməsi planlaşdırılır.

Təməli 2022-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulan Sarıcalı kəndi 1873 nəfər (425 ailə) əhalinin yaşayışı üçün planlaşdırılıb. Layihələndirilən ümumi ərazi 123 hektardan çoxdur. Ümumilikdə kənddə 2 mərhələ üzrə 425 fərdi evin inşası nəzərdə tutulub. Artıq 203 fərdi ev inşa olunub. Evlərin 63-ü iki, 91-i üç, 45-i dörd, 4-ü isə beşotaqlıdır. Məskunlaşdırılacaq əhalinin gələcək sayı nəzərə alınaraq, kəndin salınmasının birinci mərhələsi üçün 54 hektar torpaq sahəsi ayrılıb.

Sarıcalıda yaşayış evləri ilə yanaşı, bütün sosial infrastruktur da qurulub, təhsil, iqtisadi, sosial və məişət təyinatlı müxtəlif müəssisələr, o cümlədən klub-icma mərkəzi, çoxfunksiyalı inzibati bina, bazar kompleksi, ticarət və məişət xidməti obyektləri, tam orta məktəb, körpələr evi-uşaq bağçası tikilib. Kənddə inşa edilmiş bütün qeyri-yaşayış binalarının, o cümlədən inzibati binanın damında günəş panelləri quraşdırılıb. Bu panellər vasitəsilə binaların elektrik enerjisinə ehtiyacları təmin ediləcək. Burada sosial məsələlər də öz həllini tapıb. Kənddaxili yollar, elektrik, rabitə, su xətləri çəkilib, qaz təchizatı təmin olunub.

Kənddə inşa edilmiş çoxfunksiyalı inzibati binada bir sıra qurumlar fəaliyyət göstərəcək. Bu isə öz növbəsində əhaliyə göstəriləcək xidmətlərin vahid məkandan təqdim olunmasına və vətəndaş məmnunluğunun təmin edilməsinə imkan yaradacaq.









Sarıcalıda uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili, onların vətənpərvər, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində də mühüm addımlar atılıb. Bunun bariz nümunəsi isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə martın 27-də açılışı olan Ağdam rayon Sarıcalı kənd körpələr evi-uşaq bağçasıdır. Müasir standartlara uyğun inşa edilmiş 100 yerlik körpələr evi-uşaq bağçasında azyaşlıların təlim-tərbiyəsi və onların sağlam mühitdə yetişmələri üçün hər cür şərait yaradılıb. Burada balacaların ilk yaşlarından intellektual, fiziki və əqli inkişafının təmin edilməsi, onların istedad və qabiliyyətlərinin üzə çıxarılması, sağlamlıqlarının qorunması, insanlarla ünsiyyətin qurulması kimi meyarlara xüsusi diqqət yetiriləcək.

Bu ilin sonuna qədər Ağdamın Kəngərli və Xıdırlı kəndlərinə də qayıdış nəzərdə tutulub. Hazırda inşaat işlərinin getdiyi bu kəndlər sürətlə yenidən qurulur.

Qürurla deyə bilərik ki, Zəfərdən qısa müddət keçməsinə baxmayaraq, dədə-baba torpaqlarına qovuşan insanların sayı artıq 12144 nəfərə (3042 ailə) çatıb, 5 şəhər və 8 kənd olmaqla 13 yaşayış məntəqəsində həyat axarına qayıdıb. İndiyədək 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 512 ailə (2293 nəfər) Cəbrayıl şəhərində, Xocalı rayonunun Ballıca kəndində 136 ailə (660 nəfər), Ağdərə rayonunun Həsənriz kəndində 50 ailə (166 nəfər), Ağdərə rayonunun Suqovuşan kəndində 20 ailə (54 nəfər), Ağdam rayonunun Sarıcalı kəndində 37 ailə (146 nəfər) məskunlaşıb.

Böyük qayıdışın birinci mərhələsi bitənədək Qarabağ və Şərqi Zəngəzurda 34 min 500 ailənin məskunlaşması nəzərdə tutulub. Qüdrətli dövlətimiz tərəfindən həyata keçirilən məqsədyönlü və genişmiqyaslı quruculuq işlərinə nəzər yetirib əminliklə deyə bilərik ki, keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışı ilə bağlı qarşıya qoyulan hədəflər uğurla gerçəkləşdiriləcək.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Keçmiş məcburi köçkün: "Əminəm ki, Ağdam öz əzəmətinə yenidən qayıdacaq"

**"Gedirəm gözəl Ağdamıma. "Gəzməyə qərib ölkə, ölməyə vətən yaxşı". Əminəm ki, yaxın gələcəkdə Ağdam öz əzəmətinə yenidən qayıdacaq. Biz bunun üçün çalışmalıyıq".**

AZƏRTAC xəbər verir ki, bu sözləri Ağdam rayonunun yenidən qurulan Sarıcalı kəndinə köç edən keçmiş məcburi köçkün Şəhla Əliyeva deyib.

30 ildən çoxdur bu günü gözlədiyini bildirən Ağdam sakini qayıdış ümidinin bir gün belə olsun sönmədiyini vurğulayıb.

"Həmişə bu arzu ilə yaşamışıq. Sarıcalıya getməyi, orada yeni həyata başlamağı, doğmalarımızla yenidən birgə yaşamağı diləmişik. Şükürlər olsun ki, bir neçə nəfərlə çıxdığım Ağdama bu gün böyük ailə olaraq qayıdıram".

Ş.Əliyeva, həmçinin torpaqlarımızı işğaldan azad edən Ali Baş Komandan İlham Əliyevə və rəşadətli Azərbaycan Ordusuna minnətdarlığını ifadə edib, ölkəmizin azadlığı və suverenliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyib.

# Qərbi azərbaycanlılar tarixi torpaqlarına qayıdacaqlar

**Son dövrlərdə Qərbi Azərbaycan məsələsi ilə bağlı aparılan dinləmələr artıq bir ənənəyə çevrilib. Görünən odur ki, bu proses yalnız Azərbaycanın daxili məsələsi olmaqla kifayətlənilməyib, dünya miqyasında da müzakirə edilən mühüm mövzu olub. Xatırladaq ki, Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə mütəmadi olaraq keçirilən görüş və tədbirlərdən əlavə ötən dövrdə parlamentdə Qərbi Azərbaycana qayıdışla bağlı müxtəlif komitələr tərəfindən beş, Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu tərəfindən bir ictimai dinləmə keçirilib.**

Martın 10-da Milli Məclisdə "Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu" mövzusunda növbəti dinləmə keçirilib. Tədbirdə Milli Məclisin deputatları, Prezident Administrasiyasının, parlament Aparatının nümayəndələri, Qərbi Azərbaycan İcmasının üzvləri, aidiyyəti dövlət qurumlarının, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və digər şəxslər iştirak edirdilər.

Dinləmənin ana xəttini Qərbi Azərbaycana dinc yolla və ləyaqətli şəkildə qayıdış işində QHT-lərin üzərinə düşən vəzifələr, xalq diplomatiyasında onların iştirakı, təcrübəli QHT-lərin beynəlxalq əməkdaşlığının gücləndirilməsi kimi məsələlər barədə fikirlər təşkil edirdi. Bu kimi dinləmələrin iştirakçısı olmuş politoloq və ekspertlərin fikrincə, bu sahədə QHT-lərin rolu xüsusilə önəmlidir. Çünki onların fəaliyyəti məsələnin qlobal səviyyədə daha yaxşı başa düşülməsini və müvafiq tədbirlərin görülməsini təmin edir. Bu mənada martın birinci ongünlüyünün sonunda Milli Məclisdə "Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu" mövzusuna həsr edilən dinləmələr ictimai rəydə məmnunluq doğurmuşdur.

Tədbirdə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa çıxışında mövzunun aktuallığını yüksək dəyərləndirib. O, bu ilin fevralında Milli Məclisin təşkilatçılığı ilə Bakıda keçirilən Asiya Parlament Assambleyasının yekununda qəbul edilən Bakı Bəyannaməsində Qərbi Azərbaycandan olan soydaşlarımızın öz yurdlarına ləyaqətli qayıdışının həyata keçirilməsi ilə bağlı müddəaların öz əksini tapmasının əhəmiyyətini diqqətə çatdırıb. Qeyd edilib ki, bu kimi bəyannamələr Ermənistandan qovulmuş azərbaycanlıların tarixi torpaqlarına dinc və ləyaqətli qayıdışı konsepsiyasının beynəlxalq platformalarda tanınması soydaşlarımızın hüquqlarının bərpası və ata-baba yurdlarına dönmələri prosesinə böyük təkan verir. Deputatın fikrincə, bu işin davam etdirilməsi üçün vətəndaş cəmiyyəti institutlarının prosesə daha fəal cəlb edilməsi, o cümlədən parlamentlərarası platformalarda daha fəal olmaq üçün QHT-lərlə əməkdaşlıq intensiv şəkildə inkişaf etdirilməlidir.

"Qərbi Azərbaycan məsələsi barədə əhalimizdə ətraflı məlumatlar mövcuddur və bu, bizim uğurlu fəaliyyətimizin nəticəsidir. Ancaq qarşıda hələ daha çox iş var. Hazırda deputatlar olaraq bizim əsas vəzifəmiz bütün bu məsələləri beynəlxalq ictimaiyyətə çatdırmaqdır. Biz o torpaqlara mütləq şəkildə qayıdacağıq. Həmin torpaqların Azərbaycanın əraziləri olduğunu dünyaya bəyan etməliyik", - deyən Milli Məclisin Səhiyyə komitəsinin sədri, Qərbi Azərbaycan İcmasının Ağsaqqallar Şurasının sədri Əhliman Əmiraslanov daha sonra bildirib ki, hər bir qurumun bu istiqamətdə birgə fəaliyyət göstərməsi son dərəcə vacibdir. Yalnız kollektiv şəkildə işləyərək məsələnin əhəmiyyətini bütün dünyaya anlatmaq mümkündür.

Bu mümkünlüyün xalqımızın haqlı tələbi olduğunu öz bəyanatlarında dünyanın tərəqqipərvər dövlətlərinə, insan hüquqları müdafiəsi ilə məşğul olan beynəlxalq və qeyri-hökumət təşkilatlarına dəfələrlə bəyan edən Qərbi Azərbaycan İcmasının məqsəd və məramı Qərbi Azərbaycandan olan qaçqınların beynəlxalq hüququn tələbləri çərçivəsində ləyaqətli şəkildə öz doğma yurdlarına qayıdışına şərait yaradılmasına, habelə 44 günlük Vətən müharibəsindən sonra Ermənistanın sülh prosesinə maneə törədən destruktiv hərəkətlərdən çəkinməsinə nail olmaqdır.

Dünya ictimaiyyətinə yaxşı məlumdur ki, Ermənistanda Azərbaycana qarşı təxribatlar səngimək bilmir. Bu kimi təxribatlardan biri yaxın günlərdə ortaya çıxıb. Özünü "parlament" kimi təqdim edən bir ovuc şəxsin xarici ölkələrin birinin parlamentinə anti-Azərbaycan məzmunlu müraciəti, Azərbaycana qarşı iş aparan hansısa "komissiya"nın iclası barədə məlumatlar yayılıb.

Bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilir ki, Ermənistanın onun suverenliyinə qarşı heç bir addım atmayan, yalnız dinc yolla öz dədə-baba yurdlarına qayıtmaq istəyən Qərbi Azərbaycan İcması ilə dialoqdan imtina edib öz ərazisində Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini təhdid edən qrupların fəaliyyətinə şərait yaratması qəbulolunmazdır.

Bütün bunlar bir daha Ermənistanın dayanıqlı sülhdə maraqlı olmadığını, əksinə, silahlanma siyasətini davam etdirərək regionda gərginlik yaratmağa can atdığını nümayiş etdirir.

Əvvəlki bəyanatlarında olduğu kimi, bu bəyanatında da Qərbi Azərbaycan İcması Ermənistanı sülh prosesinə maneə törədən destruktiv hərəkətlərdən çəkinməyə çağırır.

Azərbaycan xalqının başına gətirilən faciələr həm də beynəlxalq miqyasda ciddi narahatlıq doğurub. Son iki yüz ildə Ermənistan və onun havadarları Azərbaycanda və Cənubi Qafqazda azərbaycanlılara qarşı genişmiqyaslı soyqırımı, deportasiya və etnik təmizləmə siyasəti həyata keçiriblər. Bu dövr ərzində Azərbaycan xalqının başına gətirilən faciələr yalnız regional deyil, həm də beynəlxalq miqyasda ciddi narahatlıq doğurub. 2020-ci il sentyabrın 27-də başlayan müharibə 200 ildən artıq davam edən ədalətsiz siyasətin sona yetməsi üçün əhəmiyyətli bir dönəm oldu. Azərbaycan xalqı əsrlər boyu qarşılaşdığı zülm və təzyiqlərə son qoymaq üçün mühüm bir mərhələ keçdi.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Milli Məclisdə "Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu" mövzusuna həsr edilən dinləmələrdəki çıxışında vurğulayıb ki, ermənilərin və onların dəstəkçilərinin yürütdükləri bu siyasət haqqında məlumatların uzun illər boyu gizlədilməsi, xüsusilə də yeni nəsillərin bu hadisələrdən məlumatlı olmaması ciddi problemə çevrilmişdi. "Lakin Azərbaycan Prezidenti İlham Əliyevin 2022-ci il dekabrın 24-dəki çıxışından sonra ölkə rəhbərliyi yeni ideologiyanın formalaşması və haqqın bərpa edilməsi istiqamətində ciddi addımlar atıb. Prezidentin çıxışı xalqımızın və dövlətimizin yeni ideyasının təməlini qoyub. Bu ideya yalnız dövlət orqanları tərəfindən deyil, həm də QHT-lər tərəfindən də dəstəklənməli və geniş şəkildə yayılmalıdır. QHT-lərin bu məsələlərə diqqət yetirməsi tariximizin doğru şəkildə təqdim edilməsi və gələcək nəsillərə bu faciələrdən dərs alınması üçün mühüm rol oynayacaq. Bu, Azərbaycanın milli maraqları və tarixinin qorunması baxımından həyati əhəmiyyət daşıyan məsələdir", - deyə Ə.Ələkbərli əlavə edib.

Tarixi faktlar və rəsmi sənədlər sübut edir ki, XIX əsrin əvvəllərində Cənubi Qafqazda Azərbaycan torpaqlarına köçürülüb gətirilən ermənilərin bu ərazilərdəki həmin tarixəqədərki hər hansı mədəni irs nümunəsinə bu və ya digər şəkildə iddiasının heç bir əsası yoxdur.

İndi Azərbaycan təkcə işğaldan azad edilmiş torpaqlara Böyük qayıdışı təmin etmir, eyni zamanda sonuncu deportasiya zamanı Qərbi Azərbaycandan qaçqın düşən soydaşlarımızın pozulan hüquqlarının müdafiəsi istiqamətində də mühüm işlər görür.

Təbii ki, bu yolda alim və ziyalılarımızın üzərinə də böyük vəzifələr düşür. Bu vəzifə ilk növbədə Qərbi Azərbaycan həqiqətlərini ortaya qoymaqdan, erməni saxtakarlıqlarını sona qədər ifşa etməkdən və dünya ictimaiyyətinə çatdırmaqdan ibarətdir.

Son zamanlar tədqiqatçılarımızın İrəvan şəhərində azərbaycanlıların izlərini özündə yaşadan Təpəbaşı yaşayış massivi ilə bağlı ortaya çıxardığı faktlar, Ermənistan dövlətinin bu ərazidəki məscid və tarixi tikililəri yox etmək planları ilə əlaqədar çaldıqları həyəcan təbili bir daha sübut etdi ki, ermənilərin bölgədə Azərbaycanın mədəni irsini yer üzündən silmək siyasəti bu gün də davam edir. Çox təəssüf ki, Azərbaycan alim və ziyalılarının, Qərbi Azərbaycan İcmasının bu məsələ ilə bağlı UNESCO və digər beynəlxalq təşkilatlara ünvanladığı müraciətlər hələ də nəticəsiz qalmaqdadır.

Ermənistanın 1987-ci ildə Qafan rayonunda azərbaycanlılara qarşı törətdiyi zorakılıq ilə başlayaraq, otuz ildən artıq davam etmiş Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan Respublikasına kütləvi miqdarda ziyan vurulmuş və azərbaycanlılar böyük müsibətlərə düçar olmuşlar.

Azərbaycan Respublikasının öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi ilə münaqişə arxada qalmış və bölgədə davamlı sülhün və ədalətin bərqərar olması üçün imkan yaranmışdır. Məhz Azərbaycan Respublikasının təşəbbüsü ilə iki dövlət arasında bu məsələlər üzrə siyasi proses başlamışdır.

Bu günlərdə xəbər verildiyi kimi, münasibətlərin qaydaya salınması üzrə çoxsaylı mövzuların bir qismini əhatə edən saziş layihəsi üzrə danışıqlarda Ermənistan Azərbaycanın açıq qalan iki maddəsi üzrə təkliflərini qəbul etmişdir. Lakin bu, kifayət deyil və Ermənistan tərəfi qalıcı sülhün və ədalətin bərqərar olunması üçün digər məsələlər üzrə də öz üzərinə düşəni etməlidir. Bunların sırasına qərbi azərbaycanlıların öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmasına şərait yaratmaq, maneəsiz tranzit öhdəliyini yerinə yetirmək, Azərbaycana qarşı ərazi iddialarını öz konstitusiyası və qanunlarından çıxarmaq, ATƏT-in Minsk qrupunun ləğv olunması üçün müraciət göndərmək, Azərbaycan ərazilərini işğal etməsinə, ona kütləvi miqdarda zərər vurmasına və azərbaycanlılara qarşı zorakılıq törətməsinə görə məsuliyyətini etiraf etmək, təzminat ödəmək, öz ərazisində qondarma rejimin bütün "təsisatları"nı ləğv etmək, hərbi canilərin qəhrəmanlaşdırılmasına son qoymaq, silahlanma proqramını dayandırmaq və aldığı silahları geri qaytarmaq daxildir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Sülhə qarşı cinayətkar mövqeli "axsaq ördək"

### Nikola Düpon-Enyan: "Makron Fransa vətəndaşlarının cibinə girir"

**Makronun Fransanın saysız-hesabsız daxili problemləri ilə məşğul olmaq əvəzinə bir sıra ölkələrə qarşı aqressiv ritorikası və hətta müəyyən məsələlərlə bağlı çox qəribə mövqeyi sadəcə olaraq diqqəti özünə cəlb etmək istəməsi ilə izah oluna bilər. Belə bir qeyri-adekvat davranışın başqa səbəbləri yoxdur.**



Ötən ay Makron Fransaya və bütün Avropaya "Rusiya təhdidi" ilə bağlı müraciət edib. O, Parisin "təhlükələr dünyası"nda laqeyd tamaşaçı kimi qala bilməyəcəyini vurğulayıb. Makron, həmçinin ABŞ Prezidenti Donald Trampın sülhsevər mövqeyini pisləyib və yüz minlərlə insanı qırıldığı, milyonlarla adamın evlərindən didərgin düşdüyü Rusiya-Ukrayna müharibəsinin davam etməsini dəstəkləyib.

Makron iki dəfə seçildiyi üçün artıq iştirak etməyəcəyi 2027-ci il prezident seçkilərinə cəmi iki il qalıb. Əslində o, artıq "axsaq ördək", səlahiyyət müddəti başa çatan prezidentdir. Makronun reytinqi 2025-ci ilin əvvəlində 21 faizə düşüb, 2018-2019-cu illərdə "sarı jiletlilər"in etiraz hərəkatı zamanı isə tarixi minimuma - 20 faizə çatıb.

Buna görə də, ekstravaqant siyasətçi düşünülməmiş çılğın bəyanatlar səsləndirməklə tarixdə hansısa şəkildə "iz" qoymağa çalışır. İndiyədək onun aqressiv və mənasız sərsəmləmələri Fransa üçün heç bir müsbət nəticə verməyib.

Bu günlərdə "Vətənpərvərlər" Partiyasının lideri Florian Filippo Fransa prezidentinin müraciətini sərt şəkildə tənqid edib. Siyasətçi qeyd edib ki, Makron müharibə kursuna haqq qazandırmaq üçün fransızları "Rusiya təhlükəsi" ilə qorxutmağa çalışır.

Filippo Makronun Ukraynaya qoşun yeritmək planının "sülhə qarşı cinayət" olduğunu və bununla da vəziyyəti uzun müddət daha da pisləşdirəcəyini bildirib. "Makronun impiçmenti labüddür. O, müharibə tərəfdarıdır. O, Fransanı deyil, Aİ-ni istəyir. O, çox təhlükəlidir" deyən Filippo "X" sosial şəbəkəsində yazıb.

Öz növbəsində, "Qalx, Fransa!" Partiyasının lideri Nikola Düpon-Enyan bildirib ki, Fransa üçün əsl təhlükə Rusiya deyil, müdafiə xərclərinin artması səbəbindən iflasa uğramasıdır: "Fransa prezidenti Emmanuel Makron vəzifəsini tərk etməlidir. O, hakimiyyətdə qalmaq və Fransa vətəndaşlarının cibinə girmək üçün yalançı Rusiya təhlükəsi yaradır. Makronun vəzifədən uzaqlaşdırılması həyati zərurətdir".

Bir müddət əvvəl Rusiya Təhlükəsizlik Şurasının üzvü Dmitri Medvedev Rusiyanı təhdid adlandıran Makrona cavab verib: "Makron bildirib ki, Rusiya indi və uzun illər ərzində Fransa və ümumilikdə Avropa üçün təhlükəyə çevrilib. "Makron" özü isə böyük təhlükə yaratmır. O, 2027-ci il mayın 14-dən gec olmayaraq həmişəlik yoxa çıxacaq. Və onun üçün darıxan olmayacaq".

Ekspertlərin fikrincə, Fransanın xüsusilə yeni tipli müharibə şəraitində döyüşdə real təcrübəsi yoxdur. Makron ordusunun effektivliyi haqqında istədiyi qədər danışa bilər, amma əslində o, bir neçə həftə ərzində sadəcə olaraq döyüş meydanında məhv ediləcək.

Fransanın pulu yoxdur, parlamentdə çoxluq koalisiyası mövcud deyil, büdcə Milli Assambleyadan dolayı qəbul edilib və böyük kəsir var. Ölkə böyük daxili problemlərlə, o cümlədən miqrasiya böhranı ilə üzləşib.

Məhz bu səbəblərdən, Fransadakı aktual problemlərə məhəl qoymayan Makronun bu qədər aşağı reytinqə malik olması təəccüblü deyil. Fransız seçiciləri artıq ondan beziblər - Makron istədiyi qədər boşboğazlıq edə bilər, amma indi ona inananların sayı çox azdır.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

## Fransa insanlığa sığmayan nümunə ortaya qoyur

### Kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz bu ölkə tərəfindən törədilib

**"Azərbaycan müstəmləkəçiliyə və neokolonializmə qarşı mübarizə aparan xalqları dəstəkləyir. Dövlətimiz bu mövqeyini bütün beynəlxalq platformalarda bəyan edib".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. O, Bakı Təşəbbüs Qrupunun yaradılmasının da bu məqsədə xidmət etdiyini bildirib. Deputat xatırladıb ki, BTQ Qoşulmama Hərəkatının 2023-cü il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu ölkəmizdə, eləcə də xaricdə, o cümlədən BMT müstəvisində həmin xalqların hüquqları ilə bağlı silsilə beynəlxalq konfrans təşkil edib. Növbəti beynəlxalq konfrans isə martın 29-da Bakıda "Kolonializm: dini-milli kimliyin silinməsi" mövzusunda keçirilib. Konfransda Fransa və Niderlandın müstəmləkə nəzarətində saxladığı ərazilərdən - Qvadelupa, Fransız Qvianası, Kanaki (Yeni Kaledoniya), Korsika, Martinik, Reyunyon, Boneyr, Fransız Polineziyası, Mayot, eləcə də Valis və Futunadan müstəqillik hərəkatlarının liderləri və nümayəndə heyətləri, siyasi məhbus ailələri iştirak ediblər.

S.Fətəliyevanın sözlərinə görə, kolonializm siyasətinin fəsadlarını müxtəlif aspektlərdən nəzərdən keçirmək olar: "Mənfi nəticələr yalnız asılı ölkələrin suverenliyinin məhdudlaşmasında, yeraltı və yerüstü sərvətlərinin talanmasında müşahidə edilmir. Fundamental insan hüquqlarının tapdanması müasir dövr müstəmləkəçiliyinin ən ağır təzahürüdür. Təzad bundan ibarətdir ki, müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin fundamental prinsipləri kimi bəyan ediblər. Ancaq həmin ölkələr Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, ümumiyyətlə, məhəl qoymurlar. Neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur".

Deputat qeyd edib ki, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Fransanın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla insan bu ölkənin qul siyasətinin qurbanı olub. Xüsusilə, Fransa öz əsarətində saxladığı xalqların suverenliyinin məhdudlaşması, yeraltı və yerüstü sərvətlərinin talanması ilə yanaşı, fundamental insan hüquqlarının tapdanmasını ən ağır təzahürlər kimi adiləşdirərək dövlət siyasətinə çevirib. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində, o cümlədən, Afrikada yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir. Fransız imperiyası əsrlər boyu Karib dənizi, Sakit okean və Afrikada geniş müstəmləkələr yaradıb və bu ərazilərdə öz idarəçiliyini gücləndirib. "Azərbaycan Fransa müstəmləkəçiliyindən əziyyət çəkən xalqlara siyasi və mənəvi dəstək verir. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən beynəlxalq konfranslar rəsmi Parisin müstəmləkə siyasətinin dünyada ifşa olunması baxımından böyük əhəmiyyət kəsb edir. Beynəlxalq ictimaiyyət də həmin xalqların azadlıq mübarizəsinə dəstək verməli, Fransanın beynəlxalq hüququ heçə sayan siyasətinə qarşı səssiz qalmamalıdır", - deyə siyasətçi əlavə edib.



*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Fransa hazırda tarixinin ən miskin dövrünü yaşayır

**Fransa əsrlərdir ki, müstəmləkəçilik siyasətindən əl çəkmir. Yüz illər öncə olduğu kimi, yenə də sərhədlərindən min kilometrlərlə uzaqda yerləşən neçə-neçə ölkədə ağalıq iddasındadır. Müstəmləkə altında saxladığı Yeni Kaledoniyada, Afrikada, Fransa Polineziyasında, Mayotda, Korsikada və başqa ölkələrdə xalqları öz müqəddəratlarını həll etməyə, azad ömür sürməyə qoymur.**




Həmin ölkələrin yerli sakinlərinin artıq boyunduruq altında yaşamaq istəməmələri, öz haqlarını tələb etmələri, ölkələrinin müstəqilliyinə çalışmaları rəsmi Parisi təşvişə salır. Çünki bilirlər ki, Fransa hökumətinin zülmlərindən, işgəncələrindən cana doymuş xalqların gündən-günə güclənən və daha qətiyyətlə səslənən etirazları bu ölkənin müstəmləkəçilik siyasətinin sona çatmaqda olduğunu göstərir. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə ötən həftə ölkəmizdə keçirilən "Kolonializm: Dini-Milli Kimliyin Silinməsi" adlı beynəlxalq konfransda səsləndirilən fikirlər buna bariz nümunə oldu.

Beynəlxalq konfransda çıxış edən "Yeni Kaledoniya Sakit Okean İcmaları və Mədəniyyətləri Evi" (NCMCP) assosiasiyasının prezidenti Mariya İzabella Saliqa bildirdi ki, Fransanın müstəmləkəçilik siyasəti nəticəsində xalqların milli-mənəvi dəyərləri və adət-ənənələri məhv olmaq ərəfəsindədir: "Bu siyasət xalqların tarixində ağır yaralara yol açıb". O vurğuladı ki, müstəmləkəçilik əzilən xalqların təkcə adət-ənənələrini deyil, eyni zamanda mədəniyyətlərini məhv edir: "Biz zorakılıqla Fransanın bir hissəsi olduq və bu alçaqlıqların, sərvət oğurlanmasının, dərman bitkiləri haqqında biliklərin məhv edilməsinin və müstəmləkəçiliyin maraqlarına xidmət edən çirklənmə və iqtisadi inkişaf yolu ilə manipulyasiyaların ağır yükünü hələ də daşıyırıq". Mariya İzabella Saliqa qeyd etdi ki, Fransa öz keçmiş müstəmləkələri üzərində tam nəzarət istəyindən heç vaxt əl çəkməyib, bu xalqları tabeliyində saxlamağa çalışır. NCMCP assosiasiyasının prezidenti bu gün Fransa müstəmləkəçiliyindən əziyyət çəkən xalqlar arasında siyasi şüurun canlanmasının müşahidə olunduğunu diqqətə çatdırdı. Öz müqəddəratını təyinetmə və iqtisadi müstəqillik uğrunda hərəkatların yarandığını və bir çox ərazilərin, o cümlədən Afrika ölkələrinin fransız zülmündən xilas olmağa çalışdığını söylədi.

Kanakların nümayəndəsi Adue Kristelle sözügedən tədbirdə bəyan etdi: "Məqsədimiz Kanakda olan siyasi məhbusların azadlığa çıxmasına nail olmaqdan ibarətdir". O, Fransanın kolonial siyasəti nəticəsində kanakların sayının 1980-ci ildən başlayaraq 40 faiz azaldığını dedi: "Siyasi mübarizədə iştirak edən 3500 nəfər həbs edilərək türmələrdə öldürülüb. Fransa hökuməti Kanak xalqının təhsilini, dilini, dinini hər addımda məhdudlaşdırır. Xalqımız təhdid və təzyiqlərə məruz qalır. Kanak xalqını qorxudub, onu müstəqillik yolundan döndərməyə çalışırlar. Lakin Kanak xalqı Fransanın müstəmləkə siyasətinə qarşı mübarizəsini davam etdirəcək, müstəqillik yolundan dönməyəcək".

Korsikalı nümayəndə Fransua Benedett çıxışında nəzərə çatdırdı ki, Fransanın müstəmləkəçilik siyasəti nəticəsində Korsika xalqı yox olmaq ərəfəsindədir. Hərbi yolla ələ keçirilən Korsika adası tarixin bütün mərhələlərində Fransanın təzyiqinə məruz qalıb. Demokratiya və azadlıqdan danışaraq bu dəyərləri özünün prioritet siyasəti hesab edən rəsmi Paris korsikalılara qarşı hər zaman amansız davranıb. O bildirdi ki, korsikalılar Fransanın həyata keçirdiyi müstəmləkəçilik siyasəti ilə heç vaxt barışmayacaqlar.

"Yeni Kaledoniya Sakit Okean İcmaları və Mədəniyyətləri Evi" (NCMCP) assosiasiyasının katibi Yevgeniy Tetuanui bildirdi: "Biz Fransa diktaturasına "yox" deməli, axmaq, narsist davranışlarla mübarizə aparmalıyıq. Hər birimiz təhdidlə üz-üzəyik. Makronun siyasi mövqeyinə qarşı çıxmalıyıq. Bakı bizə imkan verir ki, səsimiz eşidilsin. Dənizaşırı ölkələr eyni gündə müstəqilliklərini elan edərək müstəmləkədən qurtula bilərlər. Biz hazırda ölümlə üz-üzəyik".

Kanak xalqının nümayəndəsi, keçmiş siyasi məhbus Jan Batis diqqətə çatdırdı ki, 2024-cü il mayın 13-də Fransa hökuməti kanakların haqlı tələblərinə qarşı polis zorakılığı ilə çıxdı: "Nümayişdə iştirak edən çoxsaylı insanlar qətlə yetirildi. Bu hadisələrdən sonra xalqın qəzəbi daha da artıb. Kanaklar müstəqillik uğrunda mübarizəsini davam etdirəcəklər. Biz gələcək nəsillərə də mübarizə aparmaları üçün tariximizi və bu gün haqsızlığa məruz qalmağımız barədə məlumatlar çatdıracağıq".

Beynəlxalq konfransın "Müstəqillik uğrunda mübarizədə milli kimlik" adlı panel iclasında çıxış edən Fransız Qvianasının Dekolonizasiya və Sosial Emansipasiya Hərəkatının (MDES) fəalı xanım Dominik Monte Fransanın Qvianada təhsil sistemini tamamilə müstəmləkə siyasətinə uyğun quraraq xalqın assimilyasiyasına nail olmağa çalışdığını, məktəblərdə dərslərin yalnız fransız dilində keçirildiyini, uşaqlara yalnız Fransa tarixi və mədəniyyətinin öyrədildiyini diqqətə çatdırdı. Bildirdi ki, Fransa müstəmləkə siyasəti yürütməklə Fransız Qvianasında yaşayan xalqın təkcə təbii sərvətlərini deyil, milli təhsilini, mənəvi dəyərlərini, adət-ənənələrini də məhvə məhkum edib. Fransız Qvianasının siyasi fəalı milli kimliyin unutdurulmasının son nəticədə xalqın tarix səhnəsindən silinməsinə gətirib çıxaracağını nəzərə çatdırdı. Artıq yerli xalqın öz hüquqları uğrunda mübarizəyə başladığını və Fransa hökuməti qarşısında konkret tələblərlə çıxış etdiyini, Fransız Qvianasında milli özünüdərk prosesinin sürətləndiyini, gələcəkdə müstəqillik uğrunda mübarizənin daha da güclənəcəyini bəyan etdi.

Göründüyü kimi, Fransa hökuməti bu gün dənizaşırı əraziləri idarə etmək, təbii sərvətlərini talamaq üçün bütün vasitələrdən istifadə edir. Amma bütün həmlələrinə müstəmləkəsi altında olan xalqlar qətiyyətlə, əzmlə cavab verir, rəsmi Parisin əsl simasını dünyaya göstərirlər.

Emmanuel Makron hökuməti baş verənlərdən ibrət dərsi almır, beynəlxalq hüquq çərçivəsini aşan, ədalətsiz, qərəzli qərarları ilə Fransanın dünyadakı siyasi mövqelərini zəiflətməkdə, nüfuzdan salmaqda davam edir.

Dünyaya demokratiya dərsi keçməyə cəhd edən Fransa indi tarixinin ən miskin dövrünü yaşayır. Prezident Emmanuel Makron öz yarıtmaz siyasəti ilə Fransanı dalana dirəyib. Ölkənin daxilində vəziyyətin ürəkaçan olmadığı, xaricində israrla uzun illərdir ki, yürüdülən müstəmləkəçilik siyasətinin çökdüyü bir vaxtda rəsmi Paris bəd əməllərindən, məkrli niyyətindən əl çəkmək əvəzinə yeni münaqişə ocaqları yaratmağa səy göstərir. Cənubi Qafqazda sülhün, sabitliyin möhkəmlənməkdə olduğunu gördükcə yenidən suyu bulandırmağın, aranı qarışdırmağın yollarını axtarır. Bəllidir ki, bu ölkə Ermənistana canı yandığı üçün silah-sursatla təmin etmir. Əksinə, rəsmi İrəvanı sülh sazişini imzalamaqdan çəkindirməklə, müharibəyə həvəsləndirməklə Ermənistanı çıxılmaz vəziyyətə yönəldir, məhvə sürükləyir. Çünki Emmanuel Makron hökumətini düşündürən Ermənistanın müqəddəratı deyil, Fransanın Cənubi Qafqazla bağlı olan istəkləri, maraqlarıdır.

Təəssüf ki, Nikol Paşinyan hökuməti bir çox məqamlarda rəsmi Fransanın məkrli oyunlarına aludə olur. Ancaq Cənubi Qafqazın lider dövləti, məramı, məqsədi yalnız sülh olan və bu yolda qətiyyətlə addımlayan Azərbaycan istər Fransanın, istərsə də Ermənistanın çirkin, mənfur siyasətini puça çıxarır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Ermənistan sənayesinin "inkişaf"ı sabun köpüyü imiş

**Hazırda məğlub İrəvan böyük problemlərlə üzləşib. Bunun bir səbəbi də son dövrlərdə dünya iqtisadiyyatında yaranan qeyri-müəyyənlik və çətinliklərin digər ölkələrlə müqayisədə Ermənistana daha çox dağıdıcı təsir göstərməsidir. Bu vəziyyətdə sadə vətəndaşların rifah halı daha da pisləşir, ölkədə müşahidə olunan sosial narazılıq artır.**



İndi bu ölkədə insanlar gələcəklərinə nikbin yanaşmır və əvvəlki kimi Ermənistanı tərk etməyə çalışırlar. Yerdə qalanların durumu isə olduqca acınacaqlıdır. Onlar böyük səfalət içində yaşayır, gündəlik ərzaq almağa pul tapmaqda belə çətinlik çəkirlər.

Göründüyü kimi, Ermənistan iqtisadiyyatına xarici təsir azaldıqca, əvvəlki dövrün yüksək iqtisadi artımlarının boşluğu və ölkə iqtisadiyyatının acınacaqlı vəziyyəti üzə çıxır. İlin əvvəlindən ötən iki ayda Ermənistanda sənaye məhsulları istehsalının azalması təxminən 20 faizə çatıb. Yanvarda əvvəlki illə müqayisədə azalma 10,4, fevralda isə təxminən 27 faiz olub.

Bu, ilk növbədə Paşinyan hakimiyyətinin göstəriciləri saxtalaşdırmasının nəticəsidir. Keçən il Ermənistanda olmayan yerdən sənayedə yüksək artımlar qeyd edirdilər. Rus qızılını gətirib Ermənistan istehsalı adı altında öz sənaye məhsulu kimi digər ölkələrə ixrac edirdilər. Bunun sayəsində mövcud olmayan istehsalat hesabına sənayedə yüksək artımlar qeydə alınır və böyük nailiyyət kimi təqdim edilirdi. Paşinyan hakimiyyəti bir köpük şişirdirdi, o isə gözlənildiyi kimi, qısa müddətdən sonra partladı. Bu partlayışın nəticələrini sənaye sektorunun builki göstəricilərində görürük.

Ermənistanın digər sənaye müəssisələri ilə müqayisədə daha yüksək ixrac qabiliyyəti olan dağ-mədən və metallurgiya sənayesində də problemlər mövcuddur. Dünya əlvan metal və metal bazarında qiymətlərin enməsi Ermənistanın qızıl və mis ixracından əldə etdiyi gömrük gəlirlərinin xeyli azalmasına səbəb olub. Bu sahədə fəaliyyət göstərən şirkətlərin çoxu bağlanıb.

Keçən il mütəxəssislər sənaye sektorundakı saxta artımlar barədə danışanda Ermənistan hakimiyyəti özünü müdafiə edərək yeni istehsal gücləri işə salındığını, mövcud istehsalatların həcminin artdığını və yüksək artımların bunun hesabına baş verdiyini deyirdi. Bu il sənayedə ikiqat azalmalar sübut etdi ki, Paşinyan hakimiyyəti heç nə yaratmayıb, heç bir güc artırmayıb. Sadəcə illüziya yaradıb, həm sənaye, həm iqtisadiyyat, həm də xarici ticarət göstəricilərini şişirdərək, rus qızılını Ermənistandan keçirərək erməni məhsulu adı altında ixrac edib.

Cari ilin ilk iki ayında Ermənistandan ixrac 60 faiz azalıb. Ölkədən cəmi 413 milyard dramlıq mal ixrac olunub. Bunların bir hissəsi hələ də yenidən ixracdır ki, bəzi məhsullar, xüsusilə elektronika və texnika şəklində Ermənistan vasitəsilə Rusiya bazarına daxil olmaqda davam edir. Əgər bu da olmasaydı, ixracın düşməsi daha böyük miqyasa çatardı.

Ermənistan iqtisadiyyatının ümidi yalnız tikinti, xidmətlər və daxili ticarətə qalıb. Halbuki daxili ticarətin artım tempi də zəifləyib. Keçən ilin yanvar-fevral aylarında ticarətin artımı 24 faizi keçirdisə, bu il artım tempi 3 dəfə azalaraq cəmi 7,8 faiz təşkil edib. Bütün bunlar isə Ermənistanı qarşıdakı dövrdə daha ciddi problemlərin gözləməsi deməkdir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*



# TARİXİN QAN YADDAŞI



# Bəşər tarixinin ən qanlı faciələrindən biri

**1918-ci ilin mart-aprel soyqırımları öz amansızlığına və miqyasına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı faciələrdən biridir. Əllərinə düşən fürsətdən istifadə edən erməni cəlladları uşaq, qoca, qadın demədən dinc əhalini kütləvi surətdə qətlə yetirmiş, on minlərlə azərbaycanlı ilə yanaşı, minlərlə ləzgi, yəhudi, rus, avar və talış milliyyətinə mənsub insanları qılıncdan, süngüdən keçirərək diri-diri yandırmış, milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və mədəni abidələri dağıtmışlar.**



### Tarixə işıq salan fərman

Erməni soyqırımına qiymət verərkən ilk növbədə Ümummilli Lider Heydər Əliyevin 26 mart 1998-ci il tarixli fərmanına diqqət yetirməliyik. Sözügedən soyqırımı hadisələrinin tarix və hüquq kontekstində dəyərləndirilməsini səciyyələndirən bu fərman ermənilərin Azərbaycanın tarixi ərazilərinə köçürülməsinin əsas təməlini təşkil edən Gülüstan və Türkmənçay müqavilələrinə də qiymət verərək "Böyük Ermənistan" ideyalarının anatomiyasını açmışdır. Fərmanda deyilir: "1813-cü və 1828-ci illərdə imzalanan "Gülüstan" və "Türkmənçay" müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi. İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq, öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyuldu. "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlandı. Bu uydurma dövlətin Azərbaycan torpaqlarında yaradılmasına "bəraət qazandırmaq məqsədilə" erməni xalqının tarixinin saxtalaşdırılmasına yönəlmiş genişmiqyaslı proqramlar reallaşdırıldı. Azərbaycanın və ümumən Qafqazın tarixinin təhrif olunması həmin proqramların mühüm tərkib hissəsini təşkil edir".

"Azərbaycanlıların Soyqırımı Günü" də bu fərmandan sonra rəsmiləşmişdir. Sözügedən fərmanla martın 31-i "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Fərmanda deyilir: "Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisələrin yalnız birinə - 1918-ci il mart soyqırımına siyasi qiymət vermək cəhdi göstərilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırımı hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir".

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1 sentyabr 2000-ci il tarixdə milli qanunvericilik bazasının möhkəmləndirilməsi və təkmilləşdirilməsi istiqamətində aparılan dəyişiklik nəticəsində yeni Cinayət Məcəlləsi qəbul edilmişdir. Yeni Cinayət Məcəlləsinin 103-cü maddəsinə əsasən, hər hansı milli, etnik, irqi və ya dini qrupu, bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə qrup üzvlərini öldürmə, qrup üzvlərinin sağlamlığına ağır zərər vurma və ya onların əqli qabiliyyətinə ciddi zərər vurma, qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraiti yaratma, qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirləri həyata keçirmə, bir qrupa mənsub olan uşaqları zorla başqa qrupa keçirmə soyqırımı cinayəti kimi təsbit edilmişdir.

### Soyqırımı cinayətləri Azərbaycanın əksər ərazilərini əhatə etmişdir

1918-ci ilin 30 mart - 3 aprel tarixlərində Bakı şəhərində, eləcə də Qarabağ, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan, Zəngəzur və digər ərazilərdə Bakı Soveti qoşunları və daşnak erməni silahlı dəstələri 30 mindən çox azərbaycanlını qətlə yetirmiş, 10 minlərlə insanı öz torpaqlarından qovmuşdur.

Mart soyqırımında "Daşnaksütyun" partiyasının iştirakı rəsmi tarixi mənbələrdə öz əksini tapmışdır. Belə ki, 1918-ci il martın 31-də Bakı şəhərində azərbaycanlıların kütləvi qırğınında Bakı Sovetinin 6 min silahlı əsgəri, eyni zamanda "Daşnaksütyun" partiyasının 4 minlik silahlı dəstəsi iştirak etmişdir. Üç gün davam edən qırğın zamanı erməni silahlıları bolşeviklərin köməyi ilə azərbaycanlıların yaşadıqları məhəllələrə qəflətən basqınlar etmiş, uşaqdan böyüyədək hər kəsi qətlə yetirmişlər.

Soyqırımı cinayətləri demək olar ki, Azərbaycanın əksər ərazilərini əhatə etmişdir. Şamaxı və Quba ərazilərində baş vermiş cinayətlər miqyasına görə daha çox kütləvi xarakter daşımışdır. Şamaxının 72 kəndində ermənilər tərəfindən 7 min nəfərin, o cümlədən 1653 qadın və 965 uşağın öldürüldüyü bildirilir. Bu faciənin tədqiqi məqsədilə 1918-ci il iyulun 15-də yaradılmış Fövqəladə İstintaq Komissiyası tərəfindən həmin dövrdə Şamaxı qəzasındakı 120 kəndin 86-nın erməni təcavüzünə məruz qaldığı təsdiqlənmişdir.

Quba qırğınları zamanı şəhərdə öldürülənlərin təxmini sayının 2900-dək, Quba qəzası üzrə ümumilikdə isə 4000 nəfərdən artıq olduğu qeyd olunur. Bu soyqırımı nəticəsində Quba qəzasının 122 kəndi tamamilə dağıdılmış, 2750-dən çox ev tamamilə yandırılmışdır. Tədqiqat zamanı o da məlum olmuşdu ki, ermənilər dinc əhaliyə divan tutan zaman odlu silahdan istifadə etməyiblər. Aşkarlanan kəllə və digər insan sümüklərində güllə yeri yoxdur. Onların hamısı küt alətlərlə öldürülüb. Araşdırmalar göstərir ki, qətlə yetirilmiş insanların baş nahiyəsindən balta ilə vurublar. Sonra xəncərdən istifadə etməklə başı bədəndən ayırıblar. Bəzi kəllə sümüklərində mismarlar aşkarlanıb. İnsanların başına mismar vurmaqla öldürülməsi bu vəhşiliyin hüdudlarının olmadığını göstərir. Xüsusi qəddarlıqla öldürülən insanlar su arxlarına və quyulara doldurulub, üzərləri torpaqla örtülüb.

2007-ci ilin aprelində Quba stadionunun təmiri ilə əlaqədar aparılan qazıntı işləri nəticəsində kütləvi məzarlıq aşkarlandı. Məzarlıqdan tapılan insanların cəsədləri üzərində tibbi ekspertiza, antropoloji araşdırmalar aparıldı. Məzarlıqda 500-dək insan kəlləsi vardı. Onlardan 50-dən çoxu uşaqlara, 100-dən çoxu qadınlara aid idi. Bu adamların 1918-ci ildə ermənilərin Qubada törətdiyi soyqırımı qurbanları olduğu sübuta yetirildi. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycan xalqının gələcək nəsillərinin milli yaddaşının qorunması və soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 30 dekabr 2009-cu il tarixli sərəncamı ilə Quba şəhərində "Soyqırımı memorial kompleksi"nin yaradılmasına qərar verdi. Prezident İlham Əliyev "Soyqırımı memorial kompleksi"nin açılışı zamanı demişdir: "1918-ci ilin mart-iyul aylarında erməni quldur dəstələri Azərbaycanın demək olar ki, bütün ərazilərində dinc əhaliyə qarşı soyqırımı törətmişlər. Beş ay ərzində 50 mindən çox soydaşımız erməni faşizminin qurbanı olmuşdur. Bakıda, Quba qəzasında, Şamaxıda, Qusarda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabağda, Lənkəranda, demək olar ki, bütün Azərbaycan torpaqlarında bizə qarşı soyqırımı törədilmişdir... Bakı soyqırımı, Quba soyqırımı, İkinci Dünya müharibəsində erməni faşizminin törətdiyi cinayətlər və keçən əsrin sonlarında növbəti dəfə erməni faşizminin təzahürləri Azərbaycan tarix elmində geniş şəkildə tədqiq edilməlidir".

Erməni vəhşiliyinin izləri Bütöv Azərbaycan coğrafiyasını əhatə etmişdir. Soyqırımın ən qanlı izlərinə Qərbi Azərbaycan ərazilərində - Göyçə, Zəngəzur, Dərələyəz və digər regionlarında da rast gəlinmişdir. Bu qanlı cinayətləri Yuxarı Bəyaziddən olan daşnak Valıram belə təsvir etmişdir: "Mən Basarkeçərdə heç nəyi nəzərə almadan türk əhalisini qırdım, lakin bəzən gülləyə hayıfım gəlirdi. Bu köpəklərə qarşı ən düzgün vasitə odur ki, döyüşdən sonra bütün sağ qalanları toplayıb su quyularına doldurub üstündən ağ daşları tökəsən ki, onlardan əsər-əlamət qalmasın. Mən elə də etdim: bütün kişiləri, qadınları və uşaqları bir yerə topladım, əvvəlcə hamısını quyuya atdım, sonra isə quyunu ağzınadək daşla doldurub işlərini bitirdim".

Soyqırımın ən dəhşətlisini ermənilər Pəmbək kəndində həyata keçirmişdilər. 1918-ci ilin Novruz bayramı günü gözlənilmədən erməni hərbi hissələri kəndi qəflətən mühasirəyə alaraq, iclas adı ilə 13 yaşından yuxarı 411 kişini qoyun yatağına toplamışdılar. Ermənilər belə bir hiylə işlətmişlər: "Biz qonşuyuq. Sizə qarşı heç bir düşmənçilik münasibətimiz yoxdur. Ancaq gözlənilən təhlükədən sizi xilas etmək istəyirik. Belə ki, Sasundan (Türkiyə) erməni ordusu gəlib Qarakilsəyə çatmışdır. Sizin həyatınız təhlükədədir. Ona görə bütün kişilər silahları ilə birlikdə (13 yaşdan yuxarı) kəndin ucqarındakı komaya (tövlə) toplansınlar. Silahınızı və özünüzü müdafiə edək. Sasun qoşunları Dilicana getdikdən sonra evinizə qayıdarsınız". Camaat qonşularına inanmışlar. Ermənilər onların silahını siyahı üzrə təhvil almışlar, özlərini komaya doldurub "mühafizə" etmişlər. Sonra onlar qapı-bacanı kəsmiş, əvvəlcə güllə-baran etmiş, sonra isə bacalardan ot və neft töküb od vurmuşlar. 411 nəfər kişidən yalnız meyitlərin altında qalmış və ardınca kom tövləsinin buxarısından bir nəfər qaçıb canını qurtarmışdır (İndi həmin şəxsin - Molla İsmayılın övladları Bakı şəhərində yaşayır). Kəndin digər sakinləri - qadınlar və uşaqlar hadisədən xəbər tutduqdan sonra kəndi tərk edib meşələrə, dağlara qaçmışlar, kiçik yaşlı uşaqlar meşələrdə soyuqdan tələf olmuşlar. Daşnak hökuməti isə hadisədən bixəbər olduğunu bildirmişdir. Ümumiyyətlə, Pəmbək mahalında 9 azərbaycanlı kəndində həmin vaxtda 1000 nəfərdən çox azərbaycanlı qətlə yetirilmişdir. 1918-1920-ci illər ərzində Arçut kəndindən 60 nəfər həlak olmuşdur.

1918-ci il Novruz bayramı günündə Əştərək yaxınlığında Gözəldərə (Tülkügözəldərə) kəndinə də ermənilər basqın etmişlər. 600 nəfərdən çox sakini qətlə yetirib kəndin bütün tikililərini tam yandırmışlar. Ehtimal edirdilər ki, evlərdə və quyularda kimsə gizlənə bilər. Bu faciə Xatın və Xocalı faciələrindən də dəhşətli idi. Hazırda kəndin xarabalığı mövcuddur. Həmin kənddən üç nəfər gənc qaça bilmişdir ki, bu gün onların Gürcüstanın Marneuli rayonunun Daştəpə kəndində nəsli-övladları yaşayır.

Soyqırımı zamanı Qərbi Azərbaycan ərazisində elə azərbaycanlı ailəsi yox idi ki, erməni təcavüzünə məruz qalmamış olsun, əksər ailələr isə tamamilə məhv edilmişdir.

Azərbaycanlıların soyqırımını etiraf edən bolşevik A. Lalayan yazırdı: "Ermənilər tərəfindən azərbaycanlıların qırılması çoxdan başlanıb, dövlət siyasəti səviyyəsinə qaldırılmış və Azərbaycan hüdudlarından kənara çıxmışdır. Onda təəccüblənməyə dəyərmi ki, ancaq Ermənistanda daşnak hökuməti "özünün 30 aylıq hakimiyyəti dövründə (may 1918-noyabr 1920) azərbaycanlı əhalisinin 60 faizini qırmışdır".

1918-1920-ci illərdə qərbi azərbaycanlıların başına gətirilən müsibətlər, günahsız adamların, qadınlar və uşaqların ağlasığmaz işgəncələrlə qətlə yetirilməsi haqqında məlumat verən arxiv sənədləri də az deyildir. Şahidlərin ifadəsinə və rəsmi sənədlərə əsasən, Zəngəzur qəzasında 115 müsəlman kəndi dağıdılmışdır. Göstərilən kəndlərdə 3257 kişi, 2276 qadın, 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın, 425 uşaq yaralanmışdır. Bütün qəza üzrə 10068 nəfər müsəlman əhalisi öldürülmüş və şikəst edilmişdir.

Zəngəzur qəzasının yüzdən artıq kəndinin dağıdılması, yüz minlərlə mal-qara oğurlanması, bağların, tarlaların məhv edilməsi müsəlman qəzasının iqtisadi vəziyyətini dilənçi vəziyyətinə salmış, 50000-dən çox qaçqın Azərbaycanın kəndlərinə pənah gətirmişlər. Sadə hesablamalara görə, qəzanın azərbaycanlılarına 1 milyard manat zərər vurulmuşdur.

Zəngəzurda baş verən hadisələr haqqında hər cür yalan məlumatları təkzib etmək üçün Azərbaycan Xalq Cümhuriyyəti hökuməti məlumat yaymışdır. Məlumatda deyilirdi: "Təqribən bir ilə yaxın Zəngəzur qəzası sahəsində yerli bolşevik əhval-ruhiyyəli ermənilərdən ibarət müxtəlif silahlı bandit dəstələri fəaliyyət göstərmişdir. Bu bandit dəstələri əhalini qorxudaraq və Azərbaycan hökumətini tanımayaraq müsəlman kəndlərini dağıtmış, öz doğma yurdlarını tərk etməyə məcbur olan və qonşu qəzalarda sığınacaq axtaran dinc əhalini qarət etmişlər. 60000 nəfərdən artıq müsəlman qaçqınlar, yersiz-yurdsuz aclığın və soyuğun bütün sınaqlarını görmüşlər".

İrəvan quberniyasında 1918-ci ilin mart ayınadək dağıdılmış və tərk edilmiş müsəlman kəndlərinin siyahısında quberniyada 15155 təsərrüfatı təmsil edən 199 kənd (100 626 nəfər) göstərilmişdir. 1908-1918-ci ilə qədər əhali artımı da hesablanaraq dağıdılmış kəndlərin əhalisi 135 000 nəfər təşkil etmişdir.

1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmişdir.

Beləcə, XX əsrin yalnız birinci rübündə törədilmiş iki qırğında (1905-1907, 1918-1920-ci illər) təqribi hesablamalara görə, öldürülən, didərgin düşən və digər zərərçəkən azərbaycanlıların sayı 2 milyona yaxındır. Lakin 1920-ci ilin noyabrından sonra daşnak hakimiyyətinin devrilməsi xəbərini eşidən qərbi azərbaycanlılar tədricən öz ata-baba yurdlarına qayıtmağa, keçmiş ədavəti unudaraq, ermənilərlə qonşuluq etməyə başlamışlar. 1920-ci ildə bütün Ermənistanda cəmi 10000 azərbaycanlı qaldığı halda 1922-ci ildə qaçqınların qayıtması hesabına onların sayı 77767 nəfər, 1931-ci ildə 105898 nəfər olmuşdur. XIX əsrin sonunda İrəvan quberniyası Qafqazda yaşayan azərbaycanlıların sayı baxımından Bakı və Yelizavetpol (Gəncə) quberniyalarından sonra üçüncü yeri tutmuşdur.

Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm ki, 44 günlük Zəfər müharibəsindən sonra Xocavəndin Edilli kəndi ərazisində I Qarabağ savaşında əsirlərin qətlə yetirilərək kütləvi şəkildə basdırıldığı məzarlıq aşkar edildi. Bu hadisə onu göstərir ki, işğaldan azad olunmuş ərazilərimizdə soyqırımı cinayətlərinin izləri hələ tam araşdırılmayıb. Tarixçilərimiz və vətəndaş cəmiyyəti institutlarımız bu sahədə fəal olmalı, koordinasiya edilmiş şəkildə fəaliyyət göstərərək Azərbaycan ərazisində baş vermiş soyqırımı cinayətlərini daha dolğun şəkildə tədqiq edərək beynəlxalq ictimayyətə çatdırmalıdırlar.

Həmçinin Azərbaycan Milli Ensiklopediyası nəzdində Soyqırımı Ensiklopediyası yaradılması bu istiqamətdə atılan faydalı addım olardı.

### Zəngəzur dəhlizi və tarixi ədalətin bərpası

Zəngəzur dəhlizi Azərbaycanın tarixi ərazisi olan Zəngəzurdan keçərək Naxçıvanı ölkəmizin əsas ərazisi ilə birləşdirməyi nəzərdə tutan strateji layihədir. Zəngəzur 1920-ci illərdə bolşeviklərin qərarı ilə Ermənistana verilmiş və bununla da Azərbaycanla Naxçıvan arasında quru bağlantısı kəsilmişdi. Bu, Azərbaycan xalqının tarixi torpaqlarından zorla qovulmasının bir mərhələsi olmuşdur.

2020-ci ildə Vətən müharibəsində qazanılan möhtəşəm Zəfər və 2023-cü ildə Qarabağın tam azad olunması ilə Azərbaycan regionda yeni siyasi reallıqlar yaradıb. Prezident İlham Əliyev dəfələrlə vurğulamışdır ki, Zəngəzur dəhlizinin açılması tarixi ədalətin bərpasıdır və bu, Azərbaycan xalqının təbii haqqıdır.

Zəngəzur dəhlizinin açılması yalnız iqtisadi və nəqliyyat əhəmiyyəti daşımır, həm də Qərbi Azərbaycana qayıdış prosesində mühüm rol oynayır. Çünki bu dəhliz vasitəsilə Azərbaycan türkləri öz ata-baba yurdlarına daha rahat şəkildə qayıda biləcəklər. Beləliklə, soyqırımı və etnik təmizləmə siyasətinin nəticələrinin aradan qaldırılması istiqamətində konkret addımlar atılacaqdır.

31 Mart Azərbaycanlıların Soyqırımı Günü təkcə keçmişimizə olan ehtiram deyil, həm də gələcəyimiz üçün bir çağırışdır. Ulu Öndər Heydər Əliyevin başlatdığı və Prezident İlham Əliyevin davam etdirdiyi milli yaddaşın bərpası siyasəti sayəsində Azərbaycan öz tarixi torpaqlarına qayıdış yolunda irəliləməkdədir.

Zəngəzur dəhlizinin açılması və Qərbi Azərbaycana Qayıdış konsepsiyası Azərbaycan xalqının tarixi haqlarının təmin olunmasının tərkib hissəsidir. Bu, eyni zamanda 31 mart soyqırımı nəticəsində itirilmiş insanlarımızın ruhuna ehtiramın təzahürü və gələcək nəsillər üçün ədalətli bir dünyanın qurulması istiqamətində mühüm addımdır. Azərbaycan dövləti bu yolda qətiyyətli addımlar atmağa davam edəcəkdir.

*Sadiq QURBANOV,*
*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*



# Britaniyalı deputat parlamentdə 31 Mart Azərbaycanlıların Soyqırımı Gününü yad edib

**Böyük Britaniya Parlamentinin üzvü Bob Blakman 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Britaniya Parlamentində çıxış edib.**



AZƏRTAC xəbər verir ki, deputat çıxışında azərbaycanlılara qarşı törədilmiş qətliamı xatırladaraq, İcmalar Palatasının bu dəhşətli hadisələr zamanı həyatını itirən insanları ehtiramla yad etməsinin vacib olduğunu deyib.

Blakman çıxışında Qarabağın işğaldan azad edilmiş ərazilərindəki mina təhlükəsinə də toxunub. O qeyd edib ki, hazırda bu ərazilərdə yüzlərlə mina əl ilə təmizlənməkdədir. Deputat Böyük Britaniya hökumətinə müraciət edərək Azərbaycanın minatəmizləmə səylərinə dəstək göstərilməsini istəyib: "Azərbaycan xalqına qarşı törədilmiş soyqırımın ildönümündə faciəvi şəkildə həyatını itirənləri yad etmək vacibdir. Bu gün işğaldan azad edilmiş Qarabağda hələ də yüzlərlə mina əl ilə təmizlənir. Hökumət Azərbaycanın bu minaları təmizləməsinə necə dəstək göstərə bilər ki, həmin torpaqlar faydalı məqsədlər üçün istifadə olunsun?"

Deputatın çıxışına cavab olaraq, Britaniyanın Avropa, Şimali Amerika və Dənizaşırı Ərazilər üzrə dövlət naziri Stiven Dauti deputatın haqlı olaraq minalar məsələsini qaldırdığını bildirib və Böyük Britaniyanın dünyada minatəmizləmə sahəsində oynadığı mühüm rolu vurğulayıb: "Bildiyiniz kimi, Böyük Britaniya bu sahədə dünyada mühüm rol oynayır. Azərbaycanın minatəmizləmə səylərinə dəstəklə bağlı Britaniyanın dəstəyi də bəllidir".

Britaniyalı nazir çıxışında regionda sülhün əhəmiyyətinə də toxunub.

# Ukrayna nəşrində Azərbaycanlıların Soyqırımı Gününə dair məqalə dərc edilib

**Ukraynanın "Kiyev diplomatik" nəşrində 31 Mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalənin müəllifi həmvətənimiz - hüquq elmləri doktoru, professor, diplomat, Ukrayna Elmlər Akademiyasının akademiki Arif Quliyevdir.**




Məqalədə müəllif 1918-ci il martın 30-dan aprelin 3-dək Bakı, Quba, Şamaxı və Azərbaycanın digər bölgələrində ermənilərin və bolşeviklərin törətdiyi qanlı cinayətlər barədə ətraflı məlumat verib.

Məqalədə Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın sonunda Azərbaycanlıların Soyqırımı Günü elan edilməsi haqqında sərəncamı xatırladılır və soyqırımın beynəlxalq birlikdə təbliğində Prezident İlham Əliyevin misilsiz xidmətlərinə diqqət yetirilir.

Məqalədə, həmçinin ermənilər tərəfindən soyqırımı, etnik təmizləmə və irqi ayrı-seçkilik cinayətlərinə məruz qalmış günahsız qurbanların 107-ci ildönümünün Azərbaycan xalqının dərin hüznlə yad etdiyi bildirilib, erməni daşnak-bolşevik silahlı dəstələri və terrorçu təşkilatları tərəfindən ötən əsrin əvvəllərində törədilmiş insanlıq əleyhinə olan cinayətlər barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə daha dolğun çatdırılması məqsədilə sistematik işlərin həyata keçirildiyi vurğulanıb.

# Orucluqdan sonra necə qidalanmalı?

**11 ayın sultanı - Ramazan ayı başa çatıb. Orucluğun bitməsi həm də qidalanma rejimində dəyişiklik deməkdir. Bir ay boyunca aclığa və susuzluğa öyrəşmiş orqanizm əvvəlki qida rejiminə birdən-birə qayıdanda müxtəlif sağlamlıq problemləri ilə üzləşə bilər. Mütəxəssislər bildirirlər ki, orqanizmin orucluqdan sonra tam normal vəziyyətə qayıtması üçün təxminən üç həftə vaxt lazımdır.**



Oruc zamanı orqanizmdə maddələr mübadiləsi yavaşıdığı üçün sonrakı müddətdə ilk növbədə onu sürətləndirmək lazımdır. Bir ay müddətində boş qalmağa vərdiş edən mədə üçün çox qida qəbulu ağır olur. Üstəlik, orucluğun sona çatması ilə birlikdə insanlarda psixoloji olaraq həddindən artıq yemək meyli müşahidə edilir. Bu isə vəziyyəti qəlizləşdirir. Səhhətdə müəyyən problemlərin yaranmaması üçün köhnə bəslənmə vərdişinə yavaş-yavaş dönmək lazımdır.

Ramazan ayı ərzində susuzluq yaratmasın deyə insanlar yağlı, duzlu, turş qidalardan uzaq dururlar. Orucluq bitən kimi həmin qidaları istehlak etmək mədə-bağırsaq və həzm sistemində problemlər yarada bilər. Bu müddətdə qızardılmış, çox yağlı və şəkərli qidaların əvəzinə, sobada bişirilmiş yeməklərə üstünlük verilməlidir. Marqarin, krem, mayonez, çipsi, souslar, habelə hazır paket qidalar kimi enerji dəyəri yüksək, heç bir bəsləyici dəyəri olmayan məhsullardan da yayınmaq lazımdır.

Orucluq bitdikdən sonra gün ərzində 4-5 dəfə olmaqla meyvə-tərəvəzin üstünlük təşkil etdiyi qidaları az-az, tez-tez qəbul etmək məsləhətdir. Bu həm qanda şəkəri nizamlayar, həm də çox miqdarda qida qəbulunu önləyər. Gündəlik rasionda mövsümi meyvə-tərəvəzlərin qəbulu ilə yanaşı, quru meyvələrdən də istifadə etmək olar. Bu, itirilən mineral və vitaminlərin bərpasına kömək edir.

Bağırsaq fəaliyyətini yaxşılaşdırmaq üçün meyvə və tərəvəzlərlə birlikdə tam taxıllar kimi lifli qidalara da üstünlük verilməlidir. Qida rasionunda zülal (ət, balıq, yumurta) və sağlam yağların (zeytun yağı, qoz-fındıq) olmasına diqqət etmək lazımdır. Yeməkləri yavaş-yavaş çeynəmək və tələsmədən yemək həzm prosesini asanlaşdırır.

Gün ərzində qəbul edilən maye miqdarını da diqqətdən kənar qoymaq olmaz. Bədəndəki maye itkisini tarazlaşdırmaq üçün gün ərzində bədən çəkisinin 3 faizi mislində, təxminən 2,5-3 litr su qəbul edilməlidir. Çay və qəhvə kimi içkilərin suyun yerini tutmadığı unudulmamalıdır. Şirin və qazlı sulardan isə ümumiyyətlə, uzaq durmaq lazımdır.

Orucluqdan sonrakı müddətdə qida rasionu ilə birlikdə fiziki aktivliyə də diqqət ayırmaq tövsiyə edilir. O, bağırsaq hərəkətlərini artırır, qanda şəkəri və xolesterolu azaldır, həm də kilo itirməyə kömək olur. Orucluqdan sonrakı günlərdə bədən hərəkətləri etmək, yürüşə çıxmaq orqanizmi əvvəlki vəziyyətinə gətirməyə kömək edir. Hər gün təmiz havada yarım saat piyada gəzmək faydalıdır.

Ramazan ayından sonra yuxu rejimini qaydaya salmaq olduqca önəmlidir. İnsanlar bir ay ərzində imsak üçün istər-istəməz gecə yarısından oyaq olurlar ki, bu da yuxu rejimini pozur. Keyfiyyətli yuxunun sağlamlığın təməlini təşkil etdiyi isə hər kəsə bəllidir. Buna görə də axşam saat 23:00-da yatmağın yuxu rejimini tənzimlədiyi bildirilir. Mütəxəssislər qeyd edirlər ki, sadalanan tövsiyələrə riayət etməklə orqanizmin orucluqdan sonrakı uyğunlaşma prosesini asanlaşdırmaq mümkündür.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Türkiyədə Novruz rəsmi bayram elan ediləcək

Türkiyədə Ramazan bayramı ilə əlaqədar doqquzgünlük tətildən qısa müddət sonra hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) Novruzun ölkədə rəsmi bayram olmasına dair qanun layihəsinin hazırlanmasına başlamağı planlaşdırır. AZƏRTAC xəbər verir ki, bu barədə "Cümhuriyet" qəzeti partiyadakı mənbələrə istinadla məlumat yayıb.

Nəşr xatırladır ki, bu təşəbbüs daha əvvəl Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən irəli sürülüb. O, Novruzun türk dünyası üçün ortaq bayram olmasının vacibliyini vurğulamışdı.

Qəzetin yazdığına görə, qanun layihəsi AK Parti Sədrinin türk dövlətləri ilə əlaqələrə cavabdeh olan müavini Kürşat Zorlunun rəhbərliyi ilə hazırlanacaq.

"Cümhuriyet" yazır ki, partiya bu bayramın türk xalqlarının mədəni yaxınlaşmasına yeni töhfə olacağına əmindir.


## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik
İkiqat bayram
Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamın Sarıcalı kəndinin birinci mərhələsinin açılışında iştirak ediblər
Prezidentin Mətbuat xidmətinin məlumatı
Tarixi Şuşa sürətlə bərpa olunur
Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada bir sıra açılışlarda iştirak edib və aparılan tikinti işləri ilə tanış olublar
Almaniya Prezidenti Administrasiyası bu ölkənin Prezidentinin sosial media profilində yerləşdirilmiş postla bağlı Azərbaycan tərəfinə üzrxahlıq edib
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq

Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, aprelin 3-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, gecəyə doğru bəzi şəhərətrafı ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə zəif duman olacağı gözlənilir. Mülayim cənub-qərb küləyi gündüz şimal-qərb küləyi ilə əvəz olunacaq.

Havanın temperaturunun gecə 10-14° isti, gündüz 19-24° isti olacağı proqnozlaşdırılır. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 757 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75 faiz, gündüz 50-55 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi, gecə və səhər arabir duman olacağı ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda fasilə olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 9-14° isti, gündüz 22-27° isti, dağlarda gecə 3-8° isti, gündüz 12-17° isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurun bəzi yerlərində fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Axşam tədricən kəsiləcək. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir güclənəcək. Havanın temperaturunun gecə 6-11°, gündüz 18-23° isti olacağı ehtimal edilir.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygölün bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, dolu düşəcəyi ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Gecə və səhər arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə güclənəcək. Havanın temperaturunun gecə 3-8°, gündüz 12-17° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda əsasən gecə və axşam bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 5-10°, gündüz 15-20°, bəzi yerlərdə 25° isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində əsasən gecə və axşam arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 20-25° isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarın bəzi yerlərində arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Gündüz yağıntıda fasilə olacaq. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 7-12°, gündüz 19-24° isti, dağlarda gecə 3-8°, gündüz 13-18° isti olacağı gözlənilir.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Lakin gecə və axşam bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Qərb küləyi əsəcək, arabir ayrı-ayrı yerlərdə güclənəcək. Havanın temperaturu gecə 9-14°, gündüz 22-27° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək, dağlarda arabir güclənəcək. Havanın temperaturunun gecə 9-13°, gündüz 18-23° isti, dağlarda gecə 9-12°, gündüz 15-20° isti olacağı proqnozlaşdırılır.

# Batumi Dram Teatrının kollektivi "Arşın mal alan" operettasını gürcü dilində səhnələşdirib



**Batumi Dram Teatrının kollektivi dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin dünyaşöhrətli "Arşın mal alan" operettasını gürcü dilində səhnələşdirib.**

AZƏRTAC xəbər verir ki, tamaşa aprelin 2-də Acarıstan Muxtar Respublikasının Batumi Dram Teatrında gürcü dilində nümayiş etdirilib.

Səhnə əsəri Azərbaycanın Batumidəki Baş konsulluğunun dəstəyi ilə ərsəyə gəlib. Tamaşada Sultan bəy obrazını Laşa-Giorgi Papuaşvili, Cahan xanım rolunu Ketevan Qorqadze, Əsgər rolunu David Qarsamia, Gülçöhrə rolunu Nita Çixeidze, Süleyman rolunu Tamonqo Cğeria, Asya rolunu Keti Xaratişvili, Telli rolunu Ruska Mağaşvili, Vəli rolunu isə David Mamrikişvili oynayıblar.

Tamaşanı Acarıstan hökumət rəsmiləri, bələdiyyə rəhbərləri, Azərbaycanın Batumidəki baş konsulu Fuad Əzizov, eləcə də gürcü və Azərbaycan icmalarının üzvləri, mədəniyyət və incəsənət xadimləri izləyiblər.

Baş konsul F.Əzizov dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin operettasını səhnələşdirən təşkilatçılara və aktyor heyətinə təşəkkür edib. Bildirib ki, bu cür tədbirlər ölkələrimiz arasında mədəni əlaqələrin möhkəmlənməsində mühüm rol oynayır.

Teatrın kollektivi göstərilən dəstəyə görə baş konsula minnətdarlıq edib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının kollektivi Prezident Administrasiyasının rəhbəri Samir Nuriyevə qayınatası

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi Bəylər Eyyubova əzizi

**XALİDƏ ŞAHVERDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektoru professor İbad Abbasov və professor-müəllim heyəti Azərbaycan Respublikası Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi Bəylər Eyyubova əzizi

**XALİDƏ ŞAHVERDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə qayınatası

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi Bəylər Eyyubova əzizi

**XALİDƏ ŞAHVERDİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadəyə qardaşı

**MƏZAHİR SƏMƏDZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisi Bəylər Eyyubova əzizi

**XALİDƏ ŞAHVERDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədova qardaşı

**HÜSEYN ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevə əzizi

**SAHİB QƏDİMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, Ağsaqqallar Şurasının sədr müavini professor Vahid Novruzova əmisi

**VAQİF MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3480
Sifariş 638

Qiyməti 60 qəpik